فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال دوم ، شماره ششم ، زمستان ۱۴۰۳
"Studies on Azerbaijan and Turk's History" Specialized Journal, year 02, issue 06, Winter 2025
"Azərbaycan və Türk Tarixi Araşdirmalar" ixtisaslaşdirilmiş jurnal, il 02, nömrə 06, Qiş 2025
Üç Aylık "Azerbaycan ve Türkiye Tarihi Üzerine Araştırmalar" Uzmanlık Dergi, yıl 02, sayı 06, Kış 2025

**علسگر سیابلی**

**ایمیل:**

siyabli@yahoo.de

**وابستگی:**

پژوهشگر تاریخ باستان، توران و تاریخ تُرک.

استاد سابق دانشگاه معماری وساختمان آذربایجان. بازنشسته. آلمان

**مترجم:** مهندس علی همای پناه

# یادداشتهایی درباره تاریخ قومی ایران و آذربایجان

**چکیده:**

در این مقاله، اطلاعاتی درباره ریشه های کهن تاریخ قومی ایران و آذربایجان منعکس شده است. بسیاری از تاریخنگاران، چه در دوره شوروی و چه در دوران معاصر، با تحریف حقایق تاریخی ادعا میکنند که تُرکها در سده یازدهم میلادی و در دوره سلجوقیان به سرزمینهای ایران و آذربایجان وارد شدند و با همگونسازی مردم بومی، این مناطق را تُرکسازی کردند. اما بررسی دقیق تاریخ قبیله های باستانی ساکن در جغرافیای ایران، بین النهرین و کوههای زاگرس، و نیز دولتهایی مانند سومر، سوبیر، عیلام و کاسی، همراه با تحلیل کتیبه های میخی کشف شده در این مناطق، آثار باستانشناختی و نامهای جغرافیایی باستانی، نشان میدهد که نه تُرکها، بلکه قبایل ایرانی زبان به این سرزمینها مهاجرت کردند. این در حالی است که هزاران سال پیش از اسکان این قبایل، تُرکهای باستان پایه های تمدن نخستین را در این جغرافیا نهادند و دولتهای بیشماری تأسیس کردند.

**کلمات کلیدی:** آذربایجان و ایران، تاریخ قومی، سومریان، سوبیرها، سوگیرها و سونقورها، عیلامیان، کاسیها، تُرکها، آریاییها.

**استناد (آپا):**

سیابلی، ع. یادداشتهایی درباره تاریخ قومی ایران و آذربایجان. ارومیه: فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال ۰۲، شماره ۰۶، زمستان ۱۴۰۳. ۸۶۹۰-۳۰۴۱ شاپا

فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال دوم ، شماره ششم ، زمستان ۱۴۰۳
**“Studies on Azerbaijan and Turk's History” Specialized Journal, year 02, issue 06, Winter 2025**
**“Azərbaycan və Türk Tarixi Araşdirmalar” ixtisaslaşdirilmiş jurnal, il 02, nömrə 06, Qiş 2025**
**Üç Aylık “Azerbaycan ve Türkiye Tarihi Üzerine Araştırmalar” Uzmanlık Dergi, yıl 02, sayı 06, Kış 2025**

**Alasgar Siabli**

**Email:**

siyabli@yahoo.de

**Affiliation:**

Ancient history, Turanian and Turkic history researcher

Former teacher at Azerbaijan University of Construction and Architecture. Retired. Germany

# NOTES ON THE ETHNIC HISTORY OF IRAN AND AZERBAIJAN

## Abstract:

This article reflects some information about the ancient roots of the ethnic history of Iran and Azerbaijan. Many historians, both in the Soviet period and in the modern period, distort historical facts and claim that the Turks came to the lands of Iran and Azerbaijan in the 11th century during the Seljuk period and assimilated the local population and Turkified them. However, serious research on the history of ancient tribes who lived in the geography of Iran, Mesopotamia and the Zagros Mountains, and Turanian states such as Sumer, Subir, Elam and Kassi, and the information reflected in the cuneiform texts, archaeological monuments and paleotoponics discovered in these regions, refute these claims. Historical evidence shows that Iranian-speaking tribes, not Turks, came to this region in later periods, after the Turks, and settled there. It is also proven by historical documents that, thousands of years before Iranian-speaking tribes settled here, Turanian Proto-Turkic tribes first laid the foundations of civilization in this geography and founded many states.

**Key words:** Azerbaijan and Iran, Ethnic history, Sumerians, Subirs, Sugirs and Songurs, Elamites, Kassians, Turks, Aryans

**CITATION (APA):**

Siabli, A. NOTES ON THE ETHNIC HISTORY OF IRAN AND AZERBAIJAN. Urmia: "Studies on Azerbaijan and Turk’s history" Specialized Journal, year 02, number 06, winter 2025, ISSN: 3041-8690.

**Ələsgər Siyablı**

**E-poçt:**

siyabli@yahoo.de

**Mənsubiyyət:**

Qədim tarix, Turan və Türk tarixi araşdırıcısı

Azərbaycan İnşaat və Arxitektura Universitetinin keçmiş müəllimi. Təqaudçü. Almaniya

# İRANIN VƏ AZƏRBAYCANIN ETNİK TARİXİ HAQQINDA BƏZİ QEYDLƏR

**Xülasə:**

Bu məqalədə İranın və Azərbaycanın etnik tarixinin qədim köklərin haqqında bəzi məlumatlar öz əksini tapmışdır. İstər sovet dövründə və istərsə də müasir dövürdə bir çox tarixçilər tarixi faktları təhrif edərək türklərin İran və Azərbaycan ərazisinə XI əsrdə Səlçuqlular dönəmində gəldiklərini və yerli xalqı assimlyasiya edərək türkləşdirdiyi iddialarını irəli sürürlər. Lakin İran coğrafiyası, Mesopotamiya və Zaqros dağları ərazisində mövcud olmuş qədim tayfaların və Sumer, Subir, Elam, Kassi kimi dövlətlərin tarixinin ciddi araşdrılması və bu ərazilərdə aşkar edilmiş mixi yazı mətnlərində əks olunan bilgilər, arxeoloji abidələr, paleotoponimlər türklərin deyil, irandilli tayfaların bu əraziyə gəlmə olduğunu və onların burda məskunlaşmağa başlamasından min illər öncə öntürk tayfalarının bu coğrafiyada ilkin uyqarlığın əsasını qoyduqlarını və çoxsaylı dövlətlər yaratmış olduqlarını sübut edir.

**Açar sözlər:** Azərbaycan və İran, Etnik tarix, Sumerlər, Subirlər, Suqir və Sonqurlar, Elamlar, Kassilər, Türklər, Aryanlar

**CITATION (APA):**

Siyablı, Ə. İRANIN VƏ AZƏRBAYCANIN ETNİK TARİXİ HAQQINDA BƏZİ QEYDLƏR. Urmiya: "Azərbaycan və Türk tarixi araşdırmalar" İxtisaslaşdırılmış Jurnal, il 02, nömrə 06, qiş 2025, ISSN: 3041-8690.

**Alasgar Siabli**

**E-posta:**

siyabli@yahoo.de

**Üyelik:**

Antik tarih, Turan ve Türk tarihi araştırmacısı

Azerbaycan İnşaat ve Mimarlık Üniversitesi'nde eski öğretim görevlisi. Emekli. Almanya

# İRAN VE AZERBAYCAN'IN ETNİK TARİHİNE DAİR NOTLAR

**Özet:**

Bu makale İran ve Azerbaycan'ın etnik tarihinin kadim kökleri hakkında bazı bilgileri yansıtmaktadır. Hem Sovyet döneminde hem de modern dönemde birçok tarihçi, tarihi gerçekleri çarpıtmakta ve Türklerin İran ve Azerbaycan topraklarına 11. yüzyılda Selçuklular döneminde gelerek yerel halkı asimile etdiğini ve Türkleştirilmiş olduklarını iddia etmektedirler. Ancak İran coğrafyası, Mezopotamya ve Zagros Dağları topraklarında yaşamış olan kadim kavimlerin ve Sümer, Subir, Elam ve Kassi gibi Turani devletlerin tarihlerine ilişkin yapılan ciddi araştırmalar ve bu bölgelerde keşfedilen çivi yazılı metinlerde, arkeolojik anıtlarda ve paleotoponilerde yansıyan bilgiler, bu bölgeye Türklerin değil, İrani dil konuşan kabilelerin daha geç dönemlerde, Türklerden sonra gelip yerleştiklerini göstermektedir. İran dilli kavimlər buraya yerleşmeden bin yıllar önce Turanlı Ön Türk kavimlerin bu coğrafyada ilkin medeniyetin temellerini attıkları ve çok sayıda devletler kurmuş oldukları tarihi belgelerle de kanıtlanmaktadır.

**Anahtar kelimeler:** Azerbaycan ve İran, Etnik tarih, Sümerler, Subirler, Sugirler ve Songurlar, Elamlılar, Kasyalılar, Türkler, Aryanlar

**CITATION (APA):**

Siabli, A. İRAN VE AZERBAYCAN'IN ETNİK TARİHİNE DAİR NOTLAR. Urmiye: Üç Aylık “Azerbaycan ve Türkiye Tarihi Üzerine Araştırmalar” Uzmanlık Dergi, yıl 02, sayı 06, kış 2025, ISSN: 3041-8690.

فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال دوم ، شماره ششم ، زمستان ۱۴۰۳
"Studies on Azerbaijan and Turk's History" Specialized Journal, year 02, issue 06, Winter 2025
"Azərbaycan və Türk Tarixi Araşdirmalar" ixtisaslaşdirilmiş jurnal, il 02, nömrə 06, Qiş 2025
Üç Aylık "Azerbaycan ve Türkiye Tarihi Üzerine Araştırmalar" Uzmanlık Dergi, yıl 02, sayı 06, Kış 2025

# ایرانین و آذربایجانین ائتنیک تاریخی حاققیندا بعضی قئیدلر

**علی عسگر سیابلی**

**ایمیل:**

siyabli@yahoo.de

**منسوبیت:**

قدیم تاریخ، توران و تورک تاریخی آراشدریجیسی. آذربایجان ساخت ومعماری یونیورسیته¬سینین کئچمیش معلمی. (آلماندان اوتورقان-بازنیشسته)

**سؤزمه :**

بو مقالهده ایرانین و آذربایجانین ائتنیک تاریخینین قدیم کؤکلرین حاققیندا بعضی معلوماتلار اؤز عکسینی تاپمیش‌دیر. ایسته ر سووئت دؤورونده و ایسترس ده معاصر دؤووره بیر چوخ تاریخچی لر تاریخی فاکت لاری تحریف ائدرک تورک لرین ایران و آذربایجان اراضی‌سینه ۱۱-جی عصرده سلجوق‌لولار دؤنه‌مینده گلدیک لرینی و یئرلی خالقی آسیمیله ائدرک تورک لشدیردیی ادعالارینی ایره لی سورورلر. لاکین ایران جغرافییاسی، بین النهرین و زاگروس داغلاری اراضی‌سینده موجود اولموش قدیم طایفالارین و سومر، سابیر،عیلام،کاسی کیمی دؤولتلرین تاریخینین جدی آراشدریلماسی و بو اراضی لرده آشکار ائدیلمیش میخی یازی متنلرینده عکس اولونان بیلگیلر، اسکی بیلیمی(باستانشناسلیق) اثرلرینده، پالوتوپونیملر تورک لرین دئییل، ایران دیللی طایفالارین بو اراضییه گلمه اولدوغونو و اونلارین بوردا مسکونلاشماغا باشلاماسیندان مین ایللر اؤنجه اؤن تورک طایفالارینین بو جغرافییادا ایلکین اویغارلیغین(تمدن وفرهنگ) اساسینی قویدوقلارینی و چوخسایلی دؤولتلر یاراتمیش اولدوقلارینی ثبوت ائدیر.

**آچار سؤزلر:** آذربایجان و ایران. اتنیک تاریخ. سومرلر. سوبار/سابیرلر. سوگیر و سونقورلار.

## :CITATION (APA)

سیابلی، ع. ایرانین و آذربایجانین اتنیک تاریخی حاققیندا بعضی قیدلر. اورمیه: "اوچ آیلیق آذربایجان و ترکیه تاریخی اوزه رینه آراشدیرمالار" اوزمانلیک درگی. ایل ۰۲، نومره ۰۶، قیش ۲۰۲۵. ۳۰۴۱-۸۶۹۰ شاپا

İran türklərinin və o cümlədən Azərbaycanın tarixinin saxtalaşdrılması ənənəsinin əsası İran adlanan ölkədə XX əsrin əvvəllərində özləri də türk olan Əhməd Kəsrəvi, Mahmud Əfşar və digər paniranist-aryançılar tərəfindən qoyulmuş və o bu gün də davam etməkdədir.

Məsələyə paniranist və fars millətçiliyi mövqeyindən yanaşan bu üzdəniraq tarixçilər tarixi faktları təhrif edərək türklərin bu əraziyə XI əsrdə Səlçuqlular dönəmində gəldiklərini və yerli xalqı assimlyasiya edərək türkləşdirdiyi iddialarını beynəlxalq elmi saytlarda təbliğ etməkdədirlər. Lakin İran coğrafiyası, Mesopotamiya və Zaqros dağları ərazisində mövcud olmuş qədim tayfaların və dövlətlərin tarixinin ciddi araşdrılması və bu ərazilərdə aşkar edilmiş mixi yazı mətnlərində əks olunan bilgilər, arxeoloji abidələr, paleotoponimlər türklərin deyil, irandilli tayfaların bu əraziyə gəlmə olduğunu və onların burda məskunlaşmağa başlamasından min illər öncə öntürk tayfalarının bu coğrafiyada ilkin uyqarlığın əsasını qoyduqlarını və çoxsaylı dövlətlər yaratmış olduqlarını sübut edir. M.T. Zehtabinin "İran türklərinin əski tarixi" əsərində də bu haqda bəhs olunub.

Bəşər uyqarlığının əsasının Avropada Yunanıstan-Ellin və Antik-Roma, şərqdə isə Pers-Əhəməni dövləti tərəfindən qoyulduğu haqqında aryançı Avropasentrist nəzəriyyənin yaradıcıları Avropanın böyük tarixçilərinin sami və arilərin tarix səhnəsinə qədəm qoymasından min illər öncə bəşər uyqarlığının təməlinin Ön Asiyada turanlı-prototürk Sumer və Elamlılar, Avropada isə etrusklar tərəfindən qoyulduğu haqqında irəli sürdükləri fikirləri görməməzlikdən gəlirlər.

Avropanın Y.Oppert, F.Lenorman, E.Norris, Mordtmann, Q.Maspero, F.Köniq, F.Smith, Z.Raqozina kimi görkəmli tarixçiləri madayların turanlı prototürklər olduqlarını və Əhəmənilərin Midiyada hakimiyyəti xəyanətlə ələ keçirərək İran-pers dövlətini və mədəniyyətini Midiya dövləti və mədəniyyəti üzərində qurduqlarını tarixi dəlillər əsasında təsdiq edirlər. Beləliklə hind-avropalıların övgü ilə bəhs etdikləri İran mədəniyyəti orijinal mədəniyyət olmayıb onun yaradıcısı Midiya öz etnik və kültürəl kökləri ilə Sumerə, Elama və kassilərə bağlı idi. Güney Azərbaycan, o cümlədən digər İran ərazilərində yaşayan türklər qədim Ön Asiyanın turanlı ön türk xalqlarının tarixi varisləridir. İran və Güney Azərbaycan ərazisində bu gün də Sumer, Subir, Elam, Kassi, Kuti, Urartu, Midiya və s. kimi qədim uyqarlıqlara məxsus çoxsaylı paleotoponimlər və paleoetnonimlər öz mövcudluğunu qoruyub saxlamışdır. Lingvistlər bu uyqar xalqların danışdıqları dillərin eyni ilə türk dillərində olduğu kimi aqlyutativ-hecalı qruluşa malik olduğu haqqında həmfikirdirlər. Avropanın XIX, XX əsr

tarixçiləri Ön Asiyanın bu qədim uyqar xalqlarını ümumi adla Turanlılar, yəni Ön Türklər adlandırırlar.

Assurologiyanın və ya başqa deyimlə sumerşunaslığın əsasını qoyan və mixi yazılı mətnləri kəşf edərək ilk araşdıran Avropanın S.Kramer, E.Norris, Y.Oppert, F.Lenorman, E.Hinks, H.Rouilson, B.Landsberger, F.Hommel və s. kimi böyük böyük tarixçiləri e. ö. VI minillikdə Mesopotamiyada ilkin bəşər uyqarlığının əsasını qoyan Sumerlərin Ön Asiyaya Türkistandan-Xəzər dənizi ətrafından, Aratta adlı ərazidən gəldiklərini, dillərinin aqlyutativ qruluşa malik və altay-türk dillərinə mənsub olduğu fikrini irəli sürmüşlər. Onlar hətta sumerlərin etnik mənşə baxımından da prototürklər
olduğu fikrini müdafiə edirdilər.

Sumerlər digər adla Kiengirlər Azərbaycan xalqının etnogenezində önəmli rol oynamışlar. Sumer adı samilərin bu xalqa verdikləri addır. Sumerlər öz ölkələrini Kalam, dövlətlərini isə Kienqir adlandırırdılar. Kəngərli türk boyu Kiengirlərin müasir varisləridirlər.

Sumerlərlə yanaşı qədim Ön Asyanın digər bir xalqı aqlyutativ-hecalı dilə malik Subartu və ya Subir xalqı da türklərin etnogenezində başlıca rol oynamışlar. Subartu İkiçayarasının m. ö. 3300-cü illə 1200-ci il arasında adı yazılı qaynaqlarda qeyd olunan qədim ölkəsidir. Subarlar Ön Asiyanın turanlı mənşəyə malik qədim etnosudur. Bir çox tarixçilər sumerləri və subirləri eyni etnik kökə malik olub eyni dilin müxtəlif dialektlərində danışan etnos hesab edirlər.

E. ö. III minillikdə Subirlər artıq bu regionda yaşayırdılar. Bir çox tədqiqatçılar subirləri xatti, hurri və urartuların əcdadları hesab edirlər. Subirlər qərbi və şərqi olmaqla iki qola bölünürlər. Subartu və subarların məskunlaşdığı ərazi Zaqros dağlarından Aralıq dənizinə qədər böyük bir ərazini əhatə etdirdi. Şərqi subirlər Urmiyə gölünə qədərki ərazidə yaşayırdılar.

Subartu adı "Su-eden-ki" idioqramı ilə yazılırdı, bu ad sumerlərin "sulu-bataqlıq ərazidə yaşayan su xalqı" adından fərqli olaraq "düzənlikdəki su xalqı" anlamı daşıyır (eden düzənlik deməkdir).

Çex mənşəli alman assuroloqu B.Hroznu Ural-altay dil ailəsinə mənsub Sumerləri öz ilkin vətənləri Türkistandan köçərək Mesopotamiyanın güneyində yerləşən ilk axın, Subirləri isə həmin ərazidən köçüb Mesopotamiyanın quzeyində yerləşən ikinci axın hesab edir. Onun izahına görə "Sumerlərin ikinci dalğası olan subirlər vaxtilə Ubeyd mədəniyyətini yaratmış protosumerlərin yerləşmiş olduqları şimali Babil ərazisində məskunlaşdılar.

Hroznı, Forrer, Jensen kimi tarixçilər Subir adının sumerlərin ilkin adları olan sugir adından yarandığı fikrini irəli sürürlər. Bu suqir adı sumerin eme-sal dialektinin fonetik qaydalarına uyğun olaraq subir-subar və sumer formasında dəyişikliyə uğramış şəklidir.

"Mixi mətnlərdə Sumerin Mesopotamiyanın şimal-şərqini əhatə edən ərazisi Şanqar, şimal-qərb isə Subir adlanırdı. Beləliklə, bu adlar Sumer xalqının Babiləqədərki qədim dönəmdə iki hissəsini təmsil edirdi. Sumerlərin braxikefal və dolixikefal olmaqla iki antropoloji tipə mənsub olma fərqlilikləri onların müxtəlif dövrdə iki axınla gəlib Mesopotamiyada yerləşmələri ilə izah edilməlidir" (Hrozni. 1953. S.39).

Sumerlərin Subir, Assurların Subartu adlandırdıqları ölkənin adı q-b əvəzlənməsi ilə Suqir adına çevrilmişdir. Sumerin Tanrı adı olan dinqir də eyni hərf əvəzlənməsi nəticəsində emesal dialektində dimmir şəklini almışdır. Forrerə görə Sangir və Sunqur eyni adın iki müxtəlif fonetik ifadəsidir. Subir dili Sumer dilinin Mesopotamiya dialektidir (Forrer. 1930, S.233).

Forrer Ön Asiyanın bir çox qədim dillərinin, o cümlədən Kiçik Asiyanın qədim xalqı olan xatti dilini də Sumer dili ilə əlaqələndirir və onları birlikdə arilərə qədərki Hatti-sunqir avtoxton xalq kimi qəbul edir.

Forrer Sumer adının ilkin formasının əslində Sonqur olduğunu və bu adın dörd müxtəlif dialektdə ifadə olunduğunu və Sonqurların Taur (Toros) dağlarından başlayaraq Elam körfəzinə qədərki düzənlik ərazidə məskunlaşdıqlarını yazır.

P.Jensenin XIX əsrin əvvəllərində yazdığına görə Amarna və Boğazköy mixi mətnlərində Babil ümümi adla Şanxara adlanır, qədim yəhidi mənbələrində o Sinar adlanır və bunlar Sunqar adının müxtəlif dialektlərdəki tərcümə şəklidir.

E.Forrerə görə, Sunqur adı mixi kitabələrinin yaranmasından öncəki dövrə aid olub təxminən e.ö. 2700-ci ildən əvvəl, hələ Yaxın Şərqin vahid bir regionunu təşkil edən mərkəzi düzənlik ərazisinin Subartu, Elam və Babil ərazilərinə bölünməsindən öncəki adıdır. Sonqur adı iki yerdə saxlanmışdı, Elamda və Mesopotamiyada, Mesopotamiyanın tam mərkəzində Assuriya kitabələrində Sonqur ölkəsi və dağ silsiləsi adları qeyd olunur. Sonqur adlı digər bir dağ silsiləsi Zaqrosun şərqində, Azərbaycan ərazisində yerləşirdi.

A.Unqnad da Sumerlərin öz qədim dialektlərində elamlıları su-qir və sa-qir adlandrırdılar. Bu ad həm Elam ölkəsini, həm də, Subartunu ifadə edirdi. Bu o deməkdir ki, elamlar subirlərlə qohum bir əhali kütləsini təşkil edirdilər. Artıq e.ö. 2700-cü ilin başlarında Sumer kralı Eannatum (təq. e.ö. 2500-2400) dövründə subirlər Elamın batısındaki Subartu adlanan bölgəyə axışaraq orda məskunlaşmışdılar (Ungnad. 1936. S.197).

G.Hüzinq Zaqros dağlarının doğu silsiləsinin elam dilində Sunqur adlandığını və mənasının "kral dağları" demək olduğunu yazır (Hüzing.1908. S.19-20).

Əslində Zaqros dağlarının gerçək adı da Sunqurdur (sumer mixi yazı sistemində "g" sağır nq kimi oxunur, sondakı "os" yunan dilinə xas şəkilçidir).

Sumercə Elamın subi-saqir adının akkadca qarşılığı Elatu şəklindədir və mənası "yüksək, yuxarı" anlamı daşıyır. Görünür akkadca bu elatu sözü türklərin dağ yaylalarında köçəriliklə əlaqədar "elat" termininin kökünü təşkil edir.

Sunqur Elamda və kassilərdə ən önəmli tanrılardan biri idi. Elamda Şuharı Sunqur Harper adlı şəhər də vardı (bəlkə də Sunqur şəhəri bu addan yaranıb).

Bu qədim öntürk tanrısına tapınmanın qalıqları türklərin ən önəmli onqonu olan Sunqur quşunun timsalında sonrakı tarixi dönəmlərdə də davam etmişdir.

Əbu Bəkr əl-Tehrani əl-İsfahani təsdiq edirdi ki, ağqoyunlu Qara Yuluk Osman bəyin 20-ci babası Sunqur bəy Məhəmməd peyğəmbərin müasiri idi. O, Alagöz və Göyçə dənizi yaylaqları tərəfdəki sərhədlərdə "kafirlərlə müharibə etmiş" və döyüşlərdən birində həlak olmuşdu.

Vaxtilə subar-sumer-sunqurların tarixi yaşayış alanını təşkil edən eyni ərazidə bu gün də onların varisləri olan sunqur türkləri öz varlığını sürdürməkdədirlər.

Beləliklə, Subirlərin sumer mətnlərində Şanqar və ya Sunqar şəklində ifadə olunan ərazisi Azərbaycanın hər iki hissəsində mövcud olan Sunqur dağları və İranda Sunqur əyaləti ilə eynilik təşkil edir. Bu dağlar Aratta dağları kimi də məhşurdur.

Güney Azərbaycanda, Kirmanşah və Həmədanda yüz minlərlə Sunqur türkləri yaşayır. Kirmanşahda sunqurların yaşadığı Sunqur əyaləti vardır və paytaxtı da Sunqur şəhəridir. O müasir Kanqavar və Sanandədj və ya Sinna arasındakı Zaqros dağlarında yerləşir (Albayrak. 2016. S.324).

Mahmud Kaşqarlı "Divani Lüğatit-Türk" əsərində Sunqurun Oğuz boylarında uran olduğunu yazır. Kitabi-Dədə Qorqudda əsirlikdə olan Qazan xan qürurla deyir ki, mənim ağ Sunqur quşu adlı bir əcdadım var.

Sunqur boyları Azərbaycanla yanaşı Türklərin yaşadığı Anadolu, Başqırdıstan, Volqaboyu, Qazaxıstan ərazilərində də məskunlaşmış və burda onların adı ilə çoxlu toponim, hidronimlər mövcuddur.

Sumer adını daşıyan Sümerin şəhəri Ərdəbillə Savalan arasındakı 35 kilometrlik məsafənin düz ortasında yerləşir. Bu şəhərin adı təhrif olunaraq şovinist irançı dairələr tərəfindən Samrin kimi qələmə verilir.

Sumerlər və subirlər yaşadıqları tarixi faciə nəticəsində öz yurdlarını tərk edib dünyaya yayılmışlar. Onların Mesopotamiyaya axın edən vəhşi sami tayfalarının təzyiqi ilə öz yurdlarını tərk edərək dünyaya yayılması faktı tarixi ədəbiyyatda "uruk expansion" və ya Uruk genişlənməsi adı ilə məlumdur. Sumerlərin və subirlərin öz yurdlarını tərk edərk Qafqazda məskunlaşması nəticəsində e.ö. IV-III minilliklərdə bütün Qafqazı, Şərqi Anadolunu, İran yaylasının şimal ərazilərini, Yaxın Şərqi və hətta Avropanı əhatə edən Kür-Araz mədəniyyəti formalaşaraq inkişaf etmişdir.

Subirlərin məskunlaşdığı ərazilər sami işğalından öncə Aturiya adlanırdı. Bu ad Assur mixi mətnlərində, Bisutun kitabəsində, qədim yunan qaynaqlarında təsbit olunmuşdur. A.Unqnadın irəli sürdüyü nəzəriyyəyə görə Anadoludan Misirə qədər olan ərazidə yaşayan subarlar öncələri Atur adlı tanrının şərəfinə Aturiya (Assur) adlanan şəhər dövlətinin də əsasını qoymuşlar. Bir çox müəlliflər əsli Atur və Aturiya formasında olan ölkə və dövlətin adının arameylərin işğalından sonra sami dilinin fonetik şəklinə uyğun olaraq Assur və Assuriya şəklində ifadə olunduğunu yazırlar (Ungnad. 1936, S. 126) .

M.Zehtabi Həmədan və Əsədabadın qərb tərəfində yerləşən Sunqur şəhərində və onun ətrafındakı iri kəndlərdə və başqa yerlərdə yaşayan türklərin Kassilərin törəmələri olaraq öz dillərini yaşatdıqlarını yazır. Onlar Elam və Kassi dövründə və ondan sonrakı tarix boyu həmişə türkcə danışıblar və bu gün də Azərbaycan türkcəsinin ləhcəsində danışırlar (Zehtabi. 2010. S.67).

Kassilər Ön Asiyanın ən qüdrətli xalqlarından biridir. Kassilər təkcə Azərbaycanda deyil bütövlükdə dünya tarixində dərin izlər buraxmış qüdrətli Turan tayfalarındandır. E.ö. III minillikdə Mərkəzi Asiyadakı Turan adlanan vətənlərindən, Xəzər dənizinin güney əraziləri üzərindən gələrək Ön Asiyada yerləşən kassilər Mesopotamiyada qüdrətli bir dövlətin əsasını qoyaraq 550 il hökm sürmüşlər. Bir çox bilim adamları kassilərin əsl yaşayış yerlərinin Zaqros dağı yaylaları, yəni Azərbaycan olduğunu qeyd edirlər. Onların bir hissəsi Zaqros dağları üzərindən keçib Babildə və Mesopotamiyanın digər ərazilərində namri adı ilə məskunlaşmışlar. Kssilərin əraziləri Urmiyə gölü hövzəsinə qədər yayılmışdı. Luristan və Zaqros dağlarının şərq əraziləri da onların ilk yerləşdikləri alanı əhatə edirdi ki, bu gün də onların qədim Baqsa və ya daha doğrusu Ba-Qusay adları qoruyub saxlanmışdır.

Kas/kaş adı ilə başlayan bütün etnonimlər kökü Kassilərə dayanmaqdadır. Kaspi sözünün kökünü də Kas etnonimi təşkil edir, adın sonundakı "pi" isə elam dilində cəm şəkilçisidir.

E.Norris, A.Virth və digər tarixçilər yunanların Kassi adlandırdıqlarının əslində Kusilər olduğunu və öz adlarını Zaqrosun xuzi xalqına və müasir Xuzistan vilayətinə verdiyini yazırlar. Kusi adı Quz adının qədim fonetik şəklidir.

Albrext Virth turanlı hesab etdiyi kassilərin etnik kimliyi haqqında suala onların Orta Asiyalı olduqlarına inandığını və onların ilkin yaşadıqları yurdun Qafqaz ola biləcəyi və adlarının Kasak və ya kaş adı ilə eyni olduğu fikrini irəli sürürdü.

Tibetin də qədim adı Kaş olmuşdur. Digər adları Kaş olan yueçilər Kuşan dövlət yaratmışdılar. Özlərini Kusi adlandıran Kassilər sonradan Susa və ya Kuz-xuzilərə öz adlarını vermişlər, Kaşqar və Kaşmir adı da onlarla əlaqədardır. A.Virt Kassilərin "Turqu" və ya "Turku" tanrısının türklərin də tanrısı olduğunu yazır (Wirth. 1905, S. 18) .

Hilprextə görə Kassilərin Turqu tanrı adının İbranilərin peyğəmbəri İbrahimin atası Terah adı və Tarxu/Turqu adı ilə eyniyyət təşkil edir (Jensen. 1898. S.153).

Sumer dilində hecaların yerdəyişməsi-metateza qaydasına görə bu ad Turuq şəklində də ifadə olunurdu və Türk sözünün arxaik ifadəsidir.

Kassilərin bəylik dövlətlərindən biri Paruraşunun kral olduğu ölkə Bit-Barbari (KUR.E-bar-ba-ri) və ya Şi-Barbari adlanıb "Qurtların ölkəsi" veya yeri deməkdir (Jackson. 1929. S.137).

Kassi dilində Buqaş tanrı deməkdir. Bu adın mənası Buğa olub, Türklərdə Buğa, Ruslarda Boq, farslarda Baqa, almanlara Bock şəklində keçmişdir.

Azərbaycanda Kassi dili əsasında izah edilə biləcək geniş yayılmış toponimlərdən biri də Kosalı yer adlarıdır. Kassilərdə və hurrilərdə Kaşali boyu mövcud olmuşdur və Azərbaycanda geniş ərazilərdə məskunlaşmış Kosalı boyu öz kökü etibarı ilə bu kassi boyu ilə əlaqədardır.

Ön Asiyada Sumerdən sonra ikinci bir uyqarlıq mərkəzi olan və müasir İranın cənubi-qərb ərazilərinin də böyük bir hissəsini əhatə edən Elam bir xalqın adı deyil müxtəlif turanlı-öntürk tayfalarını öz tərkibində birləşdirən konfederativ bir dövlətin adı idi. Elam Ön Asiyanın e.ö. III minillikdən, e.ö. VI əsrə qədər öz varlığını davam etdirmiş qüdrətli dövlətlərindən biri olmuşdur. Elama məxsus yer adları, sülalə adları, dillərindəki bir çox sözlərin türk dilləri ilə zahiri oxşarlığı və məna baxımından eyniliyi Elamlı tayfaların türklərlə yaxın qohumluq münasibətlərinə malik olduqlarını göstərir.

Qədim Elam mixi yazılı mətnlərində Kuk Simit, Kuk Tanra, Kuk İnşuşunak, Kuk Nahunte kimi bir çox tanrı və şəxs adlarının önünə "gök" anlamı daşıyan "Kuk" ünvanının artırmaqla onları tanrısallaşdırırdılar (Hinz. 1972, S.141).

Danimarkalı assuroloq Karsten M.Nibur Elamın Qutilərlə eyni olduğunu və Elam və Susadakı xuzi xalqının adının quti adı ilə eyniyyət təşkil etdiyini qeyd edir.

Belə ki, Elamın quzeyndə Xuzhqan rud (Xuz çayı) adlı çay da mövcuddur (Nibuhr, 1857, S.166).

Avropanın bir çox tarixçiləri qədim yunan müəlliflərinə əsaslanaraq Suzianani "Uksi"lər ölkəsi (Pays d'Uxiens) adlandırırlar. Bu fikir Suz, Suziana, Huz, Quz və Ukuz adlarının eyni kökdən olan sözün müxtəlif fonetik şəkilləri olduğunu isbat edir. Elamın paytaxtı Susa adının mənası "yüksəkdəki qala"-istehkam deməkdir və bizim Şuşa qalası ilə eyni anlam daşıyır.

Suz və Anşan Uksianın ən mühüm şəhərləri idilər. Strabon uksiləri heyvandarlıqla məşğul olan köçəri dağlılar və vadidəki əkinçilər olmaqla iki qoldan ibarət olduqlarını yazır (Страбон. 1994, S. 4).

Şpigel Əhəməni şahlarının Uksiləri özlərinə sona qədər tabe edə bilmədiklərini və hətta onların ərazilərindən keçmək üçün xərac ödədiklərini yazır.

Uksilərin kökü Midiya hakim sülaləsinə dayanır. Yunanlıların Kiaksar şəklində ifadə etdikləri Midiya hökmdarının adı Avestada Huksatar, elam mixi kitabələrində gerçəkdə olduğu kimi Uksatar formasında yazılmışdır. Bu ad özündə "Uksi/uqus" tayfasının adını əks etdrir. F.Lenorman adın sonundaki "tar" sözünün midiya dilində oğul demək olduğunu yazır.

Belə olduğu təqdirdə Uksatar adının midiya dilində anlamı Uksioğlu deməkdir.

Antik tarixçilər Arrian və Kurtu Rufus Makedoniyalı İsgəndərin Əhəməni dövlətinə qarşı savaşında kassilərlə yanaşı ona ən güclü direniş göstərənlərin Zaqrosun xuzi/uksi xalqı olduğunu və İsgəndərin Əhəməni ordusunu təqib etmək üçün uksilələrə barış imzalamağa məcbur olduğunu yazırlar. Onların Zaqros dağlarının şərqində yerləşən tarixi vətəni bu gün də Xuzistan adlanır. Aqqlyutativ quruluşa malik Xuzi/quz dili Əhəmənilər dövründə və daha sonra uzun illər ərzində əsas danışıq dili olmuşdur. (Lenormant. 1875, s.315).

X əsr ərəb səyyahı əl-Məqdisi və tarixçi İstəxri onların dövründə Xuzi dilinin hələ də istifadə olunduğunu və bu dilin ərəb, ivrit və fars dilindən tamamilə fərqli bir dil olduğunu yazır. Şübhəsiz ki bu dil quz/oğuz dili idi.

Beləliklə Elam-xuzi dili ərəblərin bölgəyə gəldikləri dövrdə olduğu kumu bu gün də tarixən öntürklərin məskəni olan ərazidə və İlamda quz-oğuz dilli türklər yaşamaqda davam edir .

Elam və Kassi Zaqros dağları və ətrafında yerləşmiş qonşu dövlətlər idi. Elamlılar öz ölkələrini Halatamtu və ya Hatamtu adlandrırdılar. Hal elam dilində "ölkə", "atam" türk dillərində olduğu kimi ata, "tu" isə yeri bildirir.

Elamda Teuman, Kurtaq kimi türkcə olan kral adları ilə yanaşı türkcə olduqları şübhə doğurmayan Su-maşki, Ukku (böyük), Taru, Kutur, Kuq, Atta, Kuduzuluq, Ebar, Sukkal kimi hakimiyyət sülalə ünvanları mövcud idi.

Daniel Potts Elam haqqında yazırdı: "Elamda Teoman, Kudur kimi bir çox hökmdar adları Türk adları ilə eyniyyət təşkil edirlər. Daranın Bisütun kitabəsində yazıldığına görə Əhəmənilərə tabe olmayıb e.ö. 522-ci ildə üsyan qaldıraraq özünü Elam hökmdarı elan edən şəxs Aşşena və ya Assena adlanırdı. Bu ad Göytürklərin ulu əcdadı Asena adını xatırlatmaqdadır" (Potts. 1999, S.14-17).

"Elamda hökmdarların "kutur" ünvanı mövcud idi, bu Bibliyada da öz əksini tapıb. "Kutur" sonradan hunlardakı əzəmətli, ali anlamı daşıyan "kut/kutu" ünvanı və "kutluq" sözü ilə eyniyyət təşkil edir.

Ön türklərin Kuta tanrısını iranlılar özləşdirərək Xuda şəklində ifadə edirlər. Perslər Babil mixi mətnlərində Elam adlandırılan ölkəni Ujaa, yəni Uca adlandırırdılar. Şübhəsiz ki, bu ad yüksəklik mənasındakı Elam adının Xuzi/ uksi dilində ifadəsidir və eyni ilə türkcədə uca və yüksəklik anlamı daşıyır.

Elamda Kudur ünvanı ilə bərabər uzun müddəd hakimiyyət sürən (e.ö. 1850-1505) sülalələrindən biri də Sukkal-mah sülaləsidir. Bu hakimiyyət mənsubları Sukkal ünvanı daşıyırdı. Sukkal-mah Elamın ali hökmdarı olub mənası "Böyük sukkal" deməkdir. Əyalətləri idarə edən hökmdarlar isə sadəcə Sukkal ünvanı daşıyırdılar. Sumer dilində Sukkal sözünün mənası eyni ilə türk dilində olduğu kimi "ağ saqqal, müdrik" deməkdir. Sumerlər bu sözü titul kimi vəzir və elçi anlamında da işlədirlər.

Kutur ünvanı ilə yanaşı Sukkal ünvanının da varislik ənənəsi ilə türklərə keçməsi elam tayfaları ilə türklər arasında etnik qohumluq ənənələrinin mövcudluğunu sübut edir. Göytürk xaqanlığı və Türqeş xaqanlığında da Sakkal hakimiyyət titulu idi. 706-cı ildə Türqeşlərin xaqanı Sakal xaqan olmuşdur. Görünür Sukkallar sülalə boyu və ya elit zümrəni təşkil edirdilər. Türklərdə Sakal boy adları da mövcuddur. V.Radlov Sakalı telenqit çuyların boyu, Kara sakalı isə kazax-qırğızların kiçik ordasının alçın tayfasının boy adı olduğunu yazır (Радлов. 1989, S.112).

Azərbaycan ərazisində Urmiya gölünün güneyində Zamu və İllipi ölkələrinin arasında, Zaqros dağının quzeyində Barsua ölkəsi yerləşirdi. III Salmanassarın m.ö. 858 və 856-ci illərdə Assuriyanın quzeyində və doğusunda yerləşən ölkələrə hərbi yürüşündən sonra yazdırdığı zəfər

lövhəsində fəth etdiyi və xəraca bağladığı ölkələrin siyahısında Barsua ölkəsinin adı da verilmişdir.

E.Şrader Barsuanı Midiya ilə əlaqələndirərək yazır ki, Barsua Midiyanın batısında və Elamdan quzeydə Mannanın yanında yerləşirdi. Barsua adının oxunuşunu bəzi müəlliflər Parsua şəklində də qeyd edirlər. Barsua və ya Parsuanı irandilli və ya fars ölkəsi kimi təqdim etsələr də, bir çox görkəmli bilim adamları bu fikri təkzib edirlər. Barsua etnik mənşə baxımından Parsadan tamamilə fərqli bir ölkə idi.

Bir çox müəlliflər barsları subar və kas/kusi mənşəli hesab edirlər. Samilər Barsa Namri deyirdilər. Namrilər tarixi mənbələrdə həmçinin kassilərə mənsub xalq kimi qeyd olunur.

Midiya tarixinin müəllifi Dyakonov qeyd edir ki, Diyala çayının yuxarısında Zamua ölkəsinin və Mannanın qonşuluğunda yerləşən Parsua (elamca Pasava) akkad dilində "diyar, ölkə" mənasında olub fars dili və fars etnik adı ilə heç bir əlaqəsi yoxdur və Parsuanın farsların vətəni olduğu və onların e.ö. VIII-VII əslərdə burdan çıxarılaraq indiki Fars əyalətində yerləşdikləri haqqındakı iddialar tamamilə yanlışdır. Parsuada hər hansı bir irandilli toponim və şəxs adı mövcud olmamışdır (Дьяконов, 2012, S.179).

Lakin Dyakonovun Barsuanın farsların vətəni olmadığı haqqındakı fikri doğru olsa da, onun iddialarının əksinə olaraq pars/fars adı məhz Barsua adı ilə əlaqədardır.

Artur Unqnad Subirlərin Barsu və ya Parsu adlı tanrılarının olduğunu yazır. Bars kassilərdə də müqəddəs hesab olunurdu. Yunanlar bu adı Parsa, ərəblər isə Fars şəklində ifadə edirdilər.

Görünür müxtəlif heyvanları özlərinin totem əcdadı hesab edən bir çox öntürk xalqlarında olduğu kimi Subirlərin tanrılarından biri də türklərdə mənası pələng demək olan Bars olmuşdur.

Barsua ölkə adının subirlərin Bars tanrı adından yaranması daha gerçəkçi bir yozumdur. Bars da, qurd və öküz kimi ən qədim dövrlərdən türk xalqlarının əcdad totemi-onqonu olmuşdur ki, bu ön türk subirlərdən qalma tarixi ənənənin davamıdır. Qədim turanlı etnos olan subirlərin Bars teonimi sonradan türklərdə eponim və etnonim olaraq Barsil tayfa birliyinin adında öz əksini tapmışdır.

Bars sözü türk dialektlərində iki fərqli formada Bars və Tonqa adlanır.

Əfrasiyab-Alp Ər Tonqa və digər sak qəhrəmanları döyüşlərə adı Tövrat və Quranda çəkilən əfsanəvi hökmdar Nimrud kimi bars dərisinə bürünərək gedirdilər.

Türk ellərində geniş yayılmış El-Burs dağ adı ən maraq doğuran qədim toponimlərdən biridir. Xakasiyada Sayan dağlarında Barıs dağ silsiləsi, Böyük Barıs və Kiçik Barıs mövcuddur. Dəmavənd dağının da qədim adı Bars dağı idi.

A.Unqnad və digər tarixçilər arya sözünün mənasının subar dilində "vermək" olduğunu və onun tanrı adları ilə yanaşı işlədilərək Tanrıverdi, Allahverdi anlamı daşıdığını yazırlar.

Ön Asiyanın Barsua ölkəsinin əhalisi Assuriyanın dağıdıcı müharibələri səbəbi ilə məcburi köçlərə məruz qalmış Qafqaz, Volqaboyu və Cənubi Sibir ərazisində yerləşərək Türk etnosunun Barsil/Barsel boyunu təşkil etmişlər. Barsillər Bedi Barsilin başçılığı altında Göytürk xaqanlığı dövründə adları oğuzlarla birlikdə qeyd olunur. Barsillər sonrakı dövrdə Xəzər xaqanlığının qurucu boylarından və hakimiyyət qollarından biri olmaqla, Xəzər xaqanlarının hakimiyyət sülaləsi üçün dünür/bacanaq boyunu təşkil etmişlər. Barsillər türklərin sonrakı tarixində sabir/savir adı ilə tanınmışlar.

Qədim Barsillərin böyük qismi quzeyə doğru hərəkət edərək Xəzərin şimalında və şimal-şərq ərazilərində məskunlaşmışdılar. Sonradan danışıq dilində r-z əvəzlənməsi ilə Borçalı və Bozçala şəkli alan Azərbaycan ərazisindəki Barsellərin müasir varisləri bu günki Gürcistanla yanaşı Azərbaycanın güneyindəki öz qədim yurdları olan Urumu gölü ətrafında, Sulduz bölgəsində, Həmədan vilayətində, İranın Mərkəz ostanında Ərak vilayətində Bozçalı nahiyəsində, Qomican, Təfriş, Fərahan, Növbəran, Famən kimi şəhərlərində də yaşamaqdadırlar. Borçalıları yanlışlıqla monqolların türkləşmiş Aralat boy birliyinə aid hesab edirlər.

Güney Azərbaycan ərazisində adları tarixi mənbələrdə kassi/kaşşu/kas/kusi şəklində qeyd olunan qüdrətli boy birliyi ilə əlaqələndrilən boylardan biri Kaşqaylardır. Bu türk eli İran coğrafiyasının batısında yaylaq və qışlaqları ilə böyük bir ərazini əhatə edir. Kaşqayların guya XI əsrdə səlçuklarla və ya daha sonra monqol-tatar yürüşləri zamanı bu əraziyə gəlib yerləşmələri qədim tarixi mənbələrdəki məlumatlarla təkzib olunur. Kaşqai etnoniminin kökü Kaşqa olub, sondaki "i" ərəb-fars dillərinə xas izafət şəkilçisidir və türk dillərindəki lı, li, lu şəkilçilərinin qarşılığıdır. Etnonimin gerçək ifadə şəkli Kaşqa eli -dir.

Digər bir Kaşka ulusu Hatti/hitit dövründə e.ö. III-II minilliklərdə Anadolunun quzeyində Qara dəniz sahilləri yaxınlığında məskunlaşmış turanlı mənşəyə malik xalqdır. Bir çox müəlliflər Kaşqayları qədim adları tarixi mənbələrdə Kaşka ilu kimi qeyd olunan bu xalq ilə əlaqələndrirlər. Kaşquli boy adı Hitit dövrünün Kaşka-ilu adıdnan yarana bilər. Anadoludaki qədim Kaşka eli də Kaşqaylar kimi heyvandarlıqla məşğul olub köçəri tayfalar idilər.

Biz də istər hatti/hitit dövründəki Kaşka ilu, istərsədə müasir Kaşqay eli adındakı Kaşqa etnoniminin kök etibarı ilə kassi/kas kökünə bağlı olduğu fikrini müdafiə edirik.

M.Zehtabiyə görə, Kaşqaylar digər türklər kimi tarixləri 4500 il öncəyə dayanan Sumerlərin varisləridirlər. Sumerlərdən sonra Kaşqaylar da İranın quzeyinə köçmüşlər.

Kaşqaylı araşdırıcıların da yazdıqları kimi Kaşqay eli bir çox boy birliyindən təşəkkül tapmış tayfalar konfederasiyasıdır. Bu konfederasiya İlxan tituluna malik xan tərəfindən yönətilir. Kaşqay eli bütün hakimiyyət dövrlərində özünüidarə hüququna malik olub müstəqil siyasət yürütmək cəhdlərinə görə daima mərkəzi hakimiyyətin müqaviməti ilə üzləşmiş və cəzalandırmalara məruz qalmışlar.

Kaşqaylar Kaşquli (böyük və kiçik), Şeşbəyli, Dərəşorlu, Farsimədan və Amələ olmaqla beş böyük tayfaya və Qaraçaylı, Rəhimli, Səfixanlı, İğdır olmaqla dörd kiçik tayfaya bölünürlər. Bu tayfaların hər biri çoxlu tirələrdən ibarətdir.

Xuzistanın Bəhbəhan qəzası, həmin qəzaya bağlı Ağacari nahiyəsi, Ramhürmüz qəzası və Dizful qəzasına bağlı Sərdəşt nahiyəsi torpaqları qədim Qaşqay vilayəti / Qaşqay-yurda daxildir. Qaşqay türklərinin təqribən 4.80 %-i bu vilayətin torpaqlarında yaşayır. Qaşqayların İranda ümumi sayı 2 mln. 500 min nəfərdir.

Qaşqayların hakim sülaləsi olan İlxan adlı başçılar tərəfindən idarə olunurlar. Sülalə mənşə etibarı ilə Amalə tirəsinin Şahilu qəbiləsinə mənsubdur. Şah kassilərin günəş tanrısının adı idi. Şah-ilu adının mənası Tanrı Şah deməkdir. Qədim turanlı öntürklərdə teonimləri özlərinə boy adı kimi götürmə ənənəsi vardı ki, bu baxımdan türk qəbilə adlarının bir çoxu teofor adlardır.

Amalə tayfası xalq arasında "Qallazən" tirəsi kimi tanınır. Onlar savaşçı tirədir, bu tirə öz kökünü Uyqur Türklərinə bağlayırlar. Fikrimizə görə qallazən adının kökü kassilərin endonimi olan qalzu adı ilə əlaqədar ola bilər.

Amelu Babil-kassi dövründə xalqın elit hissəsini təşkil edən sosial təbəqənin adı idi.

Kaşqayların elit təbəqəsini təşkil edən və İlxanların da mənsub olduqları Amələ tayfası öz adını bu qədim Babil-kassi elit təbəqəsinin adından götürə bilər.

Qəbilənin ən qədim tanınmış lideri XVI əsrdə yaşamış və Qandoman yaxınlığındakı Darviş adlı kənddə dəfn edilmiş Əmir Qazi Şahilu idi. Onun qəbri ziyarətgah olduğundan, yəqin ki, hansısa bir müqəddəsliyə malik insan idi. Rəvayətə görə, o, şiəliyin İranın rəsmi dini kimi bərqərar olması üçün Şah İsmayıla kömək etmişdi. Şahilu ailəsi öz mənşəini ata tərəfdən Ağqoyunlu hökmdarı Uzun Həsənə (1453-1478), ana tərəfdən isə Şah İsmayıl Səfəviyə (1501-1526) bağlayır.

Kaşqayların Kaşquli boyunun adındakı quli tərkibi Elam və kassi dilində "böyük" deməkdir. Quli Elam və Sumer tanrısı idi. Beləliklə Kaşquli adının mənası "böyük kaslar" kimi izah oluna bilər.

Farsimədanlar (bəlkə Barsemedan) boyu: Yaylaqları Abade, Gomşə, Şehriza, Burucen, Dena kimi dağətəkləridir. Qışlaqları ise Kazerun bölgəsidir. Farsimədanlar,

Xuzistandan sonra Zagrosun ən çətin bölgələrində yaşamaqdadırlar. Türkçələri çok təmizdir. Farsimədan Kaşqay eli formalaşmadan önce bu bölgədə yaşayan qədim türk boyudur. Araşdrıcılara göre, Farsimədanlar Sumer özəllikləri daşıyırlar (Albayrak. C.2. S.988).

Dərəşorlu tayfası Kaşqayların ən böyük və nüfuzlu tayfalarından biri olub qədim köklərə malikdir. Assuriya çarı Asurhaddonun e.ö. 675-ci ildə şərq ölkələrinə, yəni Zaqros dağı yaylalarında yerləşən ölkələrə yürüşünə həsr olunmuş kitabədə deyilir: "Mən Barnaku ölkəsini ayaqlarımın altına aldım, xain düşmənlər Tilaşuri sakinlərini və onların Mihranilər tərəfindən idarə olunan Pitani adlı böyük şəhərini dağıtdım" (The Cambridge History of Iran. 1968, S. 100-101).

Kitabda həmin fəslin müəllifi İ.Dyakonov Barnaku ölkəsinin mənbələrdə qeyd olunan və Elamın şimal-qərbində yerləşən Bit-Bunaki ilə eyniləşdirir və yazır ki, Tilaşuri ərazi adı Silxazi adı ilə birlikdə Babillərin qalası kimi III Tiqlatpalasarın kitabəsində də qeyd olunur. Tilaşurini Həmədanın qərbində axtarmaq lazımdır. Pitani isə qədim Padan ölkəsidir.

Fikrimizə görə Tilaşuri yer adı Dərəşorlu adının qədim fonetik şəklidir. Dərəşorlu e.ö. VII əsrdə olduğu kimi bu gün də həmin ərazidə, Zaqros dağlarının şərqində yerləşir.

Dərəşorlu böyük Qaşqay elinin ən böyük beş tayfasından biridir və öz tərkibində 42 tirəni birləşdirir. Silxazı isə bu gün də Dərəşorluların yaylaq əraziləri və paytaxtları olan Şiraz adının qədim fonetik şəklidir.

Assuriya kralı Aşşurpanipal öz anılında Elamda Dur-şarri ölkəsini və Sunqursarra tanrısının adını çəkir (Cameron. 1936. S.118).

Albaniya hökmdar sülaləsi olan Mehranilərin tarixi ədəbiyyatda o cümlədəın erməni mənbələrində İran mənşəli və Sasani nəslinin bir qolu olduqları fikri tamamilə yalnışdır. Onların kökü kassilərə dayanmaqdadır. Kassi hökmdarları və o cümlədən II Aqum Kakrim (e.q. 1530) özünü digər ölkələrlə yanaşı "Kassinin, Albanın, Padanın və Qutinin kralı" adlandırırdı. Kassi kralı Qandaşın digər oğlu kral I Aqum (e.ö. 1730-1709-cu illər) Mahri ünvanı daşıyırdı (Winkler. 1892, S. 80.)

Aqumun titulu olan Mahri adı sumer dilində böyük deməkdir. Ona görə də tarixçilər onu Böyük Aqum adlandırırlar. Kassi dilinin tədqiqatçısı Arnaut Fournet Aqum sözünü "başçı, rəhbər" kimi tərcümə edir ki, bu türk dilindəki Aqam sözü ilə ekvivalent təşkil edir (Arnaut. 1978, s. 6).

İran tarixinin görkəmli araşdrıcısı alman Fridrix Şpigel yazır ki, Mehrani sülaləsinin ilkin məskunlaşdığı ərazidə yaşayan Gündüzlü türk tayfası əfşarlara aid olub Bəxtiyarilərlərlə birlikdə Elam-Susiana dövrünün yerli 3-cü avtoxton xalqını təşkil edir (Spigel. 1863. S. 12-13).

Kökləri Ön Asiyanın qədim xalqlarına bağlı olan Azərbaycan hakim sülalələrindən biri də Yekanlılardır. E.ö. IX-VIII əsrlərdə Fərat çayının qərbində, Karkamış ilə Patt arasında, Kummux yaxınlığında müasir Hələb və ətrafını əhatə edən ərazidə yerləşən paytaxtı Arpad olan Bit-Aqusi, yəni Aqus dövlətinin qurucusu xett-urartu mənşəli Yekanlı Qusi adlanırdı.

Yekanlı adı Güney Azərbaycanın bu gün də mövcud olan Ustaclı boyuna mənsub Yekanlı tayfa adı ilə böyük bənzərlik təşkil edir. Yekanlar Mərənd və Güney Azərbaycanın digər ərazilərində məskunlaşan boy birliyidir.

Arpad yəqin ki Turanlıların qədim eponiminin adından götürülmüşdür. Arpad sonradan On oqur türk boy birliyinin başbuqu və Macar dövlətinin yaradan kralın adı idi.

B.Landsberger Kassilərdə kral sözünün gyandiz şəklində ifadə olduğunu yazır. Gündüzlü adını Kassi kral sülaləsinə aid etmək olar.

Avropa tarixçiləri Luristanı uksi və kassilərin-turanlı ön türklərin vətəni hesab edirlər.

Luristan şahsevən, çardolu və qaşqay türklərinin qədim yerləşim ərazilərindəndir. Luristana daxil edilən Bəktiyari vilayətinin bir çox şəhərlərində qaşqay, lirki, ağacəri türkləri yaşayır, Buricin qəzası qaşqay türklərinin qədim məskənidir.

İranın bir çox ərazilərində məskunlaşmış qədim Ağacəri türk boyu güman edildiyi kimi ağacla əlaqədar olub "meşə insanları" anlamı daşımır, fikrimizə görə ağacəri sözü "ak çeri" adının təhrif olunmuş şəklidir və mənası "seçkin, yücə döyüşçü" qvardiya deməkdir.

F.Shoberl, Balfour, E.Maranesi kimi araşdrıcılar Bəxtiyarilər, Fahliyanlar, Mamasanilər və cənub əyalətlərinin digər elat tayfalarının öz mənşəyini ən uzaq antik dövrlərdən götürdüklərini və İskəndərin zamanında eyni bölgələrdə məskunlaşan vəhşi döyüşçülərin nəslindən hesab edirlər. Onlar bu köçəri heyvandar tayfaları farslardan kənar bir mənşəyə mənsub olduqları fikrini irəli sürməkdədirlər (Shoberl,1828, S.19; Balfour, 1885, S.192).

İranın qərb ərazilərində məskunlaşmış maraqlı tarixə malik ən böyük tayfalarından biri Mamasani eli Rüstəm, Bakəş, Cavidemahuri, Fahliyan və Doşmanziari boy birliyidir. Mərkəzləri Fars ostanında Nurabad şəhərində yerləşən Mamasani/ Mamasaqanları lurlarla bağlasalar da yerləşim yerlərinin tarixən türklərə məxsus olduğunu bir çox araşdrıcılar qeyd edirlər. Mamasanilərin bir çoxu özlərini mənşə baxımından türk hesab edirlər. Maraqlı fakt ondan ibarətdir ki, gürcü çarı Parnavazın da mənsub olduğu qədim hakimiyyət sülaləsi olan Mamasaqanlar da turanlı sak tayfalarına mənsub olub Zaqros-Anadolu tərəfdən gəldikləri haqqında fikirlər mövcuddur.

Mamasanilərin ən böyük və nüfuzlu olan Bakeş boyu isə tamamilə türkdür. Ön türk xalqlarından olan Qutilərin e.ö. XIII minilliyin sonlarındakı krallarından biri İnuma-bakeş titulu daşıyırdı. Bakeş boyunun Karai, Alvand, Babar Salar, Gacar kimi tirələri tamamilə türk adları daşıyır.

Fikrimizə görə Bakeş adı kassilərin Buqaş/Baqa tanrı adları ilə əlaqədardır. Terrien de Lakouperi və F.Hommel Bakları kassilərin ən böyük boy birliyi hesab edirlər. Onların fikrincə Baktiyari, Baktriya, Baqestan, Baqdat, Baktan kimi adlar Bak tayfasının adı ilə bağlıdır (Terrien de Lacoperie.1894, S.326).

Assuriyanın dağıdıcı hücumları nəticəsində Bak boy birliyinin 100 qəbiləsi Elam və Zaqros dağları yaylalarındakı öz yurdlarını tərk edərək şərqə doğru hərəkət edərək Çin sərhədləri yaxınlığında və digər ərazilərdə məskunlaşmışlar.

Antik müəlliflər Arrrian və Kurti Rufus Makedoniyalı İsgəndərin Əhəməni şahı III Daranı təqib edərkən Zaqros dağları ərazisində döyüşkən Mamasani tayfası ilə mübarizə apardığını yazırlar (Kvint Kurti Rufus. 2007).

Mamasanilərlə qonşuluqda türk Qurd-şoli ulusu yaşayır.

İran adlı coğrafiyada ən geniş yayılmış boylardan biri Xalaç elidir. Mərkəzi ostanda böyük bir el olan Xalaçların bir qolu Azərbaycana və Anadoluya bağlı olmuş, digər qolu isə Orta Farsda, ehtimal ki, Səlcuqilər zamanında Xələcistan adlanan ərazidə məskunlaşmışlar. Qaşqailər və Xalaclar arasında bir zamanlar sıx əlaqə mövcud olmuşdur. Bir sıra müəlliflər daha irəli gedərək Qaşqayları Xaləc qəbiləsinin bir qolu hesab edirlər.

Farsimadanlar iddia edir ki, onlar Xalaç mənşəlidirlər və İranın cənubuna köçməzdən əvvəl Tehranın cənub-qərbində yerləşən Xalacistanda məskunlaşıblar. Hindistan və ərəb müsəlman müəlliflərinin əsərlərində Xalaç adını qədim ifadə tərzinə uyğun olaraq Khalji formasında yazırlar.

Xalaç adının xalq etimologiyası ilə qal-aç kimi izahı tarixi gerçəkliyi əks etdirmir. Biz xalaç eli adının kassilərin qalzu adından yarandığı fikrindəyik. Türklərin dövlət-ulus-xalq anlamında istifadə etdikləri el terminin kökü sumer-akkadların il/elu sözünə bağlı olub onun müasir ifadə şəklidir.

Bütün bu tarixi etnoloji dəlillər sübut edir ki, Kaşqay eli və Xalaç/kalaç elinin etnik mənşəyi ümumi Kaş/Kas -Kaldi/Qalzu etnik kökünə bağlı olub, Ön Asiyanın Kassi adlanan qədim ön türk etnosu ilə əlaqədardır. Kassilərin ednonim-özadlanmaları Qalzu şəklində idi.

A.Qordlevskiyə görə Oğuzlardan xeyli əvvəl Kiçik Asiyanın türkləşməsi başlandı. Kalaç, Karluk, Kanqlı kimi türk tayfaları oğuzlardan xeyli əvvəl, eramızın I minilliyinin əvvəllərindən Kiçik Asiyaya və yaxın bölgələrə gələrək yeləşmiş və “ölkənin yerli əhalisinə çevrilmişlər” (Гордлевский, 1941. S.22) .

V əsr erməni tarixçisi Lazar Papetsinin verdiyi məlumata görə 482-ci ildə erməni ordusunun sparapeti Mamikonyan və gürcü çarı Vaxtanq Qorqosalın qoşunları sərkərdə Mihranın başçılığı ilə Cənubi Qafqaza soxulmuş Sasani ordusu ilə Ermənistan və Gürcüstanın sərhəddində Kür çayının vadisində Kəngər dağında yerləşən Kəngərlərin ölkəsində qarşılaşdılar. Digər suriyalı tarixçi Mar Aba da Xosrovun Kanqarlarla döyüşdüyü haqqında yazır. Erməni tarixçisi Xorenli Musa Sasanilərin savaşdığı Kəngər ölkəsinin Göyçə gölünün şimalında Gürcüstan və Ermənistan sərhəddində yerləşdiyini yazır (Кляшторный. 2003, s.225).

Həmədan şəhərinin yaxınlığındakı Kanqavar şəhərinin adı kəngər boyuna bağlıdır. I əsr yunan tarixçisi əslən Xuzistandan olan Xarakslı İsidor Kanqavarın Midiya şəhəri olduğunu yazır və orda Artemidanın məbədi haqqında bəhs edir. Kanqavarda bu gün də əzəmətli tarixi abidənin qalıqları mövcuddur. Kənqər/Kienqir Sumer dövlətinin adı idi.

Ən qədim turanlı türk boylarından biri, kökü sumerlərə bağlı olan kəngərlər keçmişdə olduğu kimi bu gündə əzəli ön türk əraziləri olan Quzey Azərbaycanda, Naxçıvanda, Qarabağda, Güneydə isə Qumda, Araz çayı sahili boyunda, Tehranda yaşamaqdadırlar.

Tarixi ədəbiyyatda iran mənşəli sözlər kimi izah edilən Türk hökmdarlarının padşah ünvanı Sumerdə hakimiyyət titulu olan patesi adının təhrif olunmuş şəklidir. Digər hakimiyyət titulu olan Şah isə Kassilərin hakimiyyət titulu kimi də istifadə olunan günəş tanrısı Şah adı ilə bağlıdır.

Türkləri İran ərazisinə gəlmə, özlərini isə avtoxton hesab edən paniranistlərin iddiaları tarixi mənbələrlərdə əks olunan dəlillərlə təkzib olunmaqdadır.

Fars etnoniminin gerçək etimologiyası da onun iran-aryan mənşəli olduğunu da şübhə altına almaqdadır. İran və Ön Asiyanın qədim tarixi üzrə böyük avtoritet hesab olunan İ.Dyakonov irandilli tayfaların İranın qərbinə e.ə. I minilliyin əvvəllərində gəlməsi haqqında özünün də əvvəllər tərəfdarı olduğu və rəsmən qəbul olunmuş görüşlərin heç bir pozitiv dəlillərə əsaslanmadığını yazır. Yazılı mənbələrdə ilk fars hakimiyyət sülaləsi hesab olunan olan Əhəmənilərin e.ö. VII əsrin əvvəllərində yaşadıqları təsbit olunduğundan bu tarix sözsüz şəkildə irandilli xalqların Ön Asiyaya gəlişləri tarixi kimi qəbul olunmaqdadır (Дьяконов, 1971, S.128).

Lakin Əhəmənilərin etnik mənşə baxımından iran-aryanlara mənsub olmaları məsələsinin özü belə tarixçilər arasında müəyyən mübahisələrə səbəb olmuşdur. Onlar Pers imperiyasının I Daraya qədərki qədim dovrünün Əhəmənilərə aid edilməsini düzgün hesab etmirlər.

Kirlə bağlı onu vurğulamaq lazımdır ki, Kirin İranın özündən heç bir şah kitabəsinə rast gəlinmir. Kirin adına yazılmış Pasargad yazıları əslində Daranın legitimliyini gücləndirmək üçün I Dara tərəfindən sifariş edilmişdir. Əhəmənilər anzanit türkləri idilər. Onlarda türkcə olan Okus (II Dara), Kodaman (III Dara) adları vardı. Kserksin sərkərdələrindən birinin adı Aryaman idi.

Şərqdən gələn İran tayfaları ilk öncə Urmuyə gölünün güneyində Midiya və Barsua ərazisində məskunlaşmışlar. Onların tarixdəki mövcudluğu assur salnamələrində Anşan və Parsumaşla əlaqədar çəkilir.

Alman assuroloqu F.Hommel Barsua-Pars məsələsinə aydınlıq gətirərək yazır: "Midiyanın Urmiyadan aşağı vilayəti olan Parsua adı Assur mətnlərində Barsua kimi yazılmışdır. Əhəmənilərin ilkin olaraq hakimiyyəti ələ keçirdikləri Midiyanın Barsua əyalətində yerli əhali alaroid, yəni turanlı idilər. Əhəmənilər bu adı Elamdan aşağı ərazini işğal edəndən sonra ora daşıdılar. Bu İran xalqının Baktriyadan Midiyaya və ordan da Parsuaya köçləri haqqındakı tarixi bəlgələrə də uyğundur. Bu Zənd Avesta ənənəsindən də aydın göründüyü kimi Parsua ilə Persianın etnik mənşə baxımından bir-biri ilə heç bir əlaqəsi mövcud deyil, bu sadəcə sözlərin təsadüfi bənzərliyindən ibarətdir. Əhəmənilər Elamın cənubunda ələ keçirdikləri mərkəzdən kənar təhlükəsiz ərazidə Parse şəhərini salmışdılar. İran yaylasındakı Midiya dövlətini özləşdirərək böyük bir imperiyaya çevirən Dara bu şəhəri əzəmətli bina və saraylarla zənginləşdirdi. Bu əyalət şəhərin adına uyğun olaraq Persiya şəhəri-Parsaqrad adlandırılmışdır" (Hommel. 1889. S. 89).

Əvvəlki fatehlərin ənənəsinə uyğun olaraq Kir yeni bir paytaxt qurdu. Pasargad adlanan şəhərin Elamca gerçək adı Kassilərə aid olub Bakratataş idi.

Qədim dövrün digər böyük tarixçisi A.Billerbekə görə Barsuadan Güneyə doğru hərəkət edən Ari tayfası olan perslər indiki Şiraz vilayəti və Niris dağlarını əhatə edən Fars əyalətində məskunlaşmışdılar və tədricən öz torpaqlarını Belucistana qədər genişləndirmişdilər. Onların qonşuluğundakı Azərbaycan və Ardilanda qədimlərdən etibarən kassilər məkunlaşmışdılar. Perslərin Əhəməni ailəsinə mənsub knyazları Çispis idi. O Midiya kralı Kiyaksarın Nineviyaya yürüşünə qatılaraq ona dəstək vermişdi. O Anşan knyazının varis qızı ilə evlənmişdi və bu səbəbdən də önəmli bir ərazi olan Anşanı ələ keçirərək öz oğlu Kirin idarəsinə vermişdi. Onu isə hakimiyyətdə oğlu Kambiz əvəz etmişdi. Kambizdən sonra Pers dövlətinin qurucusu olan oğlu Böyük Kir Anşan kralı olmuşdu (Billerbeck. 1893, S.50).

Amerikan tarixçisi Matt Waters, Kambiz və onun oğlu II Kirin fars olmadıqlarını, əslən elamlı olduqları fikrini müdafiə edir. O Kir/Kuruş adının elam dilində olduğunu və mənasının "qayğıkeş, diqqət göstərən" anlamı daşıdığını yazır.

Hikmət Bayura görə Kirin bir Anşanlı olduğu mənbələrdə göstərilmişdir və onun iran və ya arilərlə hər hansı bir əlaqəsi haqqında orda bir bilgi yoxdur. İran və iranlı adı yalnız I Daradan sonra meydana çıxmışdır. Kirin əsl adı Ağradat olmuşdur (Bayur. 1930. S. 371).

Mövcud olan bir fərziyyəyə görə Barsuanın güclü qəbilərindən olan artalı Akameniş sülaləsi assurların bölgəyə aramsız dağıdıcı basqınlarından qorunmaq üçün burda məskunlaşmış və özlərinə tabe etdikləri iranlı tayfalarla birlikdə cənuba hərəkət edərək Fars adlanan əraziləri ələ keçirmişlər. Əhəmənilərin adlarıdakı türkcə Arta adının (Artaban, Artaksers) mövcudluğu da bu fərziyyəni doğrulayır.

Özlərini ari/ariyana adlandıran irandilli tayfalar öncə Urmiyə gölü tərəfdə yaşadıqları Assuriyanın Parsua əyalətinin adını özlərinə etnik kimlik olaraq qəbul etmiş və bu adı Parsa şəklində yeni vətənlərinə şamil etmişlər. Bu ad sonradan ərəb dilində Fars adı ilə əvəz olunmuşdur. Parsa və Parsua adları yəqin ki, eyni sözün müxtəlif variantlarıdır və araşdırıcılar bu sözün iran dilində olduğuna şübhə ilə yanaşırlar. Alman alimi E.Hertsfeld Parsuanı assur sözü hesab edir və mənasının "kənar ölkə", "diyar" olduğunu bildirir (Фрай, 2002. S.102).

İndiyə qədər məlum olan iki yüzdən çox qədim iran kitabə yazılarından yalnız I Daranın təxminən e.ö. 519-cu ildə qədim fars, elam və akkad dilində tərtib olunan məhşur Bisütun qaya kitabəsi əsl tarixi abidə xarakteri daşıyır. Bisütun kitabəsinin elam və akkad mətnlərində Əhəmən adı çəkilmir, Kir və Kambiz özlərini yalnız Çişpişin varisləri hesab edirlər.

Persopoldan əldə edilən və II Kirə aid edilən 93 nömrəli dairəvi möhürdə və Kambizə aid yazılarda Çişpişin oğlu Kir onun oğlu Kambiz və onun oğlu Kir Anşan hökmdarları kimi qeyd olunaraq Əhəmənin adı çəkilmir. Yalnız Pasarqard kitabəsində Kirin əhəmənilərə aid olduğu bildirilir ki, o sonradan da yazılmış ola bilər (Ибрагимова, 2014).

Kir Midiya hakimiyyətini xəyanətlə ələ keçirdiyi kimi Sasani Ərdəşir də Parf Arşakid və Mehranilərə xəyanətlə hakimiyyəti ələ keçirən bir uzurpator idi.

Qərbin görkəmli iranist tarixçiləri Makvard, Noldeke və Hertsfeldin rəyinə görə

Parfia tarixinin mühüm qismi saxtalaşdrılaraq Şahnamədə Kəyanilərin tarixi şəklində qələmə verilmişdir.

Türkləri müxtəlif adlarla təhqir edən paniranistlər bilməlidirlər ki, Hind-arilərin arya adı fin-uqor dilində "qul" anlamındaki orya sözündən yaranmışdır.

Amerikalı tədqiqatçılar E.Bryant və L.Pattonun da qeyd etdikləri kimi e.ö. 1500-cü illərdə Şərqi Avropadakı hind-avropa kütləsinin bir qolunu təşkil edən hind-arilər Xəzər dənizinin quzeyindən Şərqə doğru Ural üzərindən hərəkət edərkən burda fin-uqorlarla uzun zaman kontaktda olmuşlar. Fin-uqorlar Ural dağları tərəfdə hind-arilərin yollarını kəsmiş və əsarət altına alaraq uzun müddət bu regionda məskunlaşmağa məcbur edərək onlardan qul kimi isifadə etmişlər (Bryant - Patton. 2005, S.271).

M.Müller Baron Bunsene yazdığı məktubda Qədim sanskrit dilində Ar kökündən Arya sözünun yarandığını və mənasının üçüncü kastaya, yəni hüquqsuz, kölə kateqoriyasına mənsub insanlara verilən "arya", yəni qara camaat, aşağı təbəqəyə mənsub kişi və ya adam demək olduğunu yazır. Guya sonradan bu söz Arya şəklində şərəfli, torpağın sahibi, ağası anlamı daşımışdır (Müller. 1854, S. 21).

Qədim Oğuzlar farsları "Soqaq" adlandırırdılar, Qədim Türk dili lüğətində bu sözün mənası acgöz, gözüdoymaz, paxıl, xəbis deməkdir (Древнетюркский Словарь. 1969. S.508).

Azərbaycanın ən qədim dövürlərdən türklərin vətəni olduğu tarixi mənbələrdə də, əks olunmuşdur. İslam dövrünün məşhur tarixçilərindən olan İbn əl-Əsir "El-kamil Fi't-tarih" adlı əsərində Musa peyğəmbərin dövründən bəhs edərkən yazır: "Fars padşahı Mənuçöhrin dövründə Yəmən padşahı öz sərkərdəsi Şimr Bin Attafı ora göndərdi. Azərbaycana girib türklərlə vuruşdu. Nəhayət, türklər məğlub oldular və Şimr Bin Attaf ordusunun getdiyi yolu Azərbaycanda məşhur olan iki daşın üzərinə yazdı." Göründüyü kimi, Hz. Musanın dövründə, yəni eramızdan əvvəl XIII əsrdə, ondan sonra isə, yəni Manna-Med dövründə bugünkü Azərbaycanda türklər yaşamış, hökmranlıq etmiş, sivilizasiya yaratmışlar.

Şübhəsiz burda Türk adı ilə İbn əl-Əsir Azərbaycanın Urmiyə gölünün hövzəsində Zəncana qədər olan ərazidə mövcud olmuş və yüz illər ərzində Assuriya və Babilə qarşı mübarizə aparmış Turukkuları nəzərdə tutur. Son tədqiqatlarla Turukku adının gerçək oxunuşunun Turuk olduğu müəyyən edilmişdir.

Tarixi ədəbiyyatda əfsanəvi Mənuçöhr Akkad kralı Manuştusu ilə eyniləşdrilir.

Turukların adı Assur mixi yazı lövhələrində ilk dəfə kral I Şəmsi Adadın (e.ö. 1813-1782) dövründə və sonuncu dəfə yenə Assur kralı I Adad-Nirarinin (e.ö. 1307-1274) dövründə çəkilir. Alimlərin əksəriyyəti Musa peyğəmbərin e.ö. XIII əsrdə (e.ö. 1391-1271) yaşadığı ehtimalını irəli sürürlər. Bu Turukların mövcud olduğu tarixi dövrə uyğun gəlir.

Turukkular bürünc və dəmir dövründən etibarən Mesopotamiyada və Ön Asiyanın Zaqros dağları yaylalarında yaşamış qədim turanlı etnosdur. Turukku ölkəsi Zaqros dağlarının şimal-qərb vadilərində Urmiyə gölü hövzəsində yerləşirdi. O bir çox bəylik dövlətin birliyindən yaranmış konfedarativ xarakterə malik idi. Onun Aratta dövləti ərazisində yerləşdiyini əhalisinin mənşə etibarı ilə subirlərə, hurilərə, qutilərə, mannalara mənsub hesab edirlər.

Turukkuların türklüyü haqqında ilk dəfə qəti fikir bildirən alman assuroloqu Frits Hommel olmuşdur. 1880-ci illərin ortalarında yazdığı əsərdə o bu haqda deyirdi: "Turukilər Xəzər dənizi tərəfdən gələrək Midiya dağlarında yerləşən köçəri türk tayfaları kimi qəbul etmək olar. Beləliklə, Türk adının qədim forması Turukdur. Bizans müəllifləri də bunu Turkxoi şəklində yazırlar. Türk tayfaları ilə çox yaxın qohum olan sumerlər də Midiya dağları üzərindən İkiçayarasına Babilə gəlmişlər" (Hommel, 1885, S. 501).

Turukku krallarından birinin adı Pişendan idi onun oğlu isə Tibiti adlanırdı. Bu ad İskitlərin kralı Tabiti ilə böyük bənzərliyə malikdir (Kisch. 2011, S.168).

Pişendan adı Turan padşahı Əfrasiyabın atası Peşəngin adı ilə bənzərlik təşkil etməkdədir.

Assuriya hökmdarlarının Turukkularla mübarizəsi uzun illər ərzində davam etmiş və onları tam şəkildə itaət altına almaq mümkün olmamışdır. Turuk, Tukriş və Qutilər öz yrdlarını tərk edərək şərq ərazilərində məskunlaşmışlar.

Müasir araşdrıcı J.Stokes Qutilərin Azərbaycan türkləri olduğunu və e.ö. I minillikdə bu "Azəri Quti" qəbiləsinin Babil imperiyasının Akkad hökmdarlarını məğlub etdiyini yazır. Onlar təqribən yüz il ərzində Akkad ərazilərində ağalıq etdilər və hakimiyyətlərini Dəclə çayı sahillərindən İran yaylasına qədərki ərazilərə genişləndirdilər. Ancaq e.ö. VI əsrdə Azərbaycan əraziləri bir çox qəbilə tərəfindən işğala məruz qaldı (Stokes. 2009, S. 79).

Urmuyə gölünün ətraf əraziləri türklərin tarixində önəmli rol oynamış, bir çox türk xalqları bu ərazidəki boy birliklərindən təşəkkül tapmışlar. Urmu adı bu gölün ətrafında məskunlaşmış turanlı urum xalqının adından yaranmışdır. Urumlar Sumerin Ur şəhəri əhalisi ilə əlaqələndrilir. S.Kramer Sumerin Ur şəhərinin adının Sumer mixi mətnlərində Urim şəklində yazıldığını qeyd etmişdir.

Tarixi qaynaqlara görə hər bir Sumer şəhəri orda məskunlaşmış tayfanın adını daşıyırdı. Sumeri tərk edib Mesopotamiynın quzeyi, Zaqros dağları və Urmuyə gölünün ətrafındakı ərazilərə köçən Ur əhalisi burda urum xalqını meydana gətirmiş və Urartu dövlətinin əsas qurucu boylarından birini təşkil etmişlər. Urartu adı da ehtimala görə bu boyun adı ilə əlaqədar olub "Ur insanlarının ölkəsi" deməkdir. Urum dövlətinin adı "Oğuz xaqan" dastanında da keçməkdədir və sak-kimmerlərin bu əraziyə yürüşlərini özündə əks etdrir. Oğuz xaqan Urum dövləti və onun xaqanı Urus xaqana qarşı da mübarizə aparıb onu özünə tabe edərək xəraca bağlayır. Oğuz dastanındakı Urus xaqan Urartu kralı Rusanın prototipidir. Oğuz xaqanın Ön Asiyaya yürüşü sak-kimmerlərin Kiçik Asiya və Mesopotamiyaya yürüşləri ilə eyni dövrə, Urartuda Urum kralı Rusanın hakimiyyəti dövrünə uyğun gəlir.

Urumlar türk tarixindən izsiz qeyb olmamışlar. Ərəb səyyahı İbn Battuta İran səyahəti zamanı, İran'ın bir çox önəmli şəhərlərində olmuş və bu yerlərə Yezdühasdan çıxıb daha çox Türklərin yaşadığı Dəşt-i Rûm adlı yerden keçdiyini yazır, onun bəhs etdiyi Dəşti Rum "urum çölü" anlamındadır.

Z.V.Toqanın da qeyd etdiyi kimi Türkiyə ərazisində yaşayan eymirlər, Azərbaycanın hər iki hissəsinin geniş ərazilərində və Urmuyə gölü ətrafında yaşayan ayrumlar urumların törəmələridirlər. Urumların digər qolu xristian-provaslav dininə etiqad edən və vaxtilə öz tarixi vətənləri Anadolu ərazisindən köçüb Krımda, Gürcüstanda və Qara dənizin digər ətraf ərazilərində yaşayan və dilləri təmiz türkcə olan urum adlı qədim xalqdan ibarətdir. Urumlar özlərinin qreklərlə əlaqələndrilmələrinə qəti etiraz edirlər.

Tarixi ədəbiyyatda İran-aryan əraziləri kimi qələmə verilən Gurqan və Mazəndaran İran tayfaları bu əraziyə gəlmədən öncə turanlı ön türk tayfaların yaşadığı əzəli yurdları olub "qurdların ölkəsi" adlanırdı .

Bir versiyaya görə Avropadakı Balkan ərazisindən hərəkət edən hind-iran tayfaları Qafqaz dağları üzərindən güneyə doğru hərəkət edərək Xəzərin güneyindəki Mazandaran-Hirkaniya üzərindən şərqə doğru irəliləmişlər. E.ö. 1700-1500-ci illərdə burda onların qarşısını turanlı öntürklər kəsmiş və iki əzəli düşmən arasında ilk qarşıdurma da məhz burda baş vermişdir. Bu

qarşıdurma Riqveda, Avestada, Şahnamədə, Təbəri və Məsudinin də əsərlərində öz əksini tapmışdır (Siyablı. 2022)

Mazəndəran adı "Mərzi-Turan" adının təhrif olunmuş şəklidir. Məzduranın, yəni Turan sərhəddinin müəyyən olunması hadisəsi nnonim "Məcməl ət təvarix" əsərində və Təbəri tarixində öz əksini tapmışdır. Yazıldığına görə Turan xaqanı Əfrasiyabla Meniçöhr arasında savaş Təbəristanda-Hirkaniyada baş vermişdir. Meniçöhr Əfrasiyabın təqibindən xilas olmaq üçün Aməl qalasına sığınır. Əfrasiyab on il Aməl şəhərini mühasirədə saxlayır. Lakin meydana çıxan çətinliklər və əsgərlərin xəstəliklərə düçar olması üzündən Mənuçehrə barış təklif edir. Hər iki hökmdar razılığa gəlirlər ki, ox atmaqla iki ölkə arasında yeni sərhəd müəyyən olunsun. Bu məqsədlə Araş adlı təbəristanlı mahir bir ox atan Dəmavənd dağına çıxaraq Türkistan tərəfə bir ox atır və ox Səraxs və Mərv arasındakı Mərzidurana (Mərzi Turan) düşür və Bəlx çayı İran və Turan arasında sərhəd kimi müəyyən edilir. Əfrasiyab işin belə sonuclanmasından məyus olur, çünki püşk nəticəsində fəth etdiyi böyük bir ərazi Mənuçehrə qalmışdı. Lakin and içib barışı imzaladığı üçün çarəsiz qalıb razılaşmaya riayət edir (Taberi, 2007, S. 327-328).

Oxçu Araşın adı bir etnonimi də özündə əks etdirə bilər. Araş ən qədim türk boylarından olan Afşarların əsas tirələrindən birinin adıdır. Hindistan Vedalarını araşdıran alman bilim adamı Herman Brunhofer Hirkaniyanın hindlilərin Turvaşa adlandırdığı türklərin vətəni olduğunu və Hirkaniya-Vhirkana sözünün mənasının "qurdlar ölkəsi" demək olduğunu yazır. O, Şahnamədə bəhs olunan Mazəndəran kralı Auladın əslində Hirkaniya kralı Aulana olduğunu "Aula"nın qədim riqveda dilində qurd kimi izah edir (Hermann. 1893, S. 32).

Təbəri Tarixində və digər tarixi mənbələrdə qeyd olunduğu kimi Əfrasiyabın paytaxtı əvvəlcə Bəlx şəhəri olmuş, Mənuçehrlə razılaşmadan sonra paytaxt Amudəryanın quzeyinə, indiki Səmərqənd ətrafına, yəni onun adını daşıyan Əfrasiyab şəhərinə köçürülmüşdür. Bəlx çayı İran və Turan arasında sərhəddi təşkil etmişdir.

Vhirkan-Qurqan eyni iki dialekt fərqidir adın gerçək ifadə şəkli Quri-qan şəklindədir. Burda Kuri qədim türk dilində qurd anlamı daşıyır. Alman araşdırcı Haussige göre Çince Hun dövlətinin adı olan Hiung-nu adını onun ilk tərkibi olan kuru-"kurt" adından və ok-"kral" sözündən yaranan bir Altay dilində kəlmə kombinasyası olarak qəbul etmək mümkündür (Haussig, 1956, S.21-22).

Herman Vamberi fars dilindəki qurd anlamında qurq sözünün qərbi türk ləhcələrindəki "qurt" sözü ilə əlaqədar olduğunu yazır (Wambery. 1879, S.202).

V.Bartold, Biruni ve Afvinin əsərlərinin bir çox əlyazma nüsxələrində Kun (Hun) adı yerinə Furi sözünün işləndiyini yazır. Müsəlman coğrafiyaçılarının əsərlərində Qırğızların doğusunda yaşayan Furi ulusunun və bölgənin gerçək adının əslində Kuri olduğunu və Bori-qurd sözünün fonetik şəkli olduğunu yazır. Tarixi ədəbiyyatda bu qırğızlar Furi qırğızlar adlanır (Bartold, 1975, S. 155-156).

Sumeroloqlar B.Landsberqer və Osman N.Tuna sumer dilində Bar-barru sözünün qurd demək olduğunu yazırlar və bu söz ön türk sumerlərdən onların tarixi varisləri olan türklərə Börü formasında miras qalmışdır.

Varislik ənənələrinə uyğun olaraq ön türklərin tarixən məskunlaşmış olduqları ərazilərdə bu gün də yaşayan türklərdə "qurd" adlı boylar mövcuddur. Vaxtı ilə kassilərin məskunlaşdıqları Fars vilayətində Zaqros dağlarının cənub-şərqində Xürrəmbid şəhristanının Səfaşəhr ərazisində sayı 3-4 min nəfər olmaqla Qurd tayfası yaşamaqdadır.

Xəzər dənizinin cənub-şərqində yerləşən yunan mənbələrində Hurkaniya, ərəblərin Təbəristan adlandırdıqları Qurqan (farsca Varikan) əhalisinin 60%-dan çoxunu türkmən və digər türk əhalisi təşkil edir. Ordakı Qurt-quyu nahiyəsi ən böyük yaşayış məskənlərindən biridir. Mazandaranda qacar, əfşar tayfaları ilə yanaşı Novşəhrdə qurd boyu da yaşayır. Rey qəzasında qurd-beçə tayfası məskundur. Xəmsə elində 10 min nəfərə qədər qurd-bəyli eli yaşamaqdadır. İraqi-əcəmdə və Tehranda 2500 xanə türk-mafi boyu yaşamaqdadır (Albayraq, S.327, 331, 333).

Sovet dövrü tarixşünaslığında Azərbaycanı türk dünyasından qoparmaq məqsədi güdən və onun xalqını türkləşmiş irandilli tayfalardan ibarət bir etnos kimi qələmə verən rəsmi görüş hakim idi. Bu tezisə görə Azərbaycan əhalisi mənşə etibarı ilə irandilli tayfalardan ibarət bir ölkə olmuş və Azərbaycan adı da Əhəmənilərin Kiçik Midiyada satrapı olan Atropatın adından yaranmışdır. Beləliklə, gerçək tarixlə heç bir əlaqəsi olmayan bu uydurma tezisə görə Azərbaycan xalqı etnik mənşə baxımından tarixin gec dövrlərində Səlçukların gəlişi ilə guya türkləşməyə məruz qalmış irandilli tayfalardan ibarət olmuşlar.

Azərbaycan adının Atropat və Aturpatakan adından yaranması və mənasının odlar yurdu və ya "atəşi qoruyanlar" ölkəsi olması haqqında uzun illər ərzində davam edən tezisin tarixi gerçəkliklə heç bir əlaqəsi yoxdur.

Azərbaycan adının Atropatın adından yarandığı haqqında Antik müəlliflər Strabonun və Arrianın uydurma tezisi görkəmli tarixçilər Z.Bünyadov və Y.Yusifovun rəhbərliyi ilə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında da, ciddi tənqidə məruz qalaraq əsassız bir iddia kimi

rədd edilir. Midiyada Atropat adlı bir hökmdarın olması və Aturapatakan adlı bir ölkə adı yunan müəlliflərinin bir uydurması və ya ölkənin gerçək adının yunan dilində təhrif olunmuş şəklidir. F.Şpiqelə görə əvvəllər Midiya ölkəsi bütövlüyə malik olmuş, sonralar o, iki hissəyə bölünmüşdür. Böyük Midiya adlanan şimal hissəsi Atropatena adlanan cənub hissəsindən ayrıldı. Yunan mənbələrində yazıldığı kimi guya bu ayrılığın səbəbi Makedoniyalı İsgəndərin Atropat adlı bir şəxsi Midiyanın şimal hissəsinə satrap təyin etməsi ilə baş verib. Bu Atropat ifadəsinin düzgünlüyü bir çoxları tərəfindən şübhə altına alınıb.

Şpigelin yazdığına görə İranlıların ulu hökmdarı Cəmşid ana tərəfdən turanlı idi. Cəmşidin arvadını turanlı Zöhhaq qaçırtdıqdan bir müddət sonra o Təbəristan dağlarına geri dönmüş və orda Cəmşidi doğmuşdur. Cəmşid sonradan öz atası Zöhhaqqdan intiqam alaraq onu Dəmavənd dağında zəncirə vurmuşdur.

İran tayfalarını uzun illər ərzində əsarət altında saxlayan Midiyanın ilk kralı Deyok İran əfsanə və tarixi ədəbiyyatında nifrətlə qaniçən, zülümkar kimi xarakterizə olunur və o Aji-Dahaka, Zöhhak, ilan-əjdaha kimi epitetlərlə yad edilir.

Tarixdə Aturpat adlı hökmdar olmamışdır. İran və hind tarixi ədəbiyyatında da, Aturpatın satrap deyil, Sasanilər dövründə İranda atəşpərəstlərin Möbədan möbədi, yəni baş kahini olduğu yazılmışdır. Adurbad və ya bəzi müəlliflər tərəfindən Azərbad adlanan Marespandan, Ərdəşirdən sonra Sasani II Şapurun dövründə onun baş naziri olmuş və dini islahatları həyata keçirilməsinə, daha doğrusu Avesta mətnlərinin təhrif edilərək onun Sasanilərin mənafeinə uyğun şəkilə gətirilməsi işinə rəhbərlik etmişdir (Modi. 1928, S. 178).

Avropanın bir çox görkəmli tarixçi və linqvistləri Azərbaycan adının Atropaten adından yaranmasına şübhə ilə yanaşırdılar. Almaniyanın məhşur iranşünas alimi Mayrhofer yazırdı ki, Persopolis mətnlərində "Atrpata" və "Atərəpata" adları keçir, yalnız bu ölkə adı deyil, atəşgələrdə xidmət göstərən kahinlərə məxsus terminlərdir (Mayrhofer. 1973, S. 321).

Almaniyanın iranşünas tarixçisi Alfred Qutşmid Azərbaycan adının mənasının fars dili ilə əlaqələndirilməsinə etiraz edərək yazır ki, Azərbaycan adının odlar ölkəsi adlanması yanlış bir etimologiyaya əsaslanır.

F.Köniq yazır ki, Atropatena adlandrılan ərazinin yunan dövründən Atropat adlı bir hakim tərəfindən idarə olunduğu yazılmışdır. Lakin mən mixi yazı mətnlərində bu ada uyğun bir ölkə adına rast gəlmədim. Bu ad bugünki Azərbaycan adı ilə eyniləşdirilir. Mən mixi yazılı mətnlərdə Antarpatti və Andirpattiani adlı iki yer adına rast gəldim, lakin onlar ölkə adları deyil, kiçik qala adları idilər (König. 1934, S.7).

Alman iranşünas bilim adamı Hübşman Azərbaycan adının qədim suriya dilində Adarbaiqan şəklində yazıldığını və Atropatenanın bu adın sonrakı dövrdə fonetik dəyişikliyə uğramış şəkli olduğunu yazır (Hübschman. 1895, S.143).

Elam dilində Haturadda şəklində ifadə olunan sözün "h" şəkilçisinin nəzərə alınmadan açılışı Atur-Ata və ya Atar-ata deməkdir.

Yuxarıdakı sitatlardan da göründüyü kimi mixi mətnlər haqqında dərin məlumatı olan qədim tarixin görkəmli uzmanları Azərbaycan adının Atropat və Atropatakan adı ilə əlaqələndirilməsinə və həmçinin onun mənasının "odlar yurdu" şəklində izah edilməsinə qarşı çıxaraq bu şərhləri qəbul etmirlər. Sasanilərin Ərdəşirə və Şapura aid olan kitabələrində Azərbaycan adı yunan mənbələrindən fərqli olaraq Adarbaqan kimi yazılmışdır. Qədim dövrlərdən etibarən Azərbaycanla sıx əlaqələrə malik olmuş qədim suriyani və ərəb mənbələrində Azərbaycan adı Adarbaiqan şəklində ifadə olunur. Heç şübhəsiz yunan müəllifləri onlar üçün dəqiq ifadəsi çətin olan yabançı dildəki Aturbayqan/Adarbayqan adını İran dilindəki atəşpərəslik kahinlərinin adı olan Aturpatın adı ilə eyniləşdirərək təhrifə uğratmışlar və tarixi ədəbiyyata da bu şəkildə daxil etmişlər.

Fikrimizə görə Azərbaycan adının gerçək ifadəsi Aturbaqan şəklində olmuşdur.

Atura Sumer tanrısı olduğu kimi həmçinin Subirlərdə o tanrı adı olaraq Atur şəklində ifadə olunurdu. Subartu/Subir ölkəsi bu tanrının adı ilə Aturiya adlanırdı.

Sumer dilində Atura eponiminin anlamı "anadan doğulan yer", Ana yurd, vətən mənasındadır. Turan sözü də burdan yaranıb. "A" - Sumer dilində bir çox mənalarla yanaşı həmçinin ata, nəsl, əcdad, cinsi maye deməkdir (Lexicon. 1999, S. 74). Atura eponimi müəyyən fonetik dəyişikliyə uğrayaraq Ön Asiyanın digər xalqlarının dilinə Turan, Adur və Adar şəklində keçərək teonim, eponim, yer, şəhər, ölkə adları kimi istifadə olunmuşdur. Qvendolzun yazdığına görə sami-aramey tanrısı Attar həmçinin Adar, Atur tanrısı ilə əlaqədar olub "sulanan, suvarılan torpaq" anlayışı ilə əlaqədar idi (Leick. 1991. S. 15).

Azərbaycan adının etimologiyası Rəşidəddinin "Öğuznamə"sində gerçəkliyə uyğun şəkildə bir hadisə ilə əlaqədar təsvir edilir. Orda yazılmışdır ki, Oğuz xaqan Azərbaycan vilayətini tutduqdan sonra orada olduqları vaxt əmr elədi ki, təpə yaratmaq üçün hərə öz ətəyində torpaq gətirsin və onu bir yerə töksün. Əvvəl o öz ətəyində torpaq gətirib tökdü. Döyüşçülər də onun kimi bir ətək torpaq gətirib tökdülər. Böyük bir təpə düzəldi və adını Azərbayqan qoydular. "Azər" türkcə uca deməkdir, "bayqan" varlıların, böyüklərin, ululların yeri mənasını verir. Bu ölkə belə adla tanındı və elə buna görə də bu gün Azərbaycan adlanır (Oğuznamə. 2003, S. 22).

Yuxarıdakı şərhləri nəzərə alaraq Azərbaycan adının kökünün sumer dilinə bağlı olduğu və mənasının "ulu əcdadın doğulma yeri, əcdad yurdu" anlamı daşıyan qədim turanlı ön türk xalqları olan Sumer və Subarların Atura adlı tanrılarının adından yarandığını güman edirik.
Sumerlər öz ilkin vətənlərini, əcdad yurdlarını dağlıq bir ölkə olduğuna möhkəm inamları vardı və dağ onlar üçün son dərəcə müqəddəs hesab olunurdu. Onlar düzənlik ərazidən ibarət olan Mesopotamiyada dağ formasında suni təpə üzərində ucaldılan və e-kur (dağ evi) adlanan məbədlərini özlərinin dağlıq ərazidən ibarət yurdlarının təcəssümü hesab edirdilər. Sumerlər bu möhtəşəm e-kur (akkadca ziqqurat) məbədlərini bütün xalqın iştirakı ilə iməcilik yolu ilə ucaldırdılar. Bu "Oğuznamə" də də öz əksini tapmışdır.
Sumer və Subarların Atura tanrı adından yaranan ölkəmizin Aturbaqan adının izahı "tanrı Aturun yeri və ya ölkəsi" şəklindədir. Sumer, kassi, quti dillərində baqa tanrı deməkdir, sondakı an şəkilçisi kassi və quti dillərində mənsubiyyət şəkilçisi olub yer-məskən anlamı daşıyırş. Adurbaqan adı ərəb dilinin d-q hərflərinin "c" ilə əvəzlənməsi qaydasına uyğun olaraq ərəb dilli yazılı mənbələrdə Azərbaycan şəklində ifadə olunmuşdur (Gurgan adı da ərəb dilində Curcan şəklində ifadə olunur).
Baqa-tu tanrı adı sonradan dilimizə Bayat tanrı adı şəklində keçmişdir.
Türklərdə tanrı adlarının, yəni teonimlərin etnonimlərə dönüşməsi hadisəsi çox yayqındır. Bayat qəbilə adı da tanrı Bayatın adından yaranmışdır.
Fikrimizə görə Azərbaycan adının "Azər" sözündən yarandığı haqqında əsası Əhməd Kəsrəvi tərəfindən qoyulmuş və bu gün də cüzi dəyişikliklərlə yenidən ortaya atılan tezis, sovet dövründən miras qalmış uydurma "Azərbaycan dili" və "Azərbaycan xalqı" konsepsiyasını doğrultmaq işinə xidmət edərək tarixi gerçəkliyi əks etdirmir.

## QAYNAQLAR

1. Albayrak R.Türklərin İranı. C.1, Bakı 2016.
2. Arnaut Fournet, Kassite Language İn a Comporative Perispective with Hurrian and Uratian.The Macro-Comporative Journal Vol. 2 №1.1978, S.6.
3. Balfour E, The Cyclopædia of India and of Eastern and Southern Asia. V. II, 3rd ed., London, 1885.
4. Bartold V. Orta Asya Türk tarihi hakkında dersler. Ankara,1975.
5. Bayur Yusif Hikmet.Türk tarihinin ana hatları. İstanbul,1930, S. 371.
6. Billerbeck A.Susa eine studie zur Alten Geschichte Westasiens. Leipzig, 1893.
7. Brunnhofer Hermann. Urgeschichte Arien in Vorder und Central Asien.Leipzig.1893.

8. Bryant Edwin and Laura Patton.The İndo-arian Contorversy. New York. 2005.

9. Cameron.History of early İran. Chicago.1936, S.118.

10. Christian Kisch. Der strategischen geschichte. Freiburg, 2011.

11. Civanshi C. Modi. Ataropatakan. Where was it situated? Cama Orientale institute journal. Bombay 1928.

12. Gwendolyn Leick.A dictonary of Ancient Near Eastern Mythology. New York.1991.

13. Halloran J. Sumerion Lexicon.1999.

14. Haussig H. Die Quellen über die zentralasiatische. Herkunft der europäischen Awaren, in: CAJ 2, 1956.

15. Hinz W. The later kingdom Elam. London 1972.

16. Hommel F., Geografi und Politische Geschichte Des Klassische Altertum. Nordlinge,1889.

17. Hommel F. Geschichte Babyloniens und Assyriens. Berlin,1885.

18. Hrozni B. Ancient History of Western Asia, İndia and Crete. New York, 1953.

19. Hübschman H. Persische studien. Strassburg, 1898 .

20. Hüzing G. Der Zagros und deine völker. Leipzig, 1908.

21. Jackson A.V. Iranisches Personennamenbuch, Wien. JAOS. Journal of the American Orientalische Einleitung.1929.

22. Jensen P. Hittiter und Armenier.Strassburg, 1898.

23. König F. Älteste geschichte Meder und Perser. Leipzig. 1934.

24. Kvint Kurti Rufus. Geschichte Aleksanders des Grossen. 7.6.17. Band.2. Damstadt. 2007.

25. Lenormant F.La Langue Primitive De La Chaldee.Et Les İdiomes Touraniens.Paris 1875.

26. Mayrhofer M. Onomastica Persopolitana. Wien.1973.

27. Max Müller. Letter to Chevalier Bunsen, on the classification oft he Turanian Languages. London, 1854.

28. Nibuhr M.Carsten, Geschichte Assurs und Babels. Berlin, 1857.

29. Oğuznamə. Bakı, 2003.

30. Potts D. The Archeologi of Elam. Cambridge Universitet Press, 1999.

31. Taberi, Milletler ve hükumetler tarihi. C.I, İstanbul, 2007.

32. The Cambridge History of Iran. Vol. 2. 1968.

33. Terrien de Lacoperie. Westerin Origin of the Early Chinese Civilization. London,1894.

34. Siyablı Ələsgər. Turan-türk tarixində Əfrasiyab və Oğuz xaqan. Bakı. 2022.

35. Shoberl F. Persia. Philadelphia. 1828.

36. Spigel F.Eran. Das land zwischen dem Indus und Tigris.Berlin. 1863.
37. Stokes J. Encyclopedia of the Peoples of Africa and the Middle East.New York, 2009.
38. Ungnad Artur. Subartu. Beitrage zur Kulturgeschichte und Völkerkunde Vorderasiens, Berlin/Leipziq, 1936. S.197.
39. Wambery Hermann-Die primitive kultur des Turko-tatarischen volkes. Leipzig, 1879.
40. Winkler H. Geschichte Babylionens und Assyries. Leipzig. 1892.
41. Zehtabi M. T. İran Türklərinin əski tarixi. İstanbul, 2010.
42. Древнетюркский Словарь. Л. 1969.
43. Дьяконов И. М. История Мидии. Т I, Баку, 2012.
44. Дьяконов И.М. Восточный Иран до Кира. История Иранского государства и культура. М. 1971.
45. Гордлевский А. История Государство сельджукидов Малой Азии. 1941.
46. Ибрагимова К.А. Идеология Иранского обществ эпоху Ахеменидское державы. Електронное научное издания Альманах Пространство и Время. Т.5, Вып.1, ч.2, 2014.
47. Кляшторный С.Г.История Центральной Азии и памятники рунической письма. С-П 2003
48. Радлов В. Из Сибири. М. 1989,
49. Страбон. География, Книга XI. М. 1994.
50. Фрай Р, Наследия Ирана. М, 2002.

**ایرانین و آذربایجانین ائتنیک تاریخی حاققیندا بعضی قئیدلر**

**اوۋزت:** بو مقاله ایران و آذربایجانین اتنیک تاریخی‌نین قدیم کؤکلری حاققیندا بعضی بیلگی‌لری عکس ائدیر. هم سوۋئت دؤورینده، هئم ده مدرن دؤورده چوخلو تاریخچی‌لر تاریخی حقیقتی تحریف ائدیرلر و تورک لرین ایران و آذربایجان توپراقلارینا ۶- اینجی عصر ده سلجوق لار دؤوروندە گلیب، یئرلی خالقی آسیمیله ائدیب تورک لشدیرمیش اولدوقلارینی ادعا ائدیرلر. آمما ایران جغرافیاسی، بین‌النهرین و زاگروس داغلاری توپراقلاریندا یاشامیش قدیم قبیله‌لرین و سومر، سابیر، عیلام و کاسی کیمی تورانی دولت لرین تاریخلرینه درین آراشدیرمالار و بو مناطیق‌ده کشف اولونموش میخی یازیلی متن لر، باشتانلیق یادیگارلار و پالوتوپونیم بیلگی لر گؤستریر کی، بو مناطیق تورک لرین دئییل، ایرانی دیلینده دانیشان قبیله‌لر طرفیندن سونراکی دؤورلرده، تورک لردن سونرا مسکونلاشدیریلمیشدیر. تاریخی بلگه‌لر ده ثبوت ائدیر کی، ایرانی دیللی قبیله‌لر بورایا یئرلشمزدن مین ایل‌لر قاباق، تورانلی اؤن تورک قبیله‌لری بو جغرافیادا ایل‌باش تمدنین بنیادین قویوب، چوخ‌سایلی دولت لر یاراتمیشلار.

آچار سؤزلر: آذربایجان و ایران. اتنیک تاریخ. سومرلر. سابیرلر. سوگیرلر و سونقورلار. عیلاملی‌لار. کاسیلی‌لر. تورک لر. آریان‌لار.

ایران و آذربایجانین اتنیک تاریخی حققیندا بعضی قیدلر

ایران تورک لرینین و اونونلا بیرلیکده آذربایجانین تاریخینین ساختالاشدیریلما سنتتی "ایران" آدلاندان اولکه‌ده ۲۰- اینجی عصرین باشلاریندا، اؤزلری ده تورک اولان احمد کسروی، محمود افشار و باشقا پان‌ایرانچی-آریان‌چی‌لار طرفیندن قویولموش و بو گون ده داوام ائتمه‌کده‌دیر. مسئله‌یه پان‌ایرانچی و فارس میللت چیلیغی موضعیندن یاناشان بو اوزدن‌ایراق تاریخچی‌لر، تاریخی حقیقت‌لری تحریف ائدب، تورک لرین بو منطقه‌یه ۶ عصر ده، سلجوق‌لار دؤورونده گلیب، یئرلی خالقی آسیمیله ائدیب تورک لشدیرمیش اولدوقلارینی بین المللی علمی سایت‌لاردا تبلیغ ائتمه‌کده‌دیلر. آمما ایران جغرافیاسی، بین النهرین و زاگروس داغلاریندا یاشامیش قدیم قبیله‌لر و دؤولتلرین تاریخلرینه جیددی آراشدیرمالار و بو مناطیق‌ده کشف اولونموش میخی یازی‌لار، باشتانلیق یادیگارلار و پالوتوپونیم بیلگی‌لر، تورک لرین دئییل، ایرانی دیللی قبیله‌لرین بو منطقه‌یه گلمیش اولدوغونو و اونلارین بورادا مسکونلاشماسینان مین ایل قاباق، اون‌تورک قبیله‌لرین بو جغرافیادا ایلباش تمدنین بنیادین قویوب، چوخ‌سایلی دولت لر یاراتمیش اولدوغونو ثبوت ائدیر. م.ت. زهتابینین "ایران تورک لرینین اسکی تاریحی" اثرینده ده بو حاققیندا بحث اولونوب.

بشر تمدنین اساسینین اروپادا یونان-هلن و آنتیک-روما، شرق‌ده ایسه فارس-آخمنا دولتی طرفیندن قویولدوغو حاققیندا آریان‌چی، اروپانین مرکزییتیله نظری یارادیجی‌لاری، اروپانین بؤیوک تاریخچی‌لری، سامی و آریان‌لارین تاریخ ساحه‌سینه قدم قویماسیندان مین ایل اؤنجه، بشر تمدنین اساسینین اؤن آسیادا تورانی-اؤن تورک سومر و عیلاملی-لار، اروپادا ایسه آتروسک‌لار طرفیندن قویولدوغو حاققیندا ایره‌لی سوردوکلری فیکرلری گؤرمه‌مزلیکدن گلیرلر.

اروپانین ی. اوپپرت، ف. لنورمان، ا. نوریس، م. مورتدمان، ق. ماسپرو، ف. کونیک، ف. اسمیت، ز. راخوزینا کیمی گؤرکملی تاریخچی‌لری، مادای‌لارین تورانی اؤن تورک اولدوغونو و آخمنالرین مدیادا حاکمیتی خیانت‌له اله کئچیریب، ایران-فارس دولتی و مدنیتی میدیا دولتی و مدنیتی اوستونه قوردوغونو تاریخی دلیل‌لر اساسیندا تصدیق ائدیرلر. بو اوزدن هند-اروپعالی‌لارین ستاییش‌ایله بحث ائتدیی ایران مدنیتی اوریجینال مدنیت اولمایوب، اونون یارادیجیلاری مدیالار، اؤز اتنیک و کولتورل باغ‌لاریلا سومر، عیلام و کاسی‌لره باغلی اولموشلار.گونئی آذربایجان، اونونلا بیرلیکده باشقا ایران منطقه‌لرینده یاشایان تورک لر، قدیم اؤن آسیانین تورانی اؤن تورک خالق‌لارینین تاریخی واریث لریدیر. ایران و گونئی آذربایجان منطقه‌سینده بو گون ده سومر، سابیر، عیلام، کاسی، کوتی، اورارتو، میدیا و باشقا قدیم تمدن‌لره عایید چوخ‌سایلی پالوتوپونیم‌لر و پالوائتنونیم‌لر اوز موجودلوغونو قورویوب ساخلاییب. دیلچی‌لر بو تمدن خالق‌لارین دانیشدیغی دیل‌لرین، تورک دیل‌لری کیمی، آگلوتیناتیو- هیجعالی قورولوشا مالک اولدوغو حاققیندا فکوروشداش دیرلار. اروپانین۱۹-۲۰اینجی عصر تاریخچی‌لری، اؤن آسیانین بو قدیم تمدن خالق‌لرینی تورانی‌لر، یعنی اؤن تورک لر آدلاندیریلار. آشوری لرین و یا باشقا دئیمله سومرچیلیغین اساسین قویان و میخی یازی‌لاری کشف ائدیب

اونو ایلک آراشدیران اروپانین س. کرامر، ا. نوریس، ی. اوپپرت، ف. لنورمان، ا. هینکس، ه. روویل‌سون، ب. لندس‌برگر، ف. هومل کیمی بؤیوک تاریخچی‌لری، er.q 6-اینجی مین‌ایل‌لیکده بین النهرینده ایلباش بشر تمدنین اساسین قویان سومرلرین اؤن آسیایا تورکیستاندان – خزر دنیزی اطرافیندان، "آراتتا" آدلی منطقه‌دن گلدیک‌لرینی، دیللرینین آگلوتیناتیو قورولوشا مالیک و آلتای-تورک دیل‌لرینه منسوب اولدوغو نظری‌سینی ایره‌لی سورموشلر. اونلار حتا سومرلرین اتنیک قایناغی باخینیندان دا اؤن تورک لر اولدوغو نظری‌سینی مدافیعه ائتمیشلر.

سومرلر و سوبار/سابیرلرین تورک تؤره‌نیمینده یئری

سومرلر، باشقا آدلا کنگرلر، آذربایجان خالقینین تؤره‌نیمینده اؤنملی رول اوینامیش‌لار. سامی‌لر بو خالقا وردیک‌لری آد "سومر" ایدیر. سومرلر اوز اؤلکه‌لرینی کالام، دؤولت لرینی ایسه کنگر آدلاندیریردیلار. کنگرلی تورک سویو، کنگرلرین موجود واریث لریدیر. سومرلرله یاناشی، قدیم اؤن آسیانین باشقا بیر خالقی اولان، آگلوتیناتیو-هیجالی دیله مالیک سوبارتو یا سابیر خالقی ده تورک لرین اتنوگنزینده باشلیجا رول اویناییش‌لار. سوبارتو، ایکی‌چای آراسینین er.q ۱۲۰۰-۳۳۰۰جی ایل‌لر آراسیندا آدی یازیلان قدیم منطقه‌سیدیر. سابیرلر اؤن آسیانین تورانی اورپاغا (منشأ) مالیک قدیم اتنوسودور. بیر چوخ تاریخچی سومر و سابیرلری آیینی اتنیک کؤکه مالیک و آیینی دیلین فقرلی دیالکت‌لرینده دانیشان خالق حساب ائدیر- er.q 3 .اونجو مین‌ایل‌لیکده سابیرلر آرتیق بو منطقه‌ده یاشاییردیلر. بیر چوخ تدقیقاتچی‌لار، سابیرلری هیتی، هوری و اورارتولارین اجدادی حساب ائدیرلر. سابیرلر قربی و شرقی اولماق‌لا ایکی قولا بؤلونور. سوبارتو و سابیرلرین مسکونلاشدیغی منطقه زاگروس داغلاریندان آغ دنیزینه قه‌در بؤیوک بیر منطقه‌نی ایجاد ائدیردی. شرقی سابیرلر اورمو گؤلونه قه‌در اولان منطقه‌ده یاشاییردیلر. سوبارتو آدی "سو-ادن-کی" ایدئوگرامیسی ایله یازیلیردی. بو آد، سومرلرین "سولو-باتاقلیق منطقه‌ده یاشایان سو خلقی" آدیندان فرقلنیر و "دوزنلیک‌ده‌کی سو خلقی" آنلامینی داشییر.(ادن، دوزنلیک دئمک‌دیر). (چئک لی)آلمانلی آشورشناش ب.هروزنی سومرلری اورال-آلتای دیل عائله‌سینه منسوب حساب ائدیر و اونلاری ایلک وطن‌لری اولان تورکیستاندان کؤچوب بین النهرین گونئییند‌ه یئرلشمه‌لرینی بیلدیریر. سابیرلری ایسه، هینی منطقه‌دن کوچوب بین النهرین خوزئیینده ییرلشدیگین قئید ائدیر. اونون ایضاحینا گؤره، "سومرلرین ایکینجی دالغاسی اولان سابیرلر، زامانینداکی مدنیتی‌نی یاراتمیش پروتو-سومرلرین یئرلشدیگی شمعالی بابل منطقه‌سینه مسکونلاشدی". هروزنی، فورر، جنسن کیمی تاریخچی‌لر سابیر آدینین سومرلرین ایلک آدلاری اولان سوگیر آدیندان یاراندیغینی قئید ائدیر. بو سوگیر آدی، سومرلرین امه‌سال دیالکتینین فونتیک قایدالاری اساسیندا سابیر-سوبار و سومر فورمالارینا دئییشدیریمیشدیر. میخی متین‌لرده، سومرین بین النهرین شمال-شرقین ایجاد ائدن منطقه‌سی شانغار، شمال-قربی ایسه سابیر آدلاندیریلاردی. بئله‌لیک‌له، بو آدلار سومر خالقی‌نین بابیله قه‌دردکی قدیم دؤنمدن ایکی حیسه‌سینی تمثیل ائدیر. سومرلرین براخیکفال و دولیکیکفال اولماق‌لا ایکی آنتروپولوژیک تیپ‌ده اولمالاری، اونلارین مختلف دؤورده ایکی دالغا ایل

مسکونلاشدیغی‌نین نتیجه‌سیدیر. (هروزنی ب. ۱۹۵۳، صحیفه ۳۹(سومرلرین سابیر، آشورلرین سوبارتو آدلاندیریغی منطقه‌نین آدی، گ-ب عوضلنمه‌سی ایله سوگیر آدینه چئویریلمیشدیر. سومرین تانری آدی اولان دینگیر ده آیینی حرف عوضلنمه‌سی نتیجه‌سینده امه‌سال دیالکتینه دیممیر فورماسینی آلمیشدیر. فورره گؤره، شانغیر و سونغور، آیینی آدین ایکی مختلف فونتیک ایفاده‌سیدیر. سابیر دیلی، سومر دیلینین بین النهرین دیالکتیدیر. (فورر امیل، ۱۹۳۰، صحیفه ۲۳۳). فورر اؤن آسیانین بیر چوخ قدیم دیل‌لرینی، او جومله‌دن کیچیک آسیانین قدیم خلقی اولان هیتی دیلی‌نی سومر دیلی ایله باغلاندیریر و اونلاری آریان‌لاردن قاباقکی هیتی-سونغور اوتوکستون خالق کیمی قبول ائدیر. فورر سومر آدینین ایلک فورماسینین اصلن "سونغور" اولدوغونو و بو آدین دؤرد مختلف دیالکت‌ده ایفاده اولوندوعونو و سونغورلارین توروس داغلاریندان باشلایاق عیلام کؤرفزینه قه‌درکی دوزه‌نلیک منطقه‌ده مسکونلاشدیغینی یازیردیر.

پ. جنسن۱۹- جو عصرین اوللرینده یازدیغینا گؤره آمارنا و بوغازکؤی میخی متن لرینده بابیل عمومی آدلا شانخارا آدلانیر،قدیم یهودی منبع‌لرینده او سینار آدلانیر و بونلار سونقار آدینین مختلیف دیالئکتلرده‌کی ترجمه شکلیدیر .

ای. فورره گؤره سونقور آدی میخی کتیبه‌لرینین یارانماسیندان اؤنجکی دؤوره عایید اولوب تخمینن میلادان قاباق.۲۷۰-جی ایلدن، هله یاخین شرقین واحید بیر منطقه‌سینی تشکیل ائدن مرکزی دوزه‌نلیک اراضی‌سینین سوبارتو، عیلام و بابیل اراضی لرینه بؤلونمه‌سیندن اؤنجکی آدی‌دیر. سونقور آدی ایکی یئرده ساخلانمیشدی،عیلام‌دا و بین النهرینده. بین النهرین تام مرکزینده آشوری کتیبه‌لرینده سونقور اؤلکه‌سی و داغ سیلسیله‌سی آدلاری قئید اولونور سونقور آدلی دیگر بیر داغ سیلسیله‌سی زاگروسون شرقینده، آذربایجان اراضی‌سینده یئرلشیردی. آ. آنقاددا سومرلرین اؤز قدیم دیالئکتلرینده عیلاملی‌لاری سو-قیر و سا-قیر آدلاندریردی. بو آد هم عیلام اؤلکه‌سینی، هم ده، سوبارتونو ایفاده ائدیردی. بو او دئمک‌دیر کی، عیلام لار سوبارلارلا قوهوم بیر اهالی کوتله‌سینی تشکیل ائدیردیلر.آرتیق er.q2700- جو ایلین باشلاریندا سومر شاهی ائآنناتوم(er.q ۲۴۰۰-۲۵۰۰ (دؤورونده سوبارلار عیلامین باتیسینداکی سوبارتو آدلانان بؤلگه‌یه اوخشاراق اوردا مسکونلاشمیش‌دیلار.(اونگناد آرتور. ۱۹۳۶.ص۱۹۷).

ج.هوزینگ زاگروس داغلارینین دوغو سیلسیله‌سینین عیلام دیلینده سونقور آدلاندیغینی و معناسینین «شاه داغلاری» دئمک اولدوغونو یازیر.(هوزینگ ج.۱۹۰۸.ص۲۰-۱۹). اصلینده زاگروس داغلارینین گئرچک آدیدا سونقوردور (سومر میخی یازی سیستئمینده «گ» ساقیر "نق" کیمی اوخونور، سونداکی «اوس» یونان دیلینه خاص شکیلچی‌دیر). سومرجه عیلامین سوبی-ساقیر آدینین ائکدی جه قارشی‌لیغی عیلاتو شکلینده‌دیر و معناسی «یوکسک،یوخاری» آنلامی داشیییر.گؤرونور ائکدی جه بو عیلاتو سؤزو تورک لرین داغ یایلالاریندا کؤچری‌لیکله علاقه‌دار «ائلات» تئرمینین کؤکونو تشکیل ائدیر. سونقور عیلامدا و کاسی لرده ان اؤنملی تانریلاردان بیریدیر. یوخاری سونقور هارپئر آدلی شهر ده واردی (بلکه ده سونقور شهری بو آددان یارانیب). بو

قدیم اؤن-تورک تانری‌سینا تاپینمانین قعالیقلاری تورک لرین ان اؤنملی اؤن-قونو اولان سونقور قوشونون تیمثعالیندا سونراکی تاریخی دؤنملرده ده داوام ائتمیش‌دیر .

ابوبکر الطهرانی الاصفهانی تصدیق ائدیردی کی، آغ‌قویونلو قارا یولوق عثمان بیگین ۲۰-جی باباسی سونقور بیگ محمد پیغمبرین معاصری ایدی. او، آلاگؤز و گؤیچک دنیزی یایلاقلاری طرفده‌کی سرحدلرده "کافیرلرله محاربه ائتمیش" و دؤیوشلردن بیرینده هلاک اولموشدو. واختیندا سوبار-سومر-سونقورلارین تاریخی یاشاییش اعلانینی تشکیل ائدن عینی اراضیده بو گونده اونلارین واریث لری اولان سونقور تورک لری اؤز وارلیغینی سوردورمکده‌دیرلر. بئله‌لیکله، سوبارلارین سومر متن لرینده شانقار و یا سونقار شکلیده ایفاده اولونان اراضی‌سی آذربایجانین هر ایکی حیسه‌سینده موجود اولان سونقور داغلاری و ایراندا سونقور ایالتی ایله عینی‌لیک تشکیل ائدیر. بو داغلار آرتتا داغلاری کیمی ده مشهوردور .

گونئی آذربایجاندا، کرمانشاه و همداندا یوز مین‌لرله سونقور تورک لری یاشاییر. کرمانشاهدا سونقورلارین یاشادیغی سونقور ایالتی واردیر و پایتاختی دا سونقور شهری‌دیر.او معاصر کنگاور و سینان داش(سنندج) آراسینداکی زاگروس داغلاریندا یئرلشیر.(آل بایراق آر.سی.۲۰۱۶،۱.ص.۳۲۴)

محمود کاشغرلی «دیوان اللغات-تورک» اثرینده سونقورون اوغوز سوی‌لاریندا اوران اولدوغونو یازیر.کیتابیندا دده قورقود اولان عصرده قازان خان غرورلا دئییر کی، منیم آغ سونقور قوشو آدلی بیر اجدادیم وار .

سونقور سوی‌لاری آذربایجانلا یاناشی تورک لرین یاشادیغی آنادولو، باشقیریستان، ولگا(بیر چای آدی دیر)سویو، قازاقیستان اراضی لرینده ده مسکونلاشمیش و بوردا اونلارین آدی ایله چوخلو توپونیم، هیدرونیم‌لر موجوددور .

سومر آدینی داشییان سومرین شهری اردبیلله ساوالان آراسینداکی ۳۵ کیلومترلیک مسافه‌نین دوز اورتاسیندا یئرلشیر. بو شهرین آدی تحریف اولوناراق شووینیست ایرانچی دایره‌لر طرفیندن سامرین کیمی قلمه وئریلیر .

سومرلر و سوبارلر یاشادیقلاری تاریخی فاجعه نتیجه‌سینده اؤز یوردلارینی ترک ائدیب دونیایا یاییلمیشلار. اونلارین بین النهرینه آخین ائدن وحشی سامی طایفالارینین ضعیفلنمه سیله اؤز یوردلارینی ترک ائده‌رک دونیایا یاییلماسی فاکتی تاریخی ادبیاتدا «اوروک ائخپانسیون» و یا اوروک گئنیشله‌نمه‌سی آدی ایله معلوم‌دور. سومرلرین و سوبارلارین اؤز یوردلارینی ترک ائده‌رک قافقازدا مسکونلاشماسی نتیجه‌سینده ۳یا۴-جو مین ایللیک لرده میلادان قاباق بوتون قافقازی، شرقی آنادولونو، ایران یایلاسینین شمال اراضی لرینی، یاخین شرقی و حتی آوروپانی احاطه ائدن کور-آراز مدنییتی فورمالاشاراق اینکیشاف ائتمیش‌دیر .

سوبارلرین مسکونلاشدیغی اراضی لر سامی ایشغعالیندان اؤنجه آتوریا آدلانیردی. بو آد آشور میخی متن لری‌ده، بیستون کتیبه‌سینده، قدیم یونان قایناقلاریندا تثبیت اولونموشدور. آ. آنقاند ایره‌لی سوردویو نظریه‌یه گؤره آنادولودان مصره قه‌در اولان اراضیده یاشایان سوبارلار اؤنجه‌لری آتور آدلی تانرینین شرفینه آتوریا (آشور) آدلانان شهر دؤولتینین ده اساسینی قویموشلار.

بیر چوخ مؤلف لر اصلی آتور و آتوریبا فورماسیندا اولان اؤلکه و دؤولتین آدینین آرامی لرین ایشغعالیندان سونرا سامی دیلینین فونتیک شکلینه اویغون اولاراق آشور و آشوریبا شکلینده ایفاده اولوندوغونو یازیرلار. (اونقناد آ.۱۹۳۶، ص. ۱۲۶ )

م. زهتابی همدان و اسدآبادین قرب طرفینده یئرلشن سونقور شهرینده و اونون اطرافینداکی آیری کندلرده و باشقا یئرلرده یاشایان تورک لرین کاسی لرین تؤرمه‌لری اولاراق اؤز دیللرینی یاشاتدیقلارینی یازیر. اونلار عیلام و کاسی دؤوروندە و اوندان سونراکی تاریخ سویو همه‌شه تورکجه دانیشیبلار و بو گون ده آذربایجان تورکجه‌سینین لهجه‌سینده دانیشیرلار.(زهتابی م.ت. ۲۰۱۰.ص.۶۷)

کاسی لر اؤن آسیبانین ان قه درتلی خالقلاریندان بیریدیر. کاسی لر تکجه آذربایجاندا دئییل بوتؤولوک‌ده دونیا تاریخینده درین ایزلر بوراخمیش قه درتلی توران طایفالارینداندير. میلادان اونجه. ۳-جو مین ایللیک‌ده مرکزی آسییاداکی توران آدلانان وطن لریندن، خزر دنیزینین گونئی اراضی لری اوزریندن گله‌رک اؤن آسییادا یئرلشن کاسی لر بین النهرینده قه درتلی بیر دؤولتین اساسینی قویاراق ۵۵۰ ایل حؤکم سورموشلر. بیر چوخ بیلیم آداملاری کاسی لرین اصل یاشاییش یئرلرینین زاگروس داغی یایلالاری،یانی آذربایجان اولدوغونو قئید ائدیرلر. اونلارین بیر حیسه‌سی زاگروس داغلاری اوزریندن کئچیب بابیل‌ده و بین النهرینده دیگر اراضی لرینده نامری آدی ایله مسکونلاشمیشلار. کاسی لرین اراضی لری اورمیه گؤلو حوزه‌سینه قه‌در یاییلمی‌دی.لرستان و زاگروس داغلارینین شرق اراضی لری دا اونلارین ایلک یئرلشدیک لری آلانی احاطه ائدیردی کی، بو گون ده اونلارین قدیم باقسا و یا داها دوغروسو با-قوسای آدلاری قورویوب ساخلانمیش‌دیر. کاس/کاش آدی ایله باشلایان بوتون ائتنونیملر کؤکو کاسیلره دایانماق‌دادیر. کاسپی سؤزونون کؤکونو ده کاس ائتنونیمی تشکیل ائدیر، آدین سونونداکی «پی» ایسه عیلام دیلینده جمع شکیلچی‌سیدیر .

آلبرت وئرت و ای. نوریس دیگر تاریخچی‌لر یونان لارین کاسی آدلاندیردیقلارینین اصلی‌ده کوسی لر اولدوغونو و اؤز آدلارینی زاگروسون خوزی خالقینا و معاصر خوزستان ویلایتینه وئردیینی یازیلار. کاسی آدی خوز آدینین قدیم فونئتیک شکلیدیر .

آلبرت وئرت تورانلی حساب ائتدیی کاسی لرین ائتنیک کیم‌لیيی حاققیندا سوالا اونلارین اورتا آسییعالی اولدوقلارینا ایناندیغینی و اونلارین ایلکین یاشادیقلاری یوردون قافقاز اولا بیلجه‌یی و آدلارینین کاساکا و یا کاش آدییلا عینی اولدوغو فیکرینی ایره‌لی سوروردو .

تبت‌ین ده قدیم آدی کاش اولموشدور. باشقا آدلاری کاش اولان یوئچیلر کوشان دؤولت یاراتمیش‌دیلار. اؤزلرینی کوسی آدلاندیران کاسی لر سونرادان شوشا و یا کوز-خوزی لره اؤز آدلارینی وئرمیشلر،کاشقار و کاشمیر آدی دا اونلارلا علاقداردیر. وئرت کاسلرین «تورقو» و یا «تورکو» تانری‌سینین تورک لرین ده تانریسی اولدوغونو یازیر.(وئرت. آ.۱۹۰۵، ص. ۱۸)

هیلپرته گؤره کاسی لرین تورقو تانری آدینین عیبرانی‌لرین پیغمبری ایبراهیمین آتاسی تئراه آدی و تارخو/تورقو آدی ایله عینیت تشکیل ائدیر.(ژئنسن پ.۱۸۹۸.ص.۱۵۳)

سومر دیلینده هیجالارین یئرده‌ییشمه‌سی متاتئزا قایداسینا گؤره بو آد توروق شکلینده ده ایفاده اولونوردو و تورک سؤزونون آرکائیک ایفاده‌سی‌دیر .

کاسی لرین بیگ‌لیک دؤولت لریندن بیری پاروراشونون شاه اولدوغو اؤلکه بیت-برابری (کور.ائ-برا-بری) و یا شی-برابری آدلانیب «قورتلارین اؤلکه‌سی» ویا یئری دئمک‌دیر.(جکسون آ.۱۹۲۹.ص.۱۳۷)

کاسی دیلینده بوقاش تانری دئمک‌دیر. بو آدین معناسی بوغا اولوب، تورک لرده بوغا، روس لاردا بوق، فارس لاردا باغا، آلمان لارا بوجک شکلینده کئچمیش‌دیر .

آذربایجاندا کاسی دیلی اساسیندا ایضاح ائدیله بیله‌جک گئنیش یاییلمیش توپونیم‌لردن بیری ده کوسعالی یئر آدلاری‌دیر. کاسی لرده و حوری لرده کاشعالی سویو موجود اولموشدور و آذربایجاندا گئنیش اراضی لرده مسکونلاشمیش کوسعالی سویو اؤز کؤکو اعتباری ایله بو کاسی سویو ایله علاقه‌داردیر .

اؤن آسییادا سومردن سونرا ایکینجی بیر اویغارلیق مرکزی اولان و معاصر ایرانین جنوبی-قرب اراضی لرینین ده بؤیوک بیر حیسه‌سینی احاطه ائدن عیلام بیر خالقین آدی دئییل مختلیف تورانلی-اؤن تورک طایفالارینی اؤز ترکیبینده بیرلشدیرن کونفدراتیو بیر دؤولتین آدی دی. عیلام اؤن آسییانین-er.q 3 نجو مین ایللیک‌دن،۶ مین ایللک عصره قه‌در اؤز وارلیغینی داوام ائتدیرمیش قه درتلی دؤولتلریندن بیری اولموشدور. عیلام مخصوص یئر آدلاری، ثلاله آدلاری، دیللرینده‌کی بیر چوخ سؤزلرین تورک دیللری ایله ظاهری اوخشارلیغی و معنا باخیمیندان عینی‌لییی عیلاملی طایفالارین تورک لرله یاخین قوهوملوق مناسیبتلرینه مالیک اولدوقلارینی گؤستریر .

قدیم عیلام میخی یازیلی متن لرینده کوک سیمیت،کوک تانرا،کوک اینشوشوناک، کوک ناهونتی کیمی بیر چوخ تانری و شخص آدلارینین اؤنونه «گؤک» آنلامی داشییان «کوک» عنوانینین آرتیرماقلا اونلاری تانریسال لاشدیردیلار.(هینز.۱۹۷۲،ص.۱۴۱)

دانمارکلی آشور شیناش کارستن ام.نیبور عیلامین قوتی لرله عینی اولدوغونو و عیلام و شوشاداکی خوزی خالقینین آدینین قوتی آدی ایله عینیت تشکیل ائتدییینی قئید ائدیر .

بئله کی، عیلامین خوزئینده خوزقان رود (خوز چایی) آدلی چای دا موجوددور.( نیبهور .ام.کارستن،۱۸۵۷، ص.۱۶۶)

آوروپانین بیر چوخ تاریخچی لری قدیم یونان مؤلف لرینه اساس‌لاناراق سوزیانانی «اوکسی»لراؤلکه‌سی (پایس د'اوخیئنس) آدلاندیریرلار. بو فیکوروش سوز، سوزیانا، خوز، خوز و اوکوز آدلارینین عینی کؤکدن اولان سؤزون مختلیف فونئتیک شکیللری اولدوغونو اثبات

ائدیر. عیلامین پایتاختی شوشا آدینین معناسی «یوکسک‌ده‌کی قالا»-ایستیحکام دئمک‌دیر و بیزیم شوشا قالاسی ایله عینی آنلام داشیییر .

خوز و انشان اوکسیانین ان موهوم شهرلری ایدیلر. ایسترابون اوکسیلری حیواندارلیقلا مشغول اولان کؤچری داغلی لار و وادیده‌کی اکینچی لر اولماقلا ایکی قولدان عبارت اولدوقلارینی یازیر.۱۳(Страбон. География، Книга XI. M. ۱۹۹۴، XV، III، ۲، ۴)

ایشپیگل ائمئنی شاهلارینین اوکسیلری اؤزلرینه سونا قه‌در تابع ائده بیلمدیک لرینی و حتی اونلارین اراضی لری‌دن کئچمک اوچون خراج اؤددیک لرینی یازیر .

اوکسیلرین کؤکو لیدیبا حاکم ثلاله‌سینه دایانیر. یونانلی لارین کیاکسار شکلینده ایفاده ائتدیک لری لیدیبا حؤکمدارینین آدی اوستادا هوکساتار، عیلام میخی کتیبه‌لرینده گئرچک‌ده اولدوغو کیمی اوکساتار فورماسیندا یازیلمیشدی. بو آد اؤزونده «اوکسی/اوقوس» طایفاسینین آدینی عکس ائتدیریر. اف. لئنورمن آدین سونونداکی „تار« سؤزونون لیدیبا دیلینده اوغول دئمک اولدوغونو یازیر .

بئله اولدوغو تقدیرده اوکساتار آدینین لیدیبا دیلینده آنلامی اوکسی‌اوغلو دئمک‌دیر .

آنتیک تاریخچی لر آریان و کورتو روفوسمقدونیه لیایسکندرین دؤولتینه قارشی ساواشیندا کاسی لرله یاناشی اونا ان گوجلو دیرینیش گؤسترنلرین زاگروسون خوزی/اوکسی خالقی اولدوغونو و ایسکندرین اوردوسونو تعقیب ائتمک اوچون اوکسیللره باریش ایمضالاماغا مجبور اولدوغونو یازیرلار .اونلارین زاگروس داغلارینین شرقینده یئرلشن تاریخی وطنی بو گون ده خوزستان آدلانیر. آگلوتیناتیو قورولوشا مالیک خوزی/خوز دیلی امک نیلر دؤوروندە و داها سونرا اوزون ایللر عرضینده اساس دانیشیق دیلی اولموشدور.(لئنورمانت ف.۱۸۷۵،ص.۳۱۵)

۱۰-جو عصر عرب سیاح المقدیسی و تاریخچی استخری اونلارین دؤوروندە خوزی دیلینین هله ده ایستیفاده اولوندوغونو و بو دیلین عرب، عبری و فارس دیلیندن تاماميله فرقلی بیر دیل اولدوغونو یازیر. شوبهه‌سیز کی بو دیل خوز/اوغوز دیلی ایدی .

بئله‌لیکله عیلام-خوزی دیلی عربلرین بؤلگه‌یه گلدیک لری دؤورده اولدوغو کومو بو گونده

تاریخن اؤن-تورک لرین مسکنی اولان اراضیده و عیلام‌دا خوز-اوغوز دیللی تورک لر یاشاماقدا داوام ائدیر .

عیلام و کاسی زاگروس داغلاری و اطرافیندا یئرلشمیش قونشو دؤولت لر عیلامی-لاردیلار اؤز اؤلکه‌لرینی هالاتامتو و یا هاتامتو آدلاندیریردیلار. حال عیلام دیلینده «اؤلکه»، «آتام» تورک دیللرینده اولدوغو کیمی آتا، «تو» ایسه یئری بیلدیریر .

عیلام‌دا تئومان، کورتاق کیمی تورکجه اولان شاه آدلاری ایله یاناشی تورکجه اولدوقلاری

شوبهه دوغورمایان سو-ماشکی، اوککو (بؤیوک) ،تارو، کوتور، کوق، آتتا، کودوزولوق، اثبار، سوککال کیمی حاکمیت ثلاله عنوانلاری موجود ایدی .

دانیل پوتتس عیلام حاققیندا یازیردی: «عیلام‌دا تئومان، کودور کیمی بیر چوخ حوکمدار آدلاری تورک آدلاری ایله عینیت تشکیل ائدیرلر. دؤوردننین بیستون

کتیبه سینده یازیلدیغینا گؤره یولا دوشمه سینه تابع اولماییب er.q ۵۲۲-جی ایلده عصیان

قالدیراراق اؤزونو عیلام حوکمداری اعلان ائدن شخص آششئنا و یا آسسئنا آدلانیردی .

بو آد گؤی تورک لرین اولو اجدادی آسئنا آدینی خاطیرلاتماق‌دادیر».(پوتتس د.۱۹۹۹، ص.۱۷-۱۴ )

»عیلام‌دا حوکمدارلارین «کوتور» عنوانی موجود ایدی، بو بابیلی یادا دا اؤز عکسینی تاپیب. «کوتور» سونرادان هونلارداکی عظمت‌لی، عالی آنلامی داشییان «کوت/کوتو» عنوانی و «کوتلوق» سؤزو ایله عینیت تشکیل ائدیر .

اؤن تورک لرین کوتا تانری‌سینی ایرانلی لار اؤزلشدیره‌رک خودا شکلینده ایفاده ائدیرلر .

پارس لار بابیل میخی متن لرینده عیلام آدلاندیریلان اؤلکه‌نی اوژا، یعنی اوجا آدلاندیریردیلار. شوبهه‌سیز کی بو آد یوکسک‌لیک معناسینداکی عیلام آدینین خوزی/ اوکسی دیلینده ایفاده‌سی‌دیر و عینی ایله تورکجه‌ده اوجا و یوکسک‌لیک آنلامی داشییر .

عیلام‌دا کودور عنوانی ایله برابر اوزون مدت حاکمیت سوره‌ن .er.q) ۱۸۵۰ -

۱۵۰۵ (ثلاله‌لری‌دن بیری ده سوککال-ماه ثلاله‌سیدیر. بو حاکمیت منسوبلاری سوککال عنوانی داشیییردی. سوککال-ماه عیلامین عالی حوکمداری اولوب معناسی «بؤیوک سوککال» دئمک‌دیر. ایالت لری اداره ائدن حوکمدارلار ایسه ساده‌جه سوککال عنوانی داشیییردیلار. سومر دیلینده سوککال سؤزونون معناسی عینی ایله تورک دیلینده اولدوغو کیمی «آغ ساققال، باش بیلن» دئمک‌دیر. سومرلر بو سؤزو تیتول کیمی وزیر و ائلچی آنلامیندا دا ایشلدیرلر .

کوتور عنوانی ایله یاناشی سوککال عنوانینین دا واریث‌لیک عنعنه‌سی ایله تورک لره کئچمه‌سی عیلام طایفالاری ایله تورک لر آراسیندا ائتنیک قوهوملوق عنعنه‌لرینین موجودلوغونو ثبوت ائدیر.گؤی تورک خاقان‌لیغی و تورقئش خاقان‌لیغیندا دا ساکاکال حاکمیت تیتولو ایدی. ۷۰۶-جی ایلده تورقئشلرین خاقانی ساکاال خاقان اولموشدور.گؤرونور سوککال لار ثلاله سویو و یا ائلیت زومره‌نی تشکیل ائدیردیلر .

تورک لرده ساکاال سوی آدلاری دا موجوددور. و. رادلف ساکاالی تئلئنقیت چویلارین سویو، کارا ساکاالی ایسه کازاخ-قیرغیزلارین کیچیک اورداسینین آلچین طایفاسینین سوی آدی اولدوغونو یازیر.(.Радлов В۱۹۸۹ ص.۱۱۲)

آذربایجان اراضی سینده اورمییا گؤلونون گونئیینده زامو و ایللیپی اؤلکه‌لرینین آراسیندا، زاگرس داغینین خوزئیینده بارسوا اؤلکه‌سی یئرلشیردی. ۳-جو سالمان عصرین م.اؤ. ۸۵۸ و ۸۵۶-جی ایللرده آشوریانین خوزئیینده و دوغوسوندا یئرلشن اؤلکه‌لره

حربی یوروشوندن سونرا یازدیردیغی ظفر لؤوحه سینده فتح ائتدیی و خراجا باغلادیغی اؤلکه‌لرین سیاهی‌سیندا بارسوا اؤلکه‌سینین آدی دا وئریلمیشدیر .

ای.شرادر بارسوانی مادییا ایله علاقه‌لندیره‌رک یازیر کی، بارسوا مادییانین باتی‌سیندا و عیلام‌دان خوزئی‌ده ماننانین یانیندا یئرلشیردی. بارسوا آدینین اوخونوشونو بعضی مؤلف لر پارسوا شکلینده ده قئید ائدیرلر. بارسوا و یا پارسوانی ایران دیللی و یا فارس اؤلکه‌سی کیمی تقدیم ائتسه‌لر ده، بیر چوخ گؤرکملی بیلیم آداملاری بو فیکری تکذیب ائدیرلر. بارسوا ائتنیک منشأ باخیمیندان پارسادان تامامیله فرقلی بیر اؤلکه ایدی. بیر چوخ مؤلف لر بارسلاری سوبار و کاس/کوسی منشألی حساب ائدیرلر. سامی لر بارسایا نامریل دئییردیلر. نامریللار تاریخی منبع‌لرده همچینین کاسی لره منسوب خالق کیمی قئید اولونور. مادیا تاریخینین مؤلفی دیاکونوو قئید ائدیر کی، دیالا چاییینین یوخاری‌سیندا زاموا اؤلکه‌سینین و مانانین قونشولوغوندا یئرلشن پارسوا (عیلامجا پاساوا) آکدی دیلینده «دیار، اؤلکه» معناسیندا اولوب فارس دیلی و فارس ائتنیک آدی ایله هئچ بیر علاقه‌سی یوخدور و پارسوانین فارس لارین وطنی اولدوغو و اونلارین ۸-جی-۷-جی

عصرلرده بوردان چیخاریلاراق ایندیکی فارس ایالتینده یئرلشدیک لری حاققینداکی ادعالار

تامامیله یانلیش‌دیر. پارسوادا هر هانسی بیر ایران دیللی توپونیم و شخص آدی موجود

اولمامیش‌دیر. (Дьяконов И. M.تI، ۲۰۱۲، ص.۱۷۹)

لاکین دیاکونووون بارسوانین فارسلارین وطنی اولمادیغی حاققینداکی فیکری دوغرو اولسا دا، اونون ادعالارینین عکسینه اولاراق پارس/فارس آدی محض بارسوا آدی ایله علاقه داردیر .

آرتور اونقناد سوبار/سابیرلرین بارسو و یا پارسو آدلی تانریلارینین اولدوغونو یازیر. بارس کاسی لرده ده مقدس حساب اولونوردو. یونانلار بو آدی پارسا، عرب لر ایسه فارس شکلینده ایفاده ائدیردیلر .

گؤرونور مختلیف حیوانلاری اؤزلرینین توتئم اجدادی حساب ائدن بیر چوخ اؤن تورک خالقلاریندا اولدوغو کیمی سوبار/سابیرلرین تانریلاریندان بیری ده تورک لرده معناسی پلنگ دئمک اولان بارس اولموشدور. بارسوا اؤلکه آدینین سوبار/سابیرلرین بارس تانری آدیندان یارانماسی داها گئرچک‌چی بیر یوزومدور. بارس دا، قورد و اؤکوز کیمی ان قدیم دؤورلردن تورک خالق لارینین اجداد توتئمی-اونقونو اولموشدور کی، بو اؤن تورک سوبار/سابیرلردن قالما تاریخی عنعنه‌نین داوامی‌دیر.. قدیم تورانلی ائتنوس اولان سوبار/سابیرلرین بارس تئونیمی سونرادان تورک لرده ائپونیم و ائتنونیم اولاراق بارسیل طایفا بیرلیینین آدیندا اؤز عکسینی تاپمیش‌دیر. بارس سؤزو تورک دیالئکتلرینده ایکی فرق‌لی فورمادا بارس و تونقا آدلانیر. افراسیاب-آلپ ار تونقا و دیگر ساکا قهرمانلاری دؤیوشلره آدی تؤورات و قورآن دا چکیلن افسانوی حوکمدار نیمرود کیمی بارس دریسینه بورونه‌رک گئدیردیلر. تورک ائللرینده گئنیش یاییلمیش ائل-بورس(البرز) داغ آدی ان ماراق دوغوران قدیم توپونیملردن بیریدیر. آسییا توپراغیندا

سایان داغلاریندا باریس داغ سیلسیله‌سی، بؤیوک باریس و کیچیک باریس موجوددور. دماوند داغینین دا قدیم آدی بارس داغی ایدی .

آ. اونقارد و دیگر تاریخچی لر آریا سؤزونون معناسینین سوبار دیلینده «وئرمک» اولدوغونو و اونون تانری آدلاری ایله یاناشی ایشله‌دیله‌رک تانری وئردی،آللاه وئردی آنلامی داشیدیغینی یازیرلار.  اؤن آسییانین بارسوا اؤلکه‌سینین اهالی‌سی آشوریانین داغیدیجی محاربه‌لری سببی ایله مجبوری کؤچ  لره معروض قالمیش قافقاز، وولگاسویو و جنوبی سیبیر اراضی سینده یئرلشه‌رک تورک ائتنوسونون بارسیل/بارسیل سویونو تشکیل ائتمیشلر. بارسیللر بعدی بارسیلین باشچی‌لیغی آلتیندا گؤی تورک خاقان‌لیغی دؤورونده آدلاری اوغوزلارلا بیرلیک‌ده قئید اولونور. بارسیللر سونراکی دؤورده خزر خاقانلیغینین قوروجو سویلاریندان و حاکمیت قوللاریندان بیری اولماقلا، خزر خاقان لارینین حاکمیت ثلاله‌سی اوچون دونور/باجاناق سویونو تشکیل ائتمیشلر. بارسیللر تورک لرین سونراکی تاریخینده صابیر/ساویر آدی ایله تانینمیشلار .

قدیم بارسیللرین بؤیوک قیسمی خوزئیه دوغرو حرکت ائدرک خزرین شمالیندا و شمال-شرق اراضی لرینده مسکونلاشمیشدیلار.سونرادان دانیشیق دیلینده ر-ز اوزله‌نمه‌سی ایله بورچالی و بوزچالا شکلی آلان آذربایجان اراضی سینده‌کی بارسی للرین معاصر واریث لری بو گونکی گرجیستانلا یاناشی آذربایجانین گونئیینده‌کی اؤز قدیم یوردلاری اولان اورومو گؤلو اطرافیندا،سولدوز بؤلگه‌سینده، همدان ویلایتینده، ایرانین مرکز اوستانیندا اراک ویلایتینده بوزچالی ناحیه سینده، قومیجان،تفریش، فراهان، نؤوبران، فومن کیمی شهرلرینده ده یاشاماقدادیرلار. بورچالیلاری یانلیش‌لیقلا مغول لارین تورکلشمیش آرالات سوی بیرلیینه عایید حساب ائدیرلر .

گونئی آذربایجان اراضی سینده آدلاری تاریخی منبع‌لرده کاسی/کاشو/کاس/کوسی شکلینده قئید اولونان قه درت‌لی سوی بیرلیگی ایله علاقه لندریله‌ن سویلاردان بیری کاشقایلار/ قاشقایلاردیر. بو تورک ائلی ایران جغرافییاسینین باتی سیندا یایلاق و قیشلاقلاری ایله بؤیوک بیر اراضینی احاطه ائدیر. کاشقایلار/ قاشقایلارین گویا ۱۱-جی عصرده سلجوقلارلا و یا داها سونرا مغول-تاتار یوروشلری زامانی بو اراضییه گلیب یئرلشمه‌لری قدیم تاریخی منبع‌لرده‌کی معلوماتلارلا تکذیب اولونور. کاشقای ائتنونیمینین کؤکو کاشقا اولوب، سونداکی «i» عرب-فارس دیللرینه خاص اضافات شکیل‌چیسی‌دیر و تورک دیللرینده‌کی لی،لی،لو شکیل‌چیلرینین قارشی‌لیغی‌دیر. ائتنونیمین گئرچک ایفاده شک‌لی کاشقا ائلی -دیر .

دیگر بیر کاشکا اولوسو هاتتی/هیتیت دؤورونده - er.q 2،3 نجو مین ایللکلرده آنادولونون خوزئیینده قارا دنیز ساحللری یاخینلیغیندا مسکونلاشمیش تورانلی منشأیه مالیک خالقدیر. بیر چوخ مؤلف لر کاشقایلار/ قاشقایلاری قدیم آدلاری تاریخی منبع‌لرده کاشکا ایله کیمی قئید اولونان بو خالق ایله علاقه لندریرلیر. کاشقولی سوی آدی هیتیت دؤورونون کاشکا-ایله آدیندان یارانا بیلر. آنادولوداکی قدیم کاشکا ائلی ده کاشقایلار/ قاشقایلار کیمی حیواندارلیقلا مشغول اولوب کؤچری طایفالار ایدیلر. بیز

ده ایستر هاتتی/هیتیت دؤورونده‌کی کاشکا ایله، ایسترسه‌ده معاصر کاشقای ائلی آدینداکی کاشقا ائتنونیمینین کؤک اعتباری ایله کاسی/کاس کؤکونه باغلی اولدوغو فیکرینی مدافعه ائدیریک .

م.زهتابیه گؤره،کاشقایلار/ قاشقایلار دیگر تورک لر کیمی تاریخلری ۴۵۰۰ ایل اؤنجه‌یه دایانان سومرلرین واریث لری‌دیرلر. سومرلردن سونرا کاشقایلار/ قاشقایلار دا ایرانین خوزئیینه کؤچموشلر. قاشقایلی آراشدیریجیلارین دا یازدیقلاری کیمی کاشقای ائلی بیر چوخ سوی بیرلییندن تشککول تاپمیش طایفالار کونفئدئراسییاسی‌دیر. کونفئدئراسییا ایلخان تیتولونا مالیک خان طرفیندن یؤنه‌تیرلر. قاشقای ائلی بوتون حاکمیت دؤورلرینده اؤزونو ایداره حقوقونا مالیک اولوب مستقیل سیاست یوروتمک جهدلرینه گؤره داییمن مرکزی حاکمیتین مقاومتی ایله اوزلشمیش و جزالاندیرمالارا معروض قالمیشلار. کاشقایلار/ قاشقایلار کاشقولی (بؤیوک و کیچیک)، شئش بیگلی، درشورلو، فارسیمه‌دان و آمله اولماقلا بئش بؤیوک طایفایا و قاراچایلی،رحمیلی،سفیخانلی،ایغدیر(ایگدیر) اولماقلا دؤرد کیچیک طایفایا بؤلونورلر. بو طایفالارین هر بیری چوخلو تیره‌لردن عبارت‌دیر. خوزیستانین بهبهان قصبه‌سی، همین قصبه‌یه باغلی آغاجاری ناحیه سی، رامهورموزقصبه‌سی  و دزفول قصبه‌سینه باغلی سردشت ناحیه سی تورپاقلاری قدیم قاشقای ویلایتی / قاشقای-یوردا داخیل‌دیر. قاشقای تورک لرینین تقریبن۴.۸۰ فاییزی بو ویلایتین تورپاقلاریندا یاشاییر. قاشقایلارین ایراندا عمومی سایی ۲ میلیون۵۰۰ مین نفردیر. قاشقایلارین حاکم ثلاله‌سی اولان ایلخان آدلی باش‌چیلار طرفیندن ایداره اولونورلار. ثلاله منشأ اعتباری ایله آماله تیره‌سینین شاهیلو قبیله‌سینه منسوبدور. شاه کاسی لرین گونش تانری‌سینین آدی ایدی. شاه-ایله آدینین معناسی تانری شاه دئمک‌دیر. قدیم تورانلی اؤن تورک لرده تئونیملری اؤزلرینه سوی آدی کیمی گؤتورمه عنعنه‌سی واردی کی بو باخیمدان تورک قبیله آدلارینین بیر چوخو تئوفور آدلاردیر .

آماله طایفاسی خالق آراسیندا «قاللازن» تیره‌سی کیمی تانینیر. اونلار ساواشچی تیره‌دیر، بو تیره اؤز کؤکونو اویقور تورک لرینه باغلاییرلار. فیکوروشلریمیزه گؤره قاللازن آدینین کؤکو کاسی لرین ائندونیمی اولان قالزو آدی ایله علاقه دار اولا بیلر .

آمیلو بابیل-کاسی دؤورونده خالقین ائلیت حیسه‌سینی تشکیل ائدن سوسیال طبقه‌نین آدی ایدی. کاشقایلار/ قاشقایلارین ائلیت طبقه‌سینی تشکیل ائدن و ایلخانلارین دا منسوب اولدوقلاری آمیله طایفاسی اؤز آدینی بو قدیم بابیل-کاسی ائلیت طبقه‌سینین آدیندان گؤتوره بیلر. قبیله‌نین ان قدیم تانینمیش لیدری ۱۶-جی عصرده یاشامیش و قاندومان یاخینلیغینداکی درویش آدلی کندده دفن ائدیلمیش امیر قاضی شاهیلو ایدی. اونون قبری زیارتگاه اولدوغوندان، یقین کی، هانسی‌سا بیر مقدس‌لییه مالیک اینسان ایدی. روایته گؤره، او، شیعه‌لیین ایرانین رسمی دینی کیمی برقرار اولماسی اوچون شاه ایسماییلا کؤمک ائتمیشدی. شاهیلو عائله‌سی اؤز منشأینی آتا طرفدن آغ قویونلو حوکمداری اوزون حسنه (۱۴۷۸-۱۴۵۳)،آنا طرفدن ایسه شاه ایسماییل صفوییه (۱۵۲۶-۱۵۰۱) باغلاییر. کاشقایلار/ قاشقایلارین کاشقولی سویونون آدینداکی قولی ترکیبی عیلام و کاسی دیلینده

«بؤیوک» دئمک دیر. قولی عیلام و سومر تانریسی دیر. بئله‌لیکله کاشقولی آدینین معناسی «بؤیوک کاسلار» کیمی ایضاح اولونا بیلر .

فارسیمه‌دان (بلکه بارسئمئدان) سویو : یایلاقلاری آبادی،قومشه، شهریضا، بوروجن، دنا کیمی داغ ائتکی‌لریدیر. قیشلاقلاری ایسه کازرون بؤلگه‌سی‌دیر. فارسیمه‌دانلار،

خوزیستاندان سونرا زاگروسون ان چتین بؤلگه‌لرینده یاشاماقدادیرلار. تورکجه‌لری چوک تمیزدیر. فارسیمه‌دان کاشقای ائلی فورمالاشمادان اؤنجه بو بؤلگه‌ده یاشایان قدیم تورک سویودور. آراشدریجیلارا گؤره، فارسیمه‌دانلار سومر اؤزللیکلری داشیییرلار.(رجب آلبایراق.۲ج .ص.۹۸۸). درشورلو طایفاسی کاشقایلار/ قاشقایلارین ان بؤیوک و نفوذلو طایفالاریندان بیری اولوب قدیم کؤکلره مالیک‌دیر. آشوریبا چاری آسورهاددونون .er.q ۶۷۵-جی ایلده شرق اؤلکه‌لرینه، یعنی زاگرس داغی یایلالاریندا یئرلشن اؤلکه‌لره یوروشونه حصر اولونموش کتیبه‌ده دئییلیر: «من بارناکو اؤلکه‌سینی آیاقلاریمین آلتینا آلدیم، خاین دوشمنلر تیلاشوری ساکاینلرینی و اونلارین مهرانی لر طرفیندن اداره اولونان پیتانی آدلی بؤیوک شهرینی داغیتدیم».(تاریخ کمبریج ایران. ۱۹۶۸، ص. ۱۰۱-۱۰۰). کیتادا همین فصلین مؤلفی دیاکونوو بارناکو اؤلکه‌سینین منبع‌لرده قئید اولونان و عیلامین شمال-قربینده یئرلشن بیت-بوناکی ایله عینیلشدیریر و یازیر کی، تیلاشوری اراضی آدی سیلخازی آدی ایله بیرلیک‌ده بابیللرین قالاسی کیمی ۳-جو تیقلاتپالاسارین کتیبه سینده ده قئید اولونور. تیلاشورینی همدانین قربینده آختارماق لازیم‌دیر. پیتانی ایسه قدیم پادان اؤلکه‌سی‌دیر .

فیکریمیزه گؤره تیلاشوری یئر آدی درشورلو آدینین قدیم فونئتیک شکلی‌دیر. درشورلو .er.q ۷-جی عصرده اولدوغو کیمی بو گون ده همین اراضی‌ده، زاگرس داغلارینین شرقینده یئرلشیر .

درشورلو بؤیوک قاشقای ائلینین ان بؤیوک بئش طایفاسیندان بیری‌دیر و اؤز ترکیبینده ۴۲ تیره‌نی بیرلشدیریر. سیلخازی ایسه بو گون ده درشورلولارین یایلاق اراضی لری و پایتاختلاری اولان شیراز آدینین قدیم فونئتیک شکلی‌دیر .

آشوریبا شاهی آشورپانیپال اؤز آنالیندا عیلام‌دا دور-شارری اؤلکه‌سینی و سونقورساررا تانری‌سینین آدینی چکوروش.(جامئرون.۱۹۳۶.ص.۱۱۸)

آلبانیبا حوکمدار ثلاله‌سی اولان مهرانی لرین تاریخی ادبیات‌دا او جمله‌دن بهمنی منبع‌لرینده ایران منشألی و ساسانی نسلینین بیر قولو اولدوقلاری فیکری تامامیله یالنیشدیر. اونلارین کؤکو کاسی لره دایانماق‌دادیر. کاسیرحوکمدارلاری و او جمله‌دن ۲-جی آقوم کاکریم .er.q) ۱۵۳۰ (اؤزونو دیگر اؤلکه‌لرله یاناشی «کاسینین، آلبانین، پادانین و قوتینین شاهی» آدلاندیریردی. کاسی شاهی قانداشین دیگر اوغلو شاه ۱-جی آقوم .er.q) ۱۷۰۹-۱۷۳۰-جو ایللر (ماهری عنوانی داشیییردی.(وینکلر. ه.۱۸۹۲، ص. ۸۰)

آقومون تیتولو اولان ماهری آدی سومر دیلینده بؤیوک دئمک‌دیر. اونا گؤره ده تاریخچی لر اونو بؤیوک آقوم آدلادیریرلار. کاسی دیلینین تدقیقات‌چیسی آرنائوت فورنت آقوم سؤزونو «باش‌چی، رهبر» کیمی ترجومه ائدیر کی، بو تورک دیلینده‌کی آقام سؤزو ایله ائکویوالئنت تشکیل ائدیر.(آرنائوت فوورنت،وول. ۲№۱.۱۹۷۸، ص. ۶ )

ایران تاریخینین گؤرکه‌ملی آراشدریجی سی آلمان فریدریش ایشپیگئل یازیر کی، مهرانی ثلاله‌سینین ایلکین مسکونلاشدیغی اراضیده یاشایان گوندوزلو تورک طایفاسی افشارلارا عایید اولوب بختیاری لرله بیرلیک‌ده عیلام-سوسیانا دؤورونون یئرلی ۳-جو آوتوختون خالقینی تشکیل ائدیر. (ایسپیگئل ف.۱۸۶۳. ص. ۱۳-۱۲)

کؤکلری اؤن آسییانین قدیم خالقلارینا باغلی اولان آذربایجان حاکم ثلاله‌لرین بیری ده یئکان‌لیلاردی ۸،۹-جی عصرلرده فرات چایینین قربینده،کارکامیش ایله پاتت آراسیندا،کومموخ یاخینلیغیندا معاصر حلب و اطرافینی احاطه ائدن اراضیده یئرلشن پایتاختی آرپاد اولان بیت-آقوسی، یانی آقوس دؤولتینین قوروجوسو خط-اورارتو منشألی یئکانلی قوسی آدلانیردی. یئکانلی آدی گونئی آذربایجانین بو گون ده موجود اولان اوستاجلی سویونا منسوب یئکانلی طایفا آدی ایله بؤیوک بنزرلیک تشکیل ائدیر. مرند و گونئی آذربایجانین دیگر اراضی لرینده مسکونلاشان سوی بیرلییی‌دیر.

آرپاد یقین کی تورانلیلارین قدیم ائپونیمینین آدیندان گؤتورولموش‌دور. آرپاد سونرادان اون اوقور تورک سوی بیرلیینین باشبوقو و مجار دؤولتینین یارادان شاهین آدی ایدی. ب. لندزبرگرکاسی لرده شاه سؤزونون گیاندیز شکلینده ایفاده اولدوغونو یازیر. گوندوزلو آدینی کاسی شاه ثلاله‌سینه عایید ائتمک اولار. آوروپا تاریخچی لری لرستانی اوکسی و کاسی لرین-تورانلی اؤن تورک لرین وطنی حساب ائدیرلر.

لرستان شاهسئون، چاردولو و قاشقای تورک لرینین قدیم یئرلشیم اراضی لریندیر. لرستانا داخیل ائدیلن بختیاری ویلایتینین بیر چوخ شهرلرینده قاشقای، لیرکی، آغاجری تورک لری یاشاییر، بوریجین قصبه‌سی قاشقای تورک لرینین قدیم مسکنی‌دیر . ایرانین بیر چوخ اراضی لرینده مسکونلاشمیش قدیم آغاجری تورک سویو گومان ائدیلدییی کیمی آغاجلا علاقه دار اولوب «مئشه اینسانلاری» آنلامی داشیمیر، فیکریمیزه گؤره آغاجری سؤزو «آق چئری» آدینین تحریف اولونموش شکلی‌دیر و معناسی «سئچکین،یوجه دؤیوش‌چو» قواردییا دئمک‌دیر.

اف شوبرل، بالفوور، ای. مارانسی کیمی آراشدریجیلار بختیاریلر،فه‌لییانلار، ممه‌سنی لر و جنوب ایالت لرینین دیگر ائلات طایفالارینین اؤز منشأیینی ان اوزاق آنتیک دؤورلردن گؤتوردوکلرینی و ایسکندرین زامانیندا عینی بؤلگه‌لرده مسکونلاشان وحشی دؤیوشچولرین نسلین‌دن حساب ائدیرلر. اونلار بو کؤچری حیواندار طایفالاری فارسلاردان کنار بیر منشأیه منسوب اولدوقلاری فیکرینی ایره‌لی سورمکددیرلر. (سوبرل،۱۸۲۸،ص.۱۹،)(بالفور.ای،۱۸۸۵،ص.۱۹۲). ایرانین قرب اراضی لرینده مسکونلاشمیش ماراقلی تاریخه مالیک ان بؤیوک طایفالاریندان بیری ممه سنی ائلی رستم، باکش، جاویدماهوری، پهلوی و

دوشمن زیاری سوی بیرلییی‌دیر.مرکزلری فارس اوستانیندا نوراباد شهرینده یئرلشن ممه سنی/ ماماساقانلاری لورلارلا باغلاسالار دا یئرلشیم یئرلرینین تاریخن تورک لره مخصوص اولدوغونو بیر چوخ آراشدریجیلار قئید ائدیرلر. ممه‌سنلی لرین بیر چوخو اؤزلرینی منشأ باخیمیندان تورک حساب ائدیرلر. ماراقلی فاکت اوندان عبارت‌دیر کی،گورجو چاری پارناوازین دا منسوب اولدوغو قدیم حاکمیت ثلاله‌سی اولان ماماساقانلار دا تورانلی ساکا طایفالارینا منسوب اولوب زاگرس-آنادولو طرف‌دن گلدیکلری حاققیندا فیکوروشلر موجوددور.

ممه سنی لرین ان بؤیوک و نفوذلو اولان باکئش سویو اسه تامامیله تورک‌دور. اؤن تورک خالقلاریندان اولان قوتیلرین er.q.XIII مینیللیین سونلاریناکی شاهلاریندان بیری اینوما-باکئش تیتولو داشیییردی.باکئش سویونون کارای، آلوند، برابر سالار، قاجار کیمی تیره‌لری تامامیله تورک آدلاری داشیییر. فیکریمیزه گؤره باکئش آدی کاسی لرین بوقاش/باقا تانری آدلاری ایله علاقه داردیر. تررپین. د. لاکووپئری و اف. هومل "بک" لری کاسی لرین ان بؤیوک سوی بیرلییی حساب ائدیرلر. اونون فیکرینجه بکتیاری، باکتریا، باغئستان،باغدات،باکتان کیمی آدلار بک طایفاسینین آدی ایله باغلی‌دیر.(تررپین.د. لاجوپئری.۱۸۹۴،ص.۳۲۶.) . آشوریانین داغیدیجی هجوملاری نتیجه‌سینده بک سوی بیرلیینین ۱۰۰ قبیله‌سی عیلام و زاگرس داغلاری یایلالاریناکی اؤز یوردلارینی ترک ائدرک شرقه دوغرو حرکت ائدرک چین سرحدلری یاخینلیغیندا و دیگر اراضی لرده مسکونلاشمیشلار. آنتیک مؤلف لر آریان و کورتی روفوسمقدونیه لی ایسکندرین بهمنی شاهی ۳-جو دره‌نی تعقیب ائدرکن زاگرس داغلاری اراضی سینده دؤیوشکن ممه سنی طایفاسی ایله مباریزه آپاردیغینی یازیرلار.(کوینت کورتی روفوس. باند.۲..۲۰۰۷). ممه سنی لرله قونشولوقدا تورک قورد-شولی اولوسو یاشاییر. ایران آدلی جغرافییادا ان گئنیش یاییلمیش سویلاردان بیری خلج ائلی‌دیر.مرکزی اوستاندا بؤیوک بیر ائل اولان خلج لرین بیر قولو آذربایجانا و آنادولویا باغلی اولموش، دیگر قولو ایسه اورتا فارس‌دا، احتمال کی، سلجوقی لر زامانیندا خلجستان آدلانان اراضیده مسکونلاشمیشلار. قاشقای لار و خلج لر آراسیندا بیر زامانلار سیخ علاقه موجود اولموشدور. بیر سیرا مؤلف لر داها ایره لی گئده‌رک قاشقایلاری خلج قبیله‌سینین بیر قولو حساب ائدیرلر. فارسی شناسلار ادعا ائدیر کی، اونلار خلج منشألیدیرلر و ایرانین جنوبونا کؤچمزدن اول طهرانین جنوب-قربینده یئرلشن خلجیستاندا مسکونلاشیبلار. هندوستان و عرب مسلمان مؤلف لرینین اثرلرینده خلج آدینی قدیم ایفاده طرزینه اویغون اولاراق کهالجی فورماسیندا یازیرلار. خلج آدینین خالق ائتیمولوگیاسی ایله قال-آچ کیمی ایضاحی تاریخی گئرچک‌لییی عکس ائتدیری. بیز خلج ائلی آدینین کاسی لرین قالزو آدیندان یاراندیغی فیکرینده‌ییک. تورک لرین دؤولت-اولوس-خالق آنلامیندا ایستیفاده ائتدیکلری ائل تئرمینین کؤکو سومر-آکدی لارین ایل/ائلو سؤزونه باغلی اولوب اونون معاصر ایفاده شکلی‌دیر. بوتون بو تاریخی ائتنولوژی دلیل لر ثبوت ائدیر کی،کاشقای ائلی و خلج/کالاچ ائلینین ائتنیک منشأیی عمومی کاش/کاس –

کال‌دی/قالزو ائتنیک کؤکونه باغلی اولوب اؤن آسییانین کاسی آدلانان قدیم اؤن تورک ائتنوسو ایله علاقه داردیر. کاسی لرین ائدنونیم-اؤزادلانمالاری قالزو شکلینده ایدی.

آ. قوردلفسکیه گؤره اوغوزلاردان خئیلک اول کیچیک آسییانین تورکلشمه‌سی باشلاندی. کالاچ، کارلوک، کانقلی کیمی تورک طایفالاری اوغوزلاردان خئیلک اول، بیزیم عصرین ۱-جی مین ایللیین اول لریندن کیچیک آسییایا و یاخین بؤلگه‌لره گله‌رک یئرلشمیش و «اؤلکه‌نین یئرلی اهالی‌سینه چئوریلمیشلر (Гордлевский.«آ،۱۹۴۱. ص..۲۲)

۵-جی عصر بهمنی تاریخچی‌سی لازار پاپت‌سینین وئردیی معلوماتا گؤره ۴۸۲-جی ایلده بهمنی اوردوسونون ایسپاراپئتی مامیکونیان و گورجو چاری واختانق قورقوسالین قوشونلاری سرکرده مهرانین باشچی‌لیغی ایله جنوبی قافقازا سوخولموش ساسانی اوردوسو ایله بهمنیستان و گورجوستانین سرحددینده کور چایینین وادی‌سینده کنگر داغیندا یئرلشن کنگرلرین اؤلکه‌سینده قارشیلاش‌دیلار. باشقا سوریيه لی تاریخچی مار آبا دا خسرووون کنگرلرله دؤیوشدویو حاققیندا یازیر. بهمنی تاریخچی‌سی خورئنلی موسا ساسانی لرین ساواشدیغی کنگر اؤلکه‌سینین گؤیچه گؤلونون شمالیندا گورجوستان و بهمنیستان سرحددینده یئرلشدیینی یازیر .( Кляшторный С.Г.۲۰۰۳،ص.۲۲۵)

همدان شهرینین یاخینلیغینداکی کنگاور شهرینین آدی کنگر سویونا باغلیدیر. ۱-جی عصر یونان تاریخچی‌سی خاراکس‌لی ایسیدور اصلن خوزستاندان اولان کنگاورین مادیا شهری اولدوغونو یازیر و اوردا آرتئمی‌دانین معبدی حاققیندا بحث ائدیر. کنگاورده بو گون ده عظمت‌لی تاریخی معبدلرین قالیقلاری موجوددور.کنقر/کیئنقیر سومر دؤولتینین آدی ایدی. ان قدیم تورانلی تورک سویلاریندان بیری، کؤکو سومرلره باغلی اولان کنگرلر کئچمیشده اولدوغو کیمی بو گونده ازلی اؤن تورک اراضی لری اولان خوزئی آذربایجاندا، ناخجیواندا، قاراباغدا،گونئی‌ده اسه قوم‌دا،آراز چایی ساحلی سویوندا، طهراندا یاشاماقدادیرلار.

تاریخی ادبیات‌دا ایران منشألی سؤزلر کیمی ایضاح ائدیلن تورک حوکمدارلارینین پادشاه عنوانی سومرده حاکمیت تیتولو اولان پاتئسی آدینین تحریف اولونموش شکلی‌دیر. دیگر حاکمیت تیتولو اولان شاه اسه کاسی لرین حاکمیت تیتولو کیمی ده ایستیفاده اولونان گونش تانری‌سی شاه آدی ایله باغلی‌دیر. تورک لری ایران اراضی‌سینه گلمه، اؤزلرینی ایسه آوتوکستون حساب ائدن پان ایرانیست لرین ادعالاری تاریخی منبع‌لرده عکس اولونان دلیل لرله تکذیب اولونماق‌دادیر. فارس ائتنونیمینین گئرچک ائتیمولوگییاسی دا اونون ایران-آریان منشألی اولدوغونو دا شوبهه آلتینا آلماق‌دادیر.

ایران و اؤن آسییانین قدیم تاریخی اوزره بؤیوک مقام حساب اولونان آی.دیاکونوو ایران دیللی طایفالارین ایرانین قربینه ۱-جی مینیللیین اوللرینده گلمه‌سی حاققیندا اؤزونون ده اوللر طرفداری اولدوغو و رسمن قبول اولونموش گؤروشلرین هئچ بیر پوزیتیو دلیل لره اساسلانمادیغینی یازیر. یازیلی منبع‌لرده ایلک فارس حاکمیت ثلاله‌سی حساب اولونان اولن بهمنیلرین ای.ا. ۷-جی

عصرین اوللرینده یاشادیقلاری تثبیت اولوندوغوندان بو تاریخ سؤزسوز شکیل‌ده ایران دیللی خالقلارین اؤن آسییایا گلیشلری تاریخی کیمی قبول اولونماق‌دادیر. (Дьяконов И.М،۱۹۷۱،ص.۱۲۸)

لاکینیولا دوشمه لرینین ائتنیک منشأ باخیمیندان ایران-آریانلارا منسوب اولمالاری مسئله‌سینین اؤزو بئله تاریخچی لر آراسیندا معین مباحیثه‌لره سبب اولموشدور. اونلار پرس ایمپئرییاسینین ۱-جی دؤوره یه قه درکی قدیم دؤورونون یولا دوشمه سینه عایید ائدیلمه‌سینی دوزگون حساب ائتمیرلر.

کوروشلا باغلی اونو وورغولاماق لازیم‌دیر کی، کوروشون ایرانین اؤزوندن هئچ بیر شاه کتیبه سینه راست گلینمیر. کوروش آدینا یازیلمیش پاسارگاد یازیلاری اصلینده دؤوردننین لئگیتیملیینی گوجله‌ن‌دیرمک اوچون ۱-جی دؤوردن طرفین‌دن سیفاریش ائدیلمیش‌دیر. بهمنی لر آنزانیت تورک لری ایدیلر. اونلاردا تورکجه اولان اوکوس (II دؤوردن(، کودامان (III دؤوردن (آدلاری واردی. کسرکین سرکرده‌لریندن بیرینین آدی آریامان ایدی. شرق‌دن گلن ایران طایفالاری ایلک اؤنجه اورمییه گؤلونون گونئیینده مادیا و بارسوا اراضی سینده مسکونلاشمیشلار. اونلارین تاریخ‌ده‌کی موجودلوغو آشور سالنامه‌لرینده انشان و پارسوماشلا علاقه دار چکیلیر. آلماناآشورولوقو اف. هومل بارسوا-پارس مسئله‌سینه آیدین‌لیق گتیره‌رک یازیر: «مادیانین اورمییادان آشاغی ویلایتی اولن پارسوا آدی آشور متن لرینده بارسوا کیمی یازیلمیش‌دیر. بهمنی لرین ایلکین اولاراق حاکمیتی اله کئچیردیکلری مادیانین بارسوا ایالتینده یئرلی اهالی ، یانی تورانلی ایدیلر. بهمنی لر بو آدی عیلام‌دان آشاغی اراضینی ایشغال ائدندن سونرا اورا داشیدیلار. بو ایران خالقینین باکتریادان مادیایا و اوردان دا پارسوایا کؤچلری حاققینداکی تاریخی بلگه‌لره ده اویغودور. بو زند اوستا عنعنه‌سیندن ده آیدین گؤروندویو کیمی پارسوا ایله پرسیانین ائتنیک منشأ باخیمیندان بیر-بیری ایله هئچ بیر علاقه‌سی موجود دئییل، بو ساده‌جه سؤزلرین تصادفی بنزرلییندن عبارت‌دیر. بهمنی لر عیلامین جنوبوندا اله کئچیردیکلری مرکزدن کنار تهلوکه‌سیز اراضی‌ده پارسی شهرینی سالمیش‌دیلار. ایران یایلاسینداکی مادیا دؤولتینی اؤزلش‌دیره‌رک بؤیوک بیر ایمپئرییایا چئویره‌ن دؤوردن بو شهری عظمت‌لی بینا و سارایلارلا زنگینلشدیردی. بو ایالت شهرین آدینا اویغون اولاراق پرسیا شهری-پارسارگاد آدلاندیریلمیش‌دیر». (هومل.ف.۱۸۸۹.ص. ۸۹)

اول کی فاتیح لرین عنعنه‌سینه اویغون اولاراق کوروش یئنی بیر پایتاخت قوردو. پاسارگاد آدلانان شهرین عیلامجا گئرچک آدی کاسیل ره عایید اولوب باکراتاتاش ایدی. قدیم دؤورون دیگر بؤیوک تاریخ‌چی‌سی آ. بیللربئکه گؤره بارسوادان گونئیه دوغرو حرکت ائدن آری طایفاسی اولان پارس لار ایندیکی شیراز ویلایتی و نیریس داغلارینی احاطه ائدن فارس ایالتینده مسکونلاشمیش‌دیلار و تدریجن اؤز تورپاقلارینی بلوچیستانا قه در گئنیشلندیرمیش‌دیلر. اونلارین قونشولوغونداکی آذربایجان و آردیلاندا قدیملردن اعتباران کاسی لر مسکونلاشمیش‌دیلار. پارس لارین بهمنی عائله‌سینه منسوب کنیازلاری چیسپیس ایدی. او مادیا شاهی کیاکسارین نینوییایا یوروشونه قاتیلاراق اونا دستک وئرمیش‌دی. او انشان کنیازینین واریث قیزی ایله ائولنمیش‌دی

و بو سببدن ده اؤن‌ملی بیر اراضی اولان انشانی اله کئچیره‌رک اؤز اوغلو کوروش ایداره‌سینه وئرمیشدی. اونوایسه حاکمیت‌ده اوغلو کامبیز اوز ائتمیش‌دی. کامبیزدن سونرا پرس دؤولتینین قوروجوسو اولان اوغلو بؤیوک کوروش انشان شاهی اولموش‌دو. (بیللئربئجک آ.۱۸۹۳،ص.۵۰)

آمریکا تاریخچی‌سی ماتت واترس، کامبیز و اونون اوغلو ۲-جی کوروش فارس اولمادیقلارینی، اصلن عیلام‌لی اولدوقلاری فیکرینی مدافعه ائدیر. او کوروش/کیر آدینین عیلام دیلینده اولدوغونو و معناسینین «قایغی کئش، دیققت گؤستره‌ن» آنلامی داشیدیغینی یازیر.

حیکمت بایورا گؤره کوروش بیر انشان‌لی اولدوغو منبع‌لرده گؤستریلمیش‌دیر و اونون ایران و یا آریالارلا هر هانسی بیر علاقه‌سی حاقیندا اوردا بیر بیلگی یوخدور. ایران و ایرانلی آدی یالنیز ۱-جی دؤوردن سونرا میدانا چیخمیش‌دیر. کوروش اصل آدی آغرادات اولموشدور. (یوسیف حیکمت بایور.۱۹۳۰ .ص. ۳۷۱)

موجود اولان بیر فرضییه‌یه گؤره بارسوانین گولو قبیلریندن اولن آرتتالی آکامئنیش ثلاله‌سی آشورلارین بؤلگه‌یه آرام‌سیز داغیدیجی باسقینلاریندان قورونماق اوچون بوردا مسکونلاشمیش و اؤزلرینه تابع ائتدیکلری ایرانلی طایفالارلا بیرلیک‌ده جنوبا حرکت ائدرک فارس آدلانان اراضیلری اله کئچیرمیشلر.بهمنی لرین آدلاری‌داکی تورکجه آرتا آدینین (آرتابان،آرتاکسئرس) موجودلوغو دا بو فرضییه‌نی دوغرولاییر .

اؤزلرینی آری/آرییانا آدلاندیران ایران دیللی طایفالار اؤنجه اورمییه گؤلو طرفده یاشادیقلاری آشورییانین پارسوا ایالتینین آدینی اؤزلرینه ائتنیک کیم‌لیک اولاراق قبول ائتمیش و بو آدی پارسا شکلینده یئنی وطن لرینه شامیل ائتمیشلر. بو آد سونرادان عرب دیلینده فارس آدی ایله اوز اولونموش‌دور. پارسا و پارسوا آدلاری یقین کی، عینی سؤزون مختلیف واریانت لاری‌دیر و آراشدیریجیلار بو سؤزون ایران دیلینده اولدوغونا شوبهه ایله یاناشیرلار. آلمان عالیمی ای. هرتسفلد پارسوانی آشور سؤزو حساب ائدیر و معناسینین «کنار اؤلکه»، «دیار» اولدوغونو بیلدیریر Фрай).پ، ۲۰۰۲.ص.۱۰۲ .(ایندییه قه در معلوم اولان ایکی یوزدن چوخ قدیم ایران کیتیبه یازیلاریندان یالنیز :

۱-جی دؤوردن تخمینن ائ.ا. ۵۱۹-جو ایلده قدیم فارس، عیلام و آکدی دیلینده ترتیب اولونان مشهور بیستون قایا کتیبه‌سی اصل تاریخی موبد کاراکتئری داشییر. بیستون کتیبه‌سینین عیلام و آکدی متن لرینده بهمن آدی چکیلمیر، کوروش و کامبیز اؤزلرینی یالنیز چیشپیشین واریث لری حساب ائدیرلر. پرسوپولدان الده ائدیلن و ۲-جی کوروشه عایید ائدیلن ۹۳ نؤمره‌لی دایروی مؤهورده و کامبیزه عایید یازیلاردا چیشپیشین اوغلو کوروش اونون اوغلو کامبیز و اونون اوغلو کوروش انشان حوکمدارلاری کیمی قئید اولوناراق

بهمنین آدی چکیلمیر. یالنیز پاسارگارد کتیبه سینده کوروش بهمنه عایید

اولدوغو بیلدیریلیر کی، او سونرادان دا یازیلمیش اولا بیلر.(Ибрагимова К.А.Т.Вып.۵،۱ч.۲، ۲۰۱۴)

کوروش مادیا حاکمیتینی خیانتله اله کئچیردیی کیمی ساسانی اردشیر ده پارف آرشاکید و مهرانی لره خیانتله حاکمیتی اله کئچیره‌ن بیر اوزورپاتور ایدی. قربین گؤرکه‌ملی ایرانیست تاریخچی لری ماکوارد، نولدکی و هرتسفلدین رایینه گؤره پارسیا تاریخینین موهوم قیسمی ساختالاشدریلاراق شاهنامه‌ده کیانی لرین تاریخی شکلینده قله‌مه وئریلمیش‌دیر. تورک لری مختلیف آدلارلا تحقیر ائدن پان ایرانیست لر بیلملیدیرلر کی،هند-آرین لرین آریا آدی فین-اوقور دیلینده «قول» آنلامینداکی اوریا سؤزوندن یارانمیش‌دیر .

آمریکالی تدقیقات‌چیلار ای. بریانت و ال. پاتتونوم دا قئید ائتدیکلری کیمی er.q. ۱۵۰۰-جو ایللرده شرقی آوروپاداکی هند-آوروپا کوتله‌سینین بیر قولونو تشکیل ائدن هند-آرین لر خزر دنیزینین خوزئیین‌دن شرقه دوغرو اورال اوزریندن حرکت ائدرکن بوردا فین-اوقورلارلا اوزون زامان کونتاکت‌دا اولموشلار. فین-اوقورلار اورال داغلاری طرفده هند-آرین لرین یوللارینی کسمیش و اسارت آلتینا آلاراق اوزون مدت بو رئگیوندا مسکونلاشماغا مجبور ائدرک اونلاردان قول کیمی ایسیفاده ائتمیشلر.(بریانت ادوین آند لاورا پاتتون.۲۰۰۵، ص.۲۷۱)

م. موللر بارون بونسئنی یازدیغی مکتوب‌دا قدیم سانسکریت دیلینده آر کؤکوندن آریا سؤزونون یاراندیغینی و معناسینین اوچونجو کاستایا، یعنی حقوق‌سوز، کؤله کاتئگوریاسینا منسوب اینسانلارا وئریلن «آریا»، یعنی قارا جامات، آشاغی طبقه‌یه منسوب کیشی و یا آدام دئمک اولدوغونو یازیر. گویا سونرادان بو سؤز آریا شکلینده شرف‌لی، تورپاغین صاحبی، آغاسی آنلامی داشیمیش‌دیر.(ماخ موللر.۱۸۵۴، ص. ۲۱)

قدیم اوغوزلار فارسلاری «سوقاق» آدلان‌دیریردیلار،قدیم تورک دیلی لوغتینده بو سؤزون معناسی آج گؤز،گؤزودویماز،پاخیل، خبیس دئمک‌دیر.( Древнетюркский Словарь. Л. ۱۹۶۹. ص.۵۰۸)

آذربایجانین ان قدیم دؤوورلردن تورک لرین وطنی اولدوغو تاریخی منبع‌لرده ده،عکس اولونموش‌دور.ایسلام دؤورونون مشهور تاریخچی لرین‌دن اولان ابن اثیر «الکامل فی تاریخ» آدلی اثرینده موسا پیغمبرین دؤوروندن بحث ائدرکن یازیر: «فارس پادشاهی منوچهرین دؤورونده یمن پادشاهی اؤز سرکرده‌سی شمر بن آتتافی اورا گؤندردی. آذربایجانا گیریب تورک لرله ووروشدو. نهایت، تورک لر مغلوب اولدولار و شمر بن آتتاف اوردوسونون گئتدیی یولو آذربایجاندا مشهور اولان ایکی داشین اوزرینه یازدی.» گؤروندویو کیمی، هز. موسانین دؤورونده، یعنی ائرامیزدان اول ۱۳-جو عصرده، اوندان سونرا ایسه، یعنی ماننا-مئد دؤورونده بوگونکو آذربایجاندا تورک لر یاشامیش، حؤکمران‌لیق ائتمیش، سیویلیزاسییا یاراتمیشلار .

شوبهه‌سیز بوردا تورک آدی ایله ابن اثیر آذربایجانین اورمییه گؤلونون حوزه‌سینده زنجانا قه در اولان اراضیده موجود اولموش و یوز ایللر عرضینده آشورییا و بابیله قارشی مباریزه آپارمیش توروککولاری نظرده توتور. سون تدقیقاتلارلا توروککو آدینین گئرچک اوخونوشونون توروک اولدوغو معین ائدیلمیش‌دیر .

تاریخی ادبیات‌دا افسانوی منوچهر آکدی شاهی مانوشتوسو ایله ائینیلشدریلیر. توروکلارین آدی آشور میخی یازی لوحه‌لرینده ایلک دفعه شاه ۱-جی شم‌سی آدادین (ائ.ا.۱۷۸۲-۱۸۱۳) دؤورونده و سونونجو دفعه یئنه آشور شاهی ۱-جی آداد-نیرارینین (er.q.۱۳۰۷-۱۲۷۴) دؤورونده چکیلیر .

عالیم لرین اکثریتی موسا پیغمبرین e.q.XIII عصرده (.۱۳۹۱–۱۲۷۱) یاشادیغی احتیمالینی ایره لی سورورلر. بو توروکلارین موجود اولدوغو تاریخی دؤوره اویغون گلیر. توروککولار بورونج و دمیر دؤورودن اعتبارن بین النهرینده و اؤن آسییانین زاگرس داغلاری یایلالاریندا یاشامیش قدیم تورانلی ائتنوس‌دور. توروککو اؤلکه‌سی زاگرس داغلارینین شیمال-قرب وادیلرینده اورمییه گؤلو حوزه‌سینده یئرلشیردی. او بیر چوخ بیگ‌لیک دؤولتین بیرلیییندن یارانمیش کونفئدوردنتیو کاراکتئره مالیک ایدی. اونون آرتتا دؤولتی اراضی سینده یئرلشدیینی اهالی‌سینین منشأ اعتباری ایله سوبار/سابیرله، حوریله، قوتی لره، مانالارا منسوب حساب ائدیرلر. توروککولارین تورکلویو حاققیندا ایلک دفعه قطعی فیگوروش بیلدیرن آلمان آشورولوقو

فریتس هومل اولموشدور. ۱۸۸۰-جی ایللرین اورتالاریندا یازدیغی اثرده او بو حاقدا دئییردی: «توروکیلر خزر دنیزی طرف‌دن گله‌رک مادیا داغلاریندا یئرلشن کؤچری تورک طایفالاری کیمی قبول ائتمک اولار. بئله‌لیکله، تورک آدینین قدیم فورماسی تورروک‌دور. بیزانس مؤلف لری ده بونو تورکخوی شکلینده یازیرلار. تورک طایفالاری ایله چوخ یاخین قوهوم اولان سومرلر ده مادیا داغلاری اوزریندن ایکی چای آراسینا بابیله گلمیشلر». ۳۸(هومل ف. بایل و آشور تاریخینده. برلین،۱۸۸۵، ص. ۵۰۱)

توروککو شاهلاریندان بیرینین آدی پیشئندان ایدی اونون اوغلو ایسه تی بیتی آدلانیردی. بو آد

ایسکیت لرین شاهی تابیتی ایله بؤیوک بنزرلییه مالیک‌دیر. (کریستیان کیسج. ۲۰۱۱، ص.۱۶۸)

پیشئندان آدی توران پادشاهی افراسیابین آتاسی پئشنگین آدی ایله بنزرلیک تشکیل ائتمک‌ده‌دیر. آشورییا حوکمدارلارینین توروککولارلا مباریزه‌سی اوزون ایللر عرضینده داوام ائتمیش و اونلاری تام شکیلده اطاعت آلتینا آلماق مومکون اولمامیش‌دیر. تورک،توکریش و قوتی لر اؤز یوردلارینی ترک ائدرک شرق اراضی لرینده مسکونلاشمیشلار.

معاصر آراشدریجی جی. استوکئس قوتی لرین آذربایجان تورک لری اولدوغونو و ائر.ق۱ مین ایللک‌ده بو «آذری قوتی» قبیله‌سینین بابیل ایمپئریاسینین آکدی حوکمدارلارینی مغلوب ائتدیینی یازیر. اونلار تقریبن یوز ایل عرضینده آکدی اراضی لرینده آغالیق ائتدیلر و حاکمیتلرینی دجله چایی ساحللریندن ایران یایلاسینا قه‌درکی اراضی لره گئنیشلندیردیلر er.q.VI . عصرده آذربایجان اراضی لری بیر چوخ قبیله طرفین‌دن ایشغالا معروض قال‌دی. (ایستوکئس ژ. ۲۰۰۹ ص. ۷۹)

اورمو گؤلونون اطراف اراضی لری تورک لرین تاریخینده اؤنملی رول اوینامیش،بیر چوخ تورک خالقلاری بو اراضی‌ده‌کی سوی بیرلیکلریندن تشککول تاپمیشلار. اورموآدی بو گؤلون اطرافیندا مسکونلاشمیش تورانلی اوروم خالقینین آدیندان یارانمیش‌دیر. اوروملار سومرین اور شهری اهالی‌سی ایله علاقه لندریلیر. س. کرامئر سومرین اور شهرینین آدینین سومر میخی متن لرینده اوریم شکلینده یازیلدیغینی قئید ائتمیش‌دیر.

تاریخی قایناقلارا گؤره هر بیر سومر شهری اوردا مسکونلاشمیش طایفانین آدینی داشیییردی. سومری ترک ائدیب بین النهرینین خوزیی، زاگرس داغلاری و اورمو گؤلونون اطرافینداکی اراضی لره کؤچن اور اهالی‌سی بوردا اوروم خالقینی میدانا گتیرمیش و اورارتو دؤولتینین اساس قوروجو سویلاریندان بیرینی تشکیل ائتمیشلر. اورمو آدی دا احتیمالا گؤره بو سویون آدی ایله علاقه دار اولوب «اور اینسانلارینین اؤلکه‌سی» دئمکدیر. اورمو دؤولتینین آدی «اوغوز خاقان» داستانیندا دا کئچمک‌ده‌دیر و ساکا-کیملی لرین بو اراضییه یوروشلرینی اؤزونده عکس ائتدریر. اوغوز خاقان اوروم دؤولتی و اونون خاقانی اوروس خاقانا قارشی دا مباریزه آپاریب اونو اؤزونه تابع ائدرک خراجا باغلاییر. اوغوز داستانینداکی اوروس خاقان اورارتو شاهی روسانین پروتوتیپی‌دیر. اوغوز خاقانین اؤن آسییایا یوروشو ساکا-کیملی لرین کیچیک آسیا و بین النهرین یوروشلری ایله عینی دؤوره، اورارتودا اوروم شاهی روسانین حاکمیتی دؤورونه اویغون گلیر. اوروملار تورک تاریخین‌دن ایزسیز قئیب اولمامیشلار. عرب سییاحی ابن باتتوتا ایران سیاحتی زامانی، ایرانین بیر چوخ اؤنملی شهرلرینده اولموش و بو یئرلره یئزدوهاس‌تان چیخیب داها چوخ تورک لرین یاشادیغی دشت-ائی روم آدلی یئردئن کئچدیینی یازیر ، اونون بحث ائتدیی دشتی روم «اوروم چؤلو» آنلامیندادیر.

ز.و.توقانین دا قئید ائتدیی کیمی تورکییه اراضی سینده یاشایان ائی میرلر، آذربایجانین هر ایکی حیسه‌سینین گئنیش اراضی لرینده و اورمو گؤلو اطرافیندا یاشایان آیروملار اوروملارین تؤره‌مه‌لری‌دیر. اورمولارین دیگر قولو مسیحی-پرووااسلاو دینینه اعتیقاد ائدن و واختیله اؤز تاریخی وطن لری آنادولو اراضی‌سی‌دن کؤچوب کریمادا، گورجوستاندا و قارا دنیزین دیگر اطراف اراضی لرینده یاشایان و دیللری تمیز تورکجه اولان اوروم آدلی قدیم خالقدان عبارت دیر. اورمولار اؤزلرینین قره ک لرله علاقه لندریلمه‌لرینه قطعی اعتراض ائدیرلر. تاریخی ادبیات‌دا ایران-آریان اراضی لری کیمی قله‌مه وئریلن گرگان و مازندران ایران طایفالاری بو اراضییه گلمه‌دن اؤنجه تورانلی اؤن تورک طایفالارین یاشادیغی ازلی یوردلاری اولوب «قوردلارین اؤلکه‌سی» آدلانیردی .

بیرینجی نسخه یه گؤره آوروپاداکی بالکان اراضی‌سیندن حرکت ائدن هند-ایران طایفالاری قافقاز داغلاری اوزریندن گونئیه دوغرو حرکت ائدرک خزرین گونئیینده‌کی مازاندران-هیرکانییا اوزریندن شرقه دوغرو ایره‌لیلمیشلر .er.q.۱۵۰۰-۱۷۰۰-جی ایللرده بوردا اونلارین قارشی‌سینی تورانلی اؤن تورک لر کسمیش و ایکی ازلی دوشمن آراسیندا ایلک قارشی‌دورما دا محض بوردا باش وئرمیش‌دیر. بو قارشی‌دورما ریکودا،اوستادا، شاهنامه‌ده، طبری و مسعودینین ده اثرلرینده اؤز عکسینی تاپمیش‌دیر.(علی عسگر سیالی.۲۰۲۲)

مازندران آدی «مرزی-توران» آدینین تحریف اولونموش شکلی‌دیر.مرزی-تورانین، یانی توران سرحددینین معین اولونماسی حادثه‌سی ائنونیم «مجمل التواریخ» اثرینده و طبری تاریخینده اؤز عکسینی تاپمیش‌دیر. یازیلدیغینا گؤره توران خاقانی افراسیابلا منوچهر آراسیندا ساواش طبریستاندا-هیرکانیبادا باش وئرمیش‌دیر. منوچهر افراسیابین تعقیبین‌دن خلاص اولماق اوچون آمل قالاسینا سیغینیر. افراسیاب اون ایل آمل شهرینی محاصیرده ساخلاییر. لاکین میدانا چیخان چتین‌لیکلر و عسگرلرین خسته‌لیکلره دوچار اولماسی اوزون‌دن منوچهره باریش تکلیف ائدیر. هر ایکی حوکمدار راضی لیغا گلیرلر کی، اوخ آتماقلا ایکی اؤلکه آراسیندا یئنی سرحد معین اولونسون. بو مقصدله آرش آدلی طبریستان‌لی ماهیر بیر اوخ آتان دماوند داغینا چیخاراق تورکیستان طرفه بیر اوخ آتیر و اوخ سرخس و مرو آراسینداکی مرزی‌دورانا (مرزی توران) دوشور و بلخ چایی ایران و توران آراسیندا سرحد کیمی معین ائدیلیر. افراسیاب ایشین بئله سونوجلانماسیندان مایوس اولور، چونکی پوشک نتیجه‌سینده فتح ائتدیی بؤیوک بیر اراضی منوچهره قالمیشدی. لاکین آند ایچیب باریشی ایمضالادیغی اوچون چاره‌سیز قالیب راضیلاشمایا ریا ائدیر .(تابئری،جI.،۲۰۰۷، ص. ۳۲۸-۳۲۷)

اوخچو آرشین آدی بیر ائتنونیمی ده اؤزونده عکس ائتدیره بیلر. آرش ان قدیم تورک سویلاریندان اولان آفشارلارین اساس تیره‌لریندن بیرینین آدی‌دیر. هندوستان وادیه لرینی آراش‌دیران آلمان بیلیم آدامی هرمان برون هوفر هیرکانییانین هندلی لرین توراوشا آدلاندیردیغی تورک لرین وطنی اولدوغونو و هیرکانییا وهیرکانا سؤزونون معناسینین «قوردلار اؤلکه‌سی» دئمک اولدوغونو یازیر. او، شاهنامه‌ده بحث اولونان مازندران شاهی اولادین اصلینده هیرکانییا شاهی اولانا اولدوغونو «اولا»نین قدیم ریکودا دیلینده قورد کیمی ایضاح ائدیر.(برون هوئر هرمانن. ۱۸۹۳، ص. ۳۲)

طبری تاریخینده و دیگر تاریخی منبع‌لرده قئید اولوندوغو کیمی افراسیابین پایتاختی اولجه بلخ شهری اولموش، منوچهرله راضیلاشمادان سونرا پایتاخت آمودریانین خوزیینه، ایندیکی سمرقند اطرافینا، یعنی اونون آدینی داشییان افراسیاب شهرینه کؤچورولموشدور. بلخ چایی ایران و توران آراسیندا سرحددی تشکیل ائتمیش‌دیر. وهیرکان-قورقان عینی ایکی دیالئکت فرقی‌دیر آدین گئرچک ایفاده شکلی قوری-قان شکلینده دیر. بوردا کوری قدیم تورک دیلینده قورد آنلامی داشییر. آلمان آراشدیرجی هاوسسیگیه گؤره چینجه هون دؤولتینین آدی اولان هیونگ-نو آدینی اونون ایلک ترکیبی اولان کورو- "کورت" آدیندان و اوک- "شاه" سؤزوندن یارانان بیر آلتای دیلینده کلمه کومبیناسیاسی اولاراق قبول ائتمک مومکوندور). هاوسسیگ H.W.CAJ ۲ ،۱۹۵۶،ساه.۲۲-۲۱ .(هرمان وامبری فارس دیلینده‌کی قورد آنلامیندا قورق سؤزونون قربی تورک لهجه‌لرینده‌کی «قورت» سؤزو ایله علاقه دار اولدوغونو یازیر Wambery).ه.۱۸۷۹، ساه.۲۰۲ .(و.بارتولد، بیرونی و آففینین اثرلرینین بیر چوخ عالی یازما نسخه‌لرینده کون (هون) آدی یئرینه فوری سؤزونون ایشلندیینی یازیر.مسلمان جغرافیاچیلارینین اثرلرینده قیرغیزلارین دوغوسوندا یاشایان فوری اولوسونون و بؤلگه‌نین گئرچک آدینین اصلینده کوری اولدوغونو و بوری-قورد سؤزونون فونئتیک شکلی

اولدوغونو یازیر. تاریخی ادبیات‌دا بو قیرغیزلار فوری قیرغیزلار آدلانیرV.Bartold).،۱۹۷۵، ص. ۱۵۶-۱۵۵. سومرولوقلار B.Landsberqer و عثمان N.Tuna سومر دیلینده بار-باررو سؤزونون قورد دئمک اولدوغونو یازیرلار و بو سؤز اؤن تورک سومرلردن اونلارین تاریخی واریث لری اولان تورک لره بؤرو فورماسیندا میراث قالمیش‌دیر .

واریث‌لیک عنعنه‌لرینه اویغون اولاراق اؤن تورک لرین تاریخن مسکونلاشمیش اولدوقلاری اراضیلرده بو گون ده یاشایان تورک لرده «قورد» آدلی سویلار موجوددور. واختی ایله کاسی لرین مسکونلاشدیقلاری فارس ویلایتینده زاگرس داغلارینین جنوب-شرقینده خورمبید شهریستانینین صفاشهر اراضی سینده سایی ۴-۳ مین نفر اولماقلا قورد طایفاسی یاشاماق‌دادیر. خزر دنیزینین جنوب-شرقینده یئرلشن یونان منبع‌لرینده هورکانییا، عربلرین طبریستان آدلاندیردیقلاری قورقان (فارسجا گرگان) اهالی‌سینین ٪۶۰-دان چوخونو تورکمن و دیگر تورک اهالی‌سی تشکیل ائدیر. اورداکی قورت-قویو ناحیه سی ان بؤیوک یاشاییش مسکن لریندن بیریدیر. مازندراندا قاجار،افشار طایفالاری ایله یاناشی نوشهرده قورد سویو دا یاشاییر. ری قصبه سینده قورد-بئچه طایفاسی مسکوندور. خمسه ائلینده ۱۰ مین نفره قه در قورد-بیگ‌لی ائلی یاشاماق‌دادیر.عراقی-عجمده و تهراندا ۲۵۰۰ خانه تورک-مافی سویو یاشاماق‌دادیر (رجب آلبایراق، ج،۱،ص.۳۲۷،۳۳۱،۳۳۳)

سووئت دؤورو تاریخ شناسلیغیندا آذربایجانی تورک دونیاسیندان قوپارماق مقصدی گوندن و اونون خالقینی تورکلشمیش ایران دیللی طایفالاردان عبارت بیر ائتنوس کیمی قلمه وئره‌ن رسمی گؤروش حاکم ایدی. بو تعریضه گؤره آذربایجان اهالی‌سی منشأ اعتباری ایله ایران دیللی طایفالاردان عبارت بیر اؤلکه اولموش و آذربایجان آدی دا بهمنی لرین کیچیک مادیادا ساتراپی اولان آتروپاتین آدیندان یارانمیش‌دیر. بئله‌لیکله، گئرچک تاریخله هئچ بیر علاقه‌سی اولمایان بو اویدورما تعریضه گؤره آذربایجان خالقی ائتنیک منشأ باخیمیندان تاریخین گئج دؤورلرینده سلجوقلارین گلیشی ایله گویا تورکلشمه‌یه معروض قالمیش ایران دیللی طایفالاردان عبارت اولموشلار .

آذربایجان آدینین آتروپات و آتورپاتاکان آدیندان یارانماسی و معناسینین اودلار یوردو و یا «آتشی قوروینالار» اؤلکه‌سی اولماسی حاققیندا اوزون ایللر عرضینده داوام ائدن تئزین تاریخی گئرچک‌لیکله هئچ بیر علاقه‌سی یوخدور. آذربایجان آدینین آتروپاتین آدیندان یاراندیغی حاققیندا آنتیک مؤلف لر ایسترابونون و آریانین اویدورما تئزی گؤرکه‌ملی تاریخچی لر ز.بونیادوو و وای. یوسیفون رهبرلیگی ایله نشر اولونموش «آذربایجان تاریخی» کیتابیندا دا، جدی تنقیده معروض قالاراق اساس‌سیز بیر ادعا کیمی رد ائدیلیر. مادیادا آتروپات آدلی بیر حوکمدارین اولماسی و آتوراپاتاکان آدلی بیر اؤلکه آدی یونان مؤلف لرینین بیر اویدورماسی و یا اؤلکه‌نین گئرچک آدینین یونان دیلینده تحریف اولونموش شکلی‌دیر .

ف.ایشپیگئله گؤره اول لر مادیا اؤلکه‌سی بوتؤولویه مالیک اولموش، سونرالار او، ایکی حیسه‌یه بؤلونموشدور. بؤیوک مادیا آدلانان شمال حیسه‌سی آتروپاتئنا آدلانان جنوب حیسه‌سیندن آیریلدی. یونان منبع‌لرینده یازیلدیغی کیمی گویا بو آیریلیغین سببی

مقدونیه لی ایسکندرین آتروپات آدلی بیر شخصی مادیانین شمال حیسه‌سینه ساتراپ تعیین ائتمه‌سی ایله باش وئریب. بو آتروپات ایفاده‌سینین دوزگونلویو بیر چوخلاری طرفیندن شوبهه آلتینا آلینیب .

ایشپیگئلین یازدیغینا گؤره ایرانلی لارین اولو حوکمداری جمشید آنا طرفدن تورانلی ایدی. جمشیدین آروادینی تورانلی زؤهاق قاچیرتدیقدان بیر مدت سونرا او تبریستان داغلارینا گئری دؤنموش و اوردا جمشی‌دی دوغموش‌دور. جمشید سونرادان اؤز آتاسی ضحاکدان اینتیقام آلاراق اونو دماوند داغیندا زنجیره وورموشدور .

ایران طایفالارینی اوزون ایللر عرضینده اسارت آلتیندا ساخلایان مادیانین ایلک شاهی دیوک ایران افسانه و تاریخی ادبیاتیندا نیفرتله قان ایچن،ظولومکار کیمی کاراکتئریزه اولونور و او آژی-داهاکا، ضحاک،ایلان-اژداها کیمی ائپیتئتلرله یاد ائدیلیر. تاریخده آتورپات آدلی حوکمدار اولمامیش‌دیر.ایران و هند تاریخی ادبیاتیندا دا، آتورپاتین ساتراپ دئییل، ساسانی لر دؤورونده ایراندا آتش پرستلرین مؤبه‌دان مؤبه‌دی، یعنی باش کاهینی اولدوغو یازیلمیش‌دیر. آدورباد و یا بعضی مؤلف لر طرفین‌دن آزرباد آدلانان مارئسپاندان، اردشیردن سونرا ساسانی ۲-جی شاپورون دؤورونده اونون باش ناظری اولموش و دینی اصلاحات لاری حیاتا کئچیریلمه‌سینه، داها دوغروسو اوستا متن لرینین تحریف ائدیله‌رک اونون ساسانی لرین منافعینه اویغون شکیله گتیریلمه‌سی ایشینه رهبرلیک ائتمیش‌دیر).جیوانسی.C.Modi ۱۹۲۸ ص. ۱۷۸ (

آوروپانین بیر چوخ گؤرکملی تاریخچی و لینگویست لری آذربایجان آدینین آتروپاتئن آدیندان یارانماسینا شوبهه ایله یاناشیردیلار. آلمانیانین مشهور ایران شناس عالیمی مایرهوفر یازیردی کی، پرسپولیس متن لرینده «آترپاتا» و «آترپاتا» آدلاری کئچیر، یالنیز بو اؤلکه آدی دئییل، آتشگه‌لرده خیدمت گؤسترن کاهین لره مخصوص تئرمین لردیر.(مایرهوفر م.۱۹۷۳، ص. ۳۲۱)

آلمانیانین ایران شناس تاریخچی‌سی آلفرد گوت ائشمید آذربایجان آدینین معناسینین فارس دیلی ایله علاقه لندیریلمه‌سینه اعتراض ائدرک یازیر کی، آذربایجان آدینین اودلار اؤلکه‌سی آدلانماسی یانلیش بیر ائتیمولوگیایا اساس‌لانیر. ف.کؤنیگ یازیر کی، آتروپاتئنا آدلاندریلان اراضینین یونان دؤورندن آتروپات آدلی بیر حاکم طرفیندن ایداره اولوندوغو یازیلمیش‌دیر. لاکین من میخی یازی متن لرینده بو آدا اویغون بیر اؤلکه آدینا راست گلمدیم. بو آد بوگونکی آذربایجان آدی ایله عینی لشدیریلیر. من میخی یازیلی متن لرده آنتارپاتتی و آندیرپاتتیانی آدلی ایکی یئر آدینا راست گلدیم، لاکین اونلار اؤلکه آدلاری دئییل، کیچیک قالا آدلاری ایدیلر. (کؤنیگ ف.۱۹۳۴، ص.۷)

آلمان ایران شناس بیلیم آدامی هوبشمان آذربایجان آدینین قدیم سوریا دیلینده آداربایقان شکلینده یازیلدیغینی و آتروپاتئنانین بو آدین سونراکی دؤورده فونئتیک ده‌ییشیک‌لیه اوغرامیش شکلی اولدوغونو یازیر.(هوبشمان ه.۱۸۹۵،ص.۱۴۳)

عیلام دیلینده هاتورادا شکلینده ایفاده اولونان سؤزون «ه» شکیل‌چی‌سینین نظره آلینمادان آچیلیشی آتور-آتا و یا آتار-آتا دئمک‌دیر.

یوخاری‌داکی استنادلاردان دا گؤروندویو کیمی میخی متن لر حاققیندا درین معلوماتی اولان قدیم تاریخین گؤرکملی اوزمان لاری آذربایجان آدینین آتروپات و آتروپاتاکان آدی ایله علاقه لندیریلمه‌سینه و همچینین اونون معناسینین «اودلار یوردو» شکلینده ایضاح ائدیلمه‌سینه قارشی چیخاراق بو شرحلری قبول ائتمیرلر. ساسانی لرین اردشیره و شاپورا عایید اولان کتیبه‌لرینده آذربایجان آدی یونان منبع‌لریندن فرق‌لی اولاراق آداریاقان کیمی یازیلمیش‌دیر. قدیم دؤورلردن اعتباران آذربایجانلا سیخ علاقه‌لره مالیک اولموش قدیم سوریانی و عرب منبع‌لرینده آذربایجان آدی آداربایقان شکلینده ایفاده اولونور. هئچ شوبهه‌سیز یونان مؤلف لری اونلار اوچون دقیق ایفاده‌سی چتین اولان یابانجی دیله‌کی آتوربایقان/آداربایقان آدینی ایران دیلینده‌کی آتش پرست‌لیک کاهین لرینین آدی اولان آتورپاتین آدی ایله عینی لشدیره‌رک تحریفه اوغراتمیشلار و تاریخی ادبیاتا دا بو شکیلده داخیل ائتمیشلر. فیکریمیزه گؤره آذربایجان آدینین گئرچک ایفاده‌سی آتورباقان شکلینده اولموشدور. آتورا سومر تانری‌سی اولدوغو کیمی همچینین سوبار/سابیرلرده او تانری آدی اولاراق آتور شکلینده ایفاده اولونوردو. سوبارتو- سوبار اؤلکه‌سی بو تانرینین آدی ایله آتوریا آدلانیردی. سومر دیلینده آتورا ائپونیمینین آنلامی «آنادان دوغولان یئر»، آنا یورد، وطن معناسیندادیر. توران سؤزو ده بوردان یارانیب. „آ« - سومر دیلینده بیر چوخ معنالارلا یاناشی همچینین آتا، نسل، اجداد، جینسی مایه دئمک‌دیر.(هاللوران جی.سامئریون لئخی جون. ۱۹۹۹، ص. ۷۴) آتورا ائپونیمی معین فونئتیک دەییشیک‌لییه اوغرایاراق اؤن آسیانین دیگر خالقلارینین دیلینه توران، آدور و آدار شکلینده کئچه‌رک تئونیم، ائپونیم، یئر، شهر، اؤلکه آدلاری کیمی ایستیفاده اولونموشدور. قوندولزون یازدیغینا گؤره سامی-آرامی تانریسی آتتار همچینین آدار، آتور تانری‌سی ایله علاقه دار اولوب «سولانان، سوواریلان تورپاق» آنلاییشی ایله علاقه دار ایدی.(جی وئندولین لئیجک. ۱۹۹۱. ص. ۱۵)

آذربایجان آدینین ائتیمولوگیاسی رشیدالدینین «اؤغوزنامه»سینده گئرچک‌لییه اویغون شکیلده بیر حادثه ایله علاقه دار تصویر ائدیر. اوردا یازیلمیش‌دیر کی، اوغوز خاقان آذربایجان ویلایتینی توتدوقدان سونرا اورادا اولدوقلاری واخت امر ائله‌دی کی، تپه یاراتماق اوچون هره اؤز اته‌یینده تورپاق گتیرسین و اونو بیر یئره تؤکسون. اوول او اؤز اته‌یینده تورپاق گتیریب تؤکدو. دؤیوش‌چولر ده اونون کیمی بیر اتک تورپاق گتیریب تؤکدولر. بؤیوک بیر تپه دوزلدی و آدینی آزربایقان قویدولار. «آذر» تورکجه اوجا دئمک‌دیر، «بایقان» وارلیلارین، بؤیوک لرین، اولولارین یئری معناسینی وئریر. بو اؤلکه بئله آدلا تانیندی و ائله بونا گؤره ده بو گون آذربایجان آدلانیر.(اوغوزنامه.باکی،۲۰۰۳ ص. ۲۲)

یوخاری‌داکی شرحلری نظره آلاراق آذربایجان آدینین کؤکونون سومر دیلینه باغلی اولدوغو و معناسینین «اولو اجدادین دوغولما یئری، اجداد یوردو» آنلامی داشییان قدیم تورانلی اؤن تورک خالقلاری اولان سومر و سوبارلارین آتورا آدلی تانریلارینین آدیندان یاراندیغینی گومان ائدیریک. سومرلر اؤز ایلکین وطن لرینی، اجداد یوردلارینی داغلیق بیر اؤلکه اولدوغونا محکم اینانملاری واردی و داغ اونلار اوچون سون درجه مقدس حساب اولونو. اونلار دوزه‌ن‌لیک اراضیدن عبارت اولان بین النهرینده داغ فورماسیندا سونی

تپه اوزرینده اوجالدیلان و ائ-کور (داغ ائوی) آدلانان مبدالرینی اؤزلرینین داغلیق اراضیدن عبارت یوردلارینین تجسسومو حساب ائدیردیلر. سومرلر بو محتشم ائ-کور (آکدیجا زیگگورات) مبدالرینی بوتون خالقین ایشتیراکی ایله ایمجی‌لیک یولو ایله اوجالدیردیلار. بو «اوغوزنامه» ده ده اؤز عکسینی تاپمیش‌دیر. سومر و سوبارلارین آتورا تانری آدیندان یارانان اؤلکه‌میزین آتورباقان آدینین ایضاحی «تانری آتورون یئری و یا اؤلکه‌سی» شکلینده دیر. سومر،کاسی،قوتی دیللرینده باقا تانری دئمک‌دیر، سونداکی آن شکیلچی‌سی کاسی و قوتی دیللرینده منسوبیت شکیلچی‌سی اولوب یئر-مسکن آنلامی داشییر. آدورباقان آدی عرب دیلینین د-ق حرف لرینین «ج» ایله اوزله‌نمه‌سی قایداسینا اویغون اولاراق عرب دیللی یازیلی منبع‌لرده آذربایجان شکلینده ایفاده اولونموشدور.(گورگان آدی دا عرب دیلینده جورجان شکلینده ایفاده اولونور). باقا-تو تانری آدی سونرادان دیلیمیزه بایات تانری آدی شکلینده کئچمیش‌دیر. تورک لرده تانری آدلارینین،یانی تئونیملرین ائتنونیملره دؤنوشمه‌سی حادثه‌سی چوخ یایقین‌دیر. بایات قبیله آدی دا تانری بایاتین آدیندان یارانمیش‌دیر. فیکریمیزه گؤره آذربایجان آدینین «آذر» سؤزوندن یاراندیغی حاققیندا اساسی احمد کسروی طرفیندن قویولموش و بو گون ده جزعی ده‌ییشیک‌لیکلرله یئنی‌دن اورتایا آتیلان تئزیس، سووئت دؤوروندن میراث قالمیش اویدورما «آذربایجان دیلی» و «آذربایجان خالقی» کونسئپسیاسینی دوغرولتماق ایشینه خیدمت ائده‌رک تاریخی گئرچک‌لیی عکس ائتدیرمیر.

**قایناقلار**


۱ Albayrak.ر.تورک لرین ایرانی.ج.۱،باکی ۲۰۱۶،

۲ Arnaut.فوورنئت، کاسسیتئ لانگواگئ این آ جومپوراتیوئ پئریسپئجتیوئ with هورریان آند Uratian.The ماجرو-جومپوراتیوئ ژوورنال وول. ۱.۱۹۷۸№۲،ص.۶

۳ Balfour.ائ، تهئ جیجلوپæدیا اوف ایندیا آند اوف ائاستئرن آند سووتهئرن آسیاV. II...، ۳رد ائد.، لوندون، ۱۸۸۵،

Bartold V.۴.،اورتا آسیا تورک تاریهی هاککیندا dersler.Ankara ۱۹۷۵،

۵ Bayur.یوسیف هیکمئت.تورک تاریهینین آنا هاتلاری. ایستانبول،۱۹۳۰،ص.۳۷۱

۶ Billerbeck A.Susa.ائینئ ایستودیئ زور آلتئن گئسجهیجهتئ Westasiens.Leipzig،۱۸۹۳،

۷ Brunnhofer.هئرمانن. اورگئسجهیجهتئ آریئن این ووردئر اوند جئنترال Asien.Leipzig. ۱۸۹۳

۸ Bryant Edwin.آند لاورا Patton.The ایندو-آریان Contorversy.New یورک.۲۰۰۵

۹ Cameron.History.اوف ائارلی İran.Chicago.۱۹۳۶،ص.۱۱۸

۱۰ Christian.کیسجه. دئر ایستراتئگیسجهئن گئسجهیجهتئ. فرئیبورگ،۲۰۱۱

۱۱ Civanshi C.Modi.Ataropatakan. Where was.ایت سیتواتئد ؟.جاما اوریئنتالئ اینستیتوتئ ۱۹۲۸journal.Bombay

۱۲ Gwendolyn.لئیجک.آ دیجتوناری اوف آنجیئنت نئار ائاستئرن Mythology.New یورک.۱۹۹۱،

۱۳ Halloran J.Sumerion.لئخیجون.۱۹۹۹،

۱۴ Haussig.ه. دیئ قوئللئن اوبئر دیئ زئنترالاسیاتیسجهئ. هئرکونفت دئر ائوروپäایسجهئنAwaren ، این: جاژ ۲ ،۱۹۵۶،

۱۵ Hinz W.The.لاتئر کینگدوم Elam.London ۱۹۷۲

۱۶ Hommel.ف.،گئوگرافی اوند پولیتیسجهئ گئسجهیجهتئ دئس کلاسسیسجهئAltertum.Nordlinge ۱۸۸۹،

۱۷ Hommel.ف. گئسجهیجهتئ بابیلونیئنس اوند آسسیریئنس. بئرلین،۱۸۸۵

۱۸ Hrozni.ب. آنجیئنت هیستوری اوف western آسیا، ایندیا آند جرئتئ New .یورک، ۱۹۵۳ .

۱۹.هوبسجهمان ه. پئرسیسجهئstudien.Tr اوبنئر،۱۸۹،

۲۰.هوزینگ G.Der زاگروس اوند دئینئ وؤ ۱۹۰۸lker.Leipzig .

۲۱ Jackson A.V.Iranisches.پئرسونئنامئنبوجه، .Wienژاوس. ژوورنال اوف تهئ آمئریجان اوریئنتعالیسجهئ ائینلئیتونگ.۱۹۲۹.،

۲۲ Jensen P.Hittiter.اوندArmenier.Strassburg ، ۱۸۹۸ .

۲۳.کؤنیگ فÄ .لتئستئ گئسجهیجهتئ مئدئر اوند.Perser.Leipzig ۱۹۳۴،

۲۴ Kvint.کورتی Rufus.Geschichte آلئکساندئرس دئس گروسسئن.۷ .۶.۱۷.Band.2.Damstadt ۲۰۰۷.

۲۵ Lenormant F.La.لانگوئ پریمیتیوئ دئ لا Chaldee.Et لئس ایدیومئس Touraniens.Paris ۱۸۷۵،

۲۶ Mayrhofer.م. اونوماستیجا.Persopolitana.Wien ۱۹۷۳،

۲۷ Max.موللئر. لئتتئر تو جهئوعالیئر بونسئن، اون تهئ جلاسسیفیجاتیون اوفت هئ تورانیان لانگواگئس. لوندون، ۱۸۵۴،

۲۸..نیبوهرM.Carsten ، گئسجهیجهتئ آشورس اوند بابئلس. بئرلین،۱۸۵۷،

۲۹.اوغوزنامه.باکی،۲۰۰۳

۳۰ Potts.د. تهئ آرجهئولوگی اوف عیلام. جامبریدگئ اونیوئرسیتئت پرئسس، ۱۹۹۹

Taberi۳۱.، میللئتلئر و هوکومئتلئر تاریهی.جI.،ایستانبول، ۲۰۰۷

۳۲ The.جامبریدگئ هیستوری اوف ایران. وول. ۲. ۱۹۶۸

۳۳ Terrien.دئ لاجوپئریئ. Westerin .اوریگین اوف تهئ ائارلی جهینئسئCivilization.London ۱۸۹۴،

Siyabl۳۴.ی السگر .توران-تورک تاریخینده افراسیاب و اوغوزxaqan.Bak ی.۲۰۲۲

۳۵ Shoberl.ف.Persia.Philadelphia. ۱۸۲۸،

۳۶ Spigel F.Eran.Das.لاند zwischen دئم ایندوس اوند .Tigris.Berlin ۱۸۶۳،

۳۷ Stokes.ژ. ائنجیجلوپیئدیا اوف تهئ پئوپلئس اوف آفریجا آند تهئ میددلئ East.New یورک ۲۰۰۹،

۳۸ Ungnad.آرتور. سوبارتو. بئیتراگئ زور کولتورگئسجهیجهتئ اوند وؤلکئرکوندئ ووردئراسیئنس، بئرلین/لئیپزیق، ۱۹۳۶.ص.۱۹۷

۳۹ Wambery.هئرمانن-دیئ پریمیتیوئ کولتور دئس تورکو-تاتاریسجهئنvolkes.Leipzig ، ۱۸۷۹

۴۰ Winkler H.Geschichte.بابیلیونئنس اوند آسسیریئس. لئیپزیگ.۱۸۹۲،

۴۱ Zehtabi.م ت،ایران تورک لرینین اسکی تاریخی. ایستانبول، ۲۰۱۰ .

۴۲ .Древнетюркский Словарь. Л. ۱۹۶۹

۴۳ .Дьяконов И. М. История Мидии.ت I ، Баку.۲۰۱۲،

۴۴ .Дьяконов И.М.Восточный Иран до Кира. История Иранского государства и культура. M.۱۹۷۱،

۴۵ Гордлевский.آ، История Государство сельджукидов Малой Азии. ۱۹۴۱

۴۶Ибрагимова К.А.Идеология Иранского обществ эпоху Ахеменидско.ای державы. Електронное научное издания Альманах Пространство и Время. Т.۵، Вып.۱، ч.۲، ۲۰۱۴

۴۷ Кляшторный С.Г.История Центральной Азии и памятники рунической письма.С-П. ۲۰۰۳

۴۸ Радлов В. Из Сибири. М. ۱۹۸۹،

۴۹Страбон. География.، Книга XI. M. ۱۹۹۴

۵۰ Фрай.پ.، Наследия Ирана. م، ۲۰۰۲